Xalqın qəzeti!

# Xalq qəzeti

№ 286 (30690) 26 dekabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Təyyarə qəzası xalqımız üçün böyük faciədir

## Prezident İlham Əliyev təyyarə qəzası ilə bağlı müşavirə keçirib



**Xəbər verdiyimiz kimi, Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşən Prezident İlham Əliyevə Rusiya hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilib və dövlətimizin başçısı dərhal geri dönmək barədə tapşırıq verib.**

Təyyarə endikdən dərhal sonra Prezident İlham Əliyev hadisə ilə bağlı Heydər Əliyev Beynəlxalq Aeroportunda müşavirə keçirib.

Dövlətimizin başçısı müşavirədə çıxış edərək deyib:

– Təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət diləyirəm. Onların ailələrinə, yaxınlarına Allahdan səbir diləyirəm, başsağlığı verirəm. Bu, böyük faciədir, Azərbaycan xalqına böyük facə üz vermişdir.

Mən bu gün səhər MDB Zirvə görüşündə iştirak etmək üçün Bakıdan Sankt-Peterburqa təyyarə ilə uçurdum və uçuş zamanı bu qəza ilə, bu faciə ilə bağlı mənə məlumat verildi. Dərhal göstəriş verdim və təyyarə geriyə – Bakıya döndü. Hələ havada ikən mənim tərəfimdən müvafiq göstərişlər verildi, Baş nazirlə danışdım, onun rəhbərliyi ilə komissiya yaradıldı. Eyni zamanda, Azərbaycan nümayəndələrindən ibarət heyət qəzanın baş verdiyi Aktau şəhərinə ezam edilmişdir. Əlavə göstəriş verildi ki, Azərbaycan həkimlərindən ibarət briqadalar da Aktau şəhərinə tezliklə ezam olunsun.

*(ardı 2-ci səhifədə)*

## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin Bakı–Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirərkən qəzaya uğraması nəticəsində həlak olanların xatirəsini yad etmək məqsədilə Azərbaycan Respublikasında matəm elan edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2024-cü il dekabrın 25-də Bakı–Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qəza nəticəsində həlak olanların ailələrinin kədərinə şərik olaraq **qərara alıram:**

2024-cü il dekabrın 26-da Azərbaycan Respublikasının ərazisində matəm elan edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2024-cü il**

## COP29 ölkəmizin iqtisadi inkişafına təkan verib




Səhifə ⇨ 9

## "Facebook" inqilabı"ndan "Tik-Tok" inqilabı"na keçid

**Baş nazir Nikol Paşinyanın Ermənistanın üç keçmiş prezidenti ilə Qarabağ mövzusunda debat təklifi ölkənin siyasi həyatının başlıca mövzusudur. Xaricdə və daxildə bununla bağlı müxtəlif rəylər, çıxarılan nəticələr var. Ən başlıca qənaət isə budur ki, Paşinyan iqtidarı 2026-cı il seçkilərinə indidən hazırlaşır.**

Nikol Qarabağ məsələsinin xəstə erməni cəmiyyəti üçün nə dərəcədə böyük prioritet daşıdığını gözəl anlayır və bu həssaslığın üzərinə oyun qurur. Onun konkret olaraq hansı oyunu qurmağı barədə söz açacaq, müəyyən fikirləri diqqətə çatdıracağıq.

*

Arayış üçün bildirək ki, dekabrın 23-də N.Paşinyan "Facebook" hesabında paylaşım edərək, Birinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycan–Ermənistan nizamlama prosesinə dair danışıqlarda Qarabağın Azərbaycanın tərkibində qalması kazusunun əsas götürüldüyünü bildirdi. O, 2018-ci ildə danışıqların məz-



munu ilə tanış olduqdan sonra bunu xalqa deməməklə böyük səhvə yol verdiyini etiraf etdi. Baş nazir daha böyük səhvə isə bir il sonra yol verdi və bu məsələyə nəzər salacağıq.

**(ardı 6-cı səhifədə)**

## "Böyük manipulyator"

Səhifə ⇨ 4

## Cənubi Qafqazda geosiyasi gərginliyi səngiməyə qoymurlar



Səhifə ⇨ 5

## Təyyarə qəzası ilə bağlı telefon zəngləri

**Dekabrın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Rəcəb Tayyib Ərdoğan baş vermiş təyyarə qəzası ilə əlaqədar Azərbaycan Prezidentinə, həlak olanların ailə üzvlərinə başsağlığı verib, yaralananlara şəfa diləyib.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirib.

*

**Prezident İlham Əliyev təyyarədə olarkən Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.**

Telefon danışığı əsnasında Prezident İlham Əliyev bu gün Azərbaycan Hava Yolları şirkətinə məxsus Bakı–Qroznı istiqamətində uçan sərnişin təyyarəsinin qəzaya uğraması ilə əlaqədar Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edə bilməyəcəyini və geri dönmək haqqında qərar qəbul etdiyini bildirib.

Dövlət başçıları sıralarında Azərbaycan, Rusiya və digər ölkələrin vətəndaşlarının yer aldığı təyyarə qəzası ilə əlaqədar bir-birilərinə və həyatını itirən şəxslərin ailə üzvlərinə və yaxınlarına başsağlıqlarını ifadə edib və xəsarət alanların tezliklə şəfa tapmasını diləyiblər.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan Prezidenti Aktau yaxınlığında baş vermiş təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verib


"Azərbaycan Hava Yolları" şirkətinə məxsus Bakı-Qroznı istiqamətində uçan sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə dərin hüznlə baş sağlığı verir, xəsarət alanların tezliklə şəfa tapmasını diləyirəm.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Aktau yaxınlığında baş vermiş təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verib.**

Dövlətimizin başçısı bununla bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımda deyilir: "Azərbaycan Hava Yolları" şirkətinə məxsus Bakı–Qroznı istiqamətində uçan sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə şəfa tapmasını diləyirəm".

## Birinci vitse-prezident Mehriban Əliyeva Aktau yaxınlığında baş vermiş təyyarə qəzası ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Aktau yaxınlığında baş verən təyyarə qəzası ilə bağlı paylaşım edib.**

Paylaşımda deyilir: "Aktau yaxınlığında təyyarə qəzası nəticəsində insanların faciəli şəkildə həlak olması xəbəri məni dərindən sarsıtdı. Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, onlara güc və səbir diləyirəm. Yaralananların tezliklə şəfa tapmasını arzulayıram. Uca Allah xalqımızı bütün bəlalardan və bədbəxtliklərdən qorusun!".

# Prezident İlham Əliyev təyyarə qəzası ilə bağlı müşavirə keçirib

**(əvvəli 1-ci səhifədə)**

Komissiyanın işi məsələni tam araşdırmaqdır, qəzanın səbəblərini və bütün təfərrüatlarını araşdırıb həm mənə, həm də Azərbaycan ictimaiyyətinə məlumat verməlidir. Mənə verilən məlumata görə, Bakı–Qroznı marşrutu ilə hərəkət edən AZAL şirkətinə məxsus təyyarə havanın pisləşməsi ucbatından istiqamətini dəyişmiş və Aktau hava limanına tərəf uçmağa başlamış, eniş zamanı qəza baş vermişdir. Mediada, sosial şəbəkələrdə təyyarənin qəzaya uğraması anları mövcuddur. Ona görə onu hər kəs görə bilər. Ancaq qəzanın səbəbləri bizə bəlli deyil. Müxtəlif versiyalar var. Hesab edirəm ki, hələ bu barədə danışmaq tezdir. Məsələ tam araşdırılmalıdır. Baş Prokurorluq tərəfindən cinayət işi açılmışdır və təbii olaraq, Azərbaycan ictimaiyyəti həm komissiyanın işinin nəticələri, həm də cinayət işinin gedişatı ilə bağlı müntəzəm olaraq məlumatlandırılacaq.

Qəzada həlak olanların və onların yaxınlarının acısını çəkərək, həlak olanlara Allahdan bir daha rəhmət, yaralananlara şəfa, həlak olanların, yaralananların yaxınlarına, doğmalarına səbir diləyirəm. Sağ olun.

*AZƏRTAC*

## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin Bakı–Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirərkən qəzaya uğraması səbəblərini araşdırmaq üçün Dövlət Komissiyasının yaradılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2024-cü il dekabrın 25-də Heydər Əliyev Beynəlxalq Aeroportundan saat 07:56-da havaya qalxan və Bakı–Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" təyyarəsinin Qazaxıstan Respublikasının Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı və xəsarət alanlar olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, baş vermiş hadisənin səbəblərini araşdırmaq və müvafiq tədbirlər görmək məqsədilə **qərara alıram:**

**1.** 2024-cü il dekabrın 25-də baş vermiş təyyarə qəzasının səbəblərini araşdırmaq və müvafiq tədbirlər görmək məqsədilə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Dövlət Komissiyasının sədri**

Əli Əsədov – Azərbaycan Respublikasının Baş naziri

**Dövlət Komissiyasının üzvləri:**

Şahin Mustafayev – Azərbaycan Respublikası Baş nazirinin müavini

Rəşad Nəbiyev – Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

Samir Rzayev – "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti

Ceyhun Bayramov – Azərbaycan Respublikasının xarici işlər naziri

Kamran Əliyev – Azərbaycan Respublikasının Baş prokuroru

Vilayət Eyvazov – Azərbaycan Respublikasının daxili işlər naziri

Əli Nağıyev – Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

Kəmaləddin Heydərov – Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Teymur Musayev – Azərbaycan Respublikasının səhiyyə naziri

Sahil Babayev – Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Arif Məmmədov – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru.

**2.** Dövlət Komissiyası:

2.1. baş vermiş qəzanın səbəblərini qısa müddətdə araşdırıb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. qəza nəticəsində həlak olmuş və xəsarət almış şəxslərin ailələrinə müvafiq yardım göstərilməsini təmin etsin;

2.3. qəza nəticəsində həlak olmuş və xəsarət almış xarici ölkə vətəndaşları ilə bağlı məsələləri həll etsin;

2.4. Dövlət Komissiyasının fəaliyyəti barədə ictimaiyyətə mütəmadi məlumat versin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

**Bakı şəhəri, 25 dekabr 2024-cü il**

# Təyyarə qəzası ilə bağlı məsələlər dövlət başçısının nəzarətindədir

**Dünən Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşən Prezident İlham Əliyevə Rusiya hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilib və dövlət başçısı dərhal geri dönmək barədə tapşırıq verib.**

Təyyarədə olarkən dövlət başçısı tərəfindən qəzanın səbəblərinin araşdırılması və təxirəsalınmaz tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumlarına lazımi tapşırıqlar verilib.

Baş vermiş təyyarə qəzası ilə əlaqədar məsələlər dövlət başçısının nəzarəti altındadır.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin olduğu təyyarə Bakı şəhərində Heydər Əliyev Beynəlxalq Aeroportuna eniş edib.**

Sankt-Peterburq şəhərində MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiyaya səfərə yola düşən Prezident İlham Əliyevə baş vermiş qəza ilə bağlı məruzə olunan kimi, dövlət başçısı dərhal geri dönmək barədə tapşırıq verib və Azərbaycana qayıdıb.

*Prezidentin Mətbuat Xidmətinin məlumatı*

# Təyyarə qəzasını araşdıran Dövlət Komissiyasının iclası



**Dekabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təyyarə qəzasının səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumat görə, Komissiyanın sədri Əli Əsədov Prezident İlham Əliyevin hadisə ilə bağlı araşdırmanı şəxsi nəzarətə götürdüyünü bildirib.

Dövlət Komissiyası bir sıra vacib və təxirəsalınmaz məsələləri, o cümlədən qəza nəticəsində xəsarət alanlara və yaralananlara zəruri yardım göstərilməsi ilə bağlı işləri nəzərdən keçirib. Həmin şəxslərə Qazaxıstan tərəfi ilə birlikdə tibbi yardım göstərilməsi üçün səhiyyə naziri Teymur Musayevə müvafiq tapşırıqlar verilib.

Qəza nəticəsində həlak olmuş şəxslərin identifikasiyası üzrə işlərin aparıldığı qeyd olunub. Xəsarət almış şəxslərin ailələri və yaxınları ilə zəruri işlərin aparılması istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi ilə bağlı tapşırıq verilib.

Heydər Əliyev Beynəlxalq Aeroportunda yaradılmış "Qaynar xətt" vasitəsilə qəzaya uğramış təyyarənin sərnişinlərinin ailə üzvləri və yaxınları müvafiq qaydada məlumatlandırılaraq, onlara psixoloji və digər zəruri dəstək göstərildiyi qeyd edilib.

Azərbaycan Respublikası Baş Prokurorluğunun qazaxıstanlı həmkarlarla birlikdə hadisənin başvermə səbəblərini araşdırdığı və cinayət işi üzrə istintaq apardığı bildirilib. İstintaqın gedişi haqqında ictimaiyyətin müntəzəm qaydada məlumatlandırılması ilə bağlı tapşırıq verilib.

Qəza nəticəsində xəsarət almış və hazırda Aktau şəhərində müalicəsi davam edən Azərbaycan vətəndaşlarının zərurət yarandıqca və həkimlərin razılığı əsasında ölkəmizə evakuasiyasının təşkili ilə əlaqədar müvafiq tədbirlərin görüldüyü bildirilib.

Xəsarət almış şəxslərə zəruri yardım göstərilməsi və bundan irəli gələn digər məsələlərin həlli ilə bağlı qazaxıstanlı həmkarlarla hökumət üzvləri səviyyəsində daimi sıx təmasların və birgə səylərin həyata keçirildiyi vurğulanıb. Komissiya üzvlərinə səlahiyyətləri üzrə müvafiq işlərin aparılması ilə bağlı tapşırıqlar verilib.

*XQ*

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli Prezident, Əziz Qardaşım!**

Bu gün səhər Qazaxıstanın Aktau şəhərində "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğradığını, qəzada həyatını itirənlərin və xəsarət alanların olduğunu böyük kədər hissi ilə öyrəndim.

Zati-alinizə və qardaş Azərbaycan xalqına, xüsusən də yaxınlarını itirənlərə xalqım və şəxsən öz adımdan başsağlığı verir, səbir diləyirəm. Uca Allahdan həyatını itirənlərə rəhmət, yaralılara tezliklə şəfa diləyirəm.

Fürsətdən istifadə edərək, Zati-alinizin və qardaş Azərbaycan xalqının rifah və firavanlığı üçün ən xoş arzularımı bir daha bildirirəm.

*Rəcəb Tayyib ƏRDOĞAN,*
*Türkiyə Respublikasının Prezidenti*

*

**Hörmətli İlham Heydər oğlu!**

Qazaxıstanın Aktau şəhərinin yaxınlığında qəzaya uğrayan "Azərbaycan Hava Yolları" QSC-nin təyyarəsinin sərnişinlərinin və heyət üzvlərinin həlak olması ilə bağlı faciəli xəbəri dərin hüznlə qarşıladım.

Bu çox ağır itkinin kədərini bölüşərək Sizə, mərhumların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Mənim tapşırığımla yaradılan Qazaxıstan Hökuməti yanında Dövlət Komissiyası xilasetmə əməliyyatı çərçivəsində lazımi tədbirləri görür, həmçinin insanların həyatının xilas edilməsinə və sağ qalan vətəndaşların reabilitasiyasına maksimum kömək göstərir.

Sizi əmin edirəm ki, Qazaxıstan yaralananlara dostluq və qardaşlıq ruhunda kömək göstərilməsi, onların öz vətənlərinə sağ-salamat qayıtmaları, eləcə də bu hadisənin bütün hallarının aydınlaşdırılması prosesində Azərbaycan tərəfinə hərtərəfli dəstək verəcəkdir.

**Dərin hüznlə,**

*Kasım-Jomart TOKAYEV,*
*Qazaxıstan Respublikasının Prezidenti*

*

**Mərhəmətli və rəhmli Allahın adı ilə!**
**Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyev!**

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması xəbəri bizi dərindən kədərləndirdi.

Zati-alinizə və əziz Azərbaycan xalqına, xüsusilə də həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verir, Uca Allahdan həyatını itirənlərə rəhmət diləyir, yaralılara şəfa arzu edirəm.

*Məsud PEZEŞKİAN,*
*İran İslam Respublikasının Prezidenti*

*

**Hörmətli İlham Heydər oğlu!**

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstan Respublikasının Aktau şəhəri yaxınlığında qəzaya uğraması və nəticədə çoxsaylı insan tələfatı ilə bağlı faciəli xəbəri dərin hüznlə və kədərlə qarşıladım.

Mərhumların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. Bütün zərərçəkənlərin tezliklə sağalmalarını arzu edirik.

**Dərin hüznlə,**

*Emoməli RƏHMON,*
*Tacikistan Respublikasının Prezidenti*

*

**Hörmətli İlham Heydər oğlu!**

"Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar dərin hüznlə başsağlığımı və yaralananlara şəfa diləklərimi qəbul edin.

Bu çətin anda Türkmənistan xalqı, Hökuməti adından və şəxsən öz adımdan həlak olanların bütün doğmalarına və yaxınlarına başsağlığımızı, eləcə də zərərçəkənlərə tezliklə şəfa tapmaları ilə bağlı arzumuzu çatdırmağınızı xahiş edirəm.

**Dərin hörmətlə,**

*Sərdar BERDİMƏHƏMMƏDOV,*
*Türkmənistanın Prezidenti*

*

**Zati-aliləri!**

Azərbaycan vətəndaşlarının həyatını itirməsi ilə nəticələnən faciəvi təyyarə qəzası xəbərini dərin kədərlə qarşıladıq. Bu qüssəli anlarda Bosniya və Herseqovina xalqı adından və şəxsən öz adımdan Sizə dərin hüznlə başsağlığı verirəm.

Həlak olanların ailələri və yaxınlarının, eləcə də bütün Azərbaycan xalqının kədərini bölüşürük. Bu faciə nəticəsində həyatını itirənlərin ruhu şad olsun, yaralananların tam sağalmasını diləyirik.

Sizə dərin ehtiramımızı və dəstəyimizi ifadə edirik.

**Hörmətlə,**

*Jelka TSVİYANOVİÇ ,*
*Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri*

*

**Zati-aliləri!**

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhərinin yaxınlığında qəzaya uğraması xəbəri məni dərindən sarsıtdı.

Gürcüstan Hökuməti və gürcü xalqı adından Sizə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Bu çətin anlarda biz qardaş Azərbaycanın yanındayıq. Həlak olanların ailələrinə başsağlığı verir, yaralılara tezliklə sağalmasını arzulayırıq.

Zati-aliləri, Sizin və dost Azərbaycan xalqının kədərini bölüşürük.

**Hörmətlə,**

*İrakli KOBAXİDZE,*
*Gürcüstanın Baş naziri*

*

**Zati-aliləri!**

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Aktau yaxınlığında faciəvi şəkildə qəzaya uğraması və insanların həlak olması ilə bağlı xəbər bizi dərindən sarsıtdı.

ICESCO adından və şəxsən öz adımdan Zati-alinizə, həlak olanların ailələrinə və o çətin anı yaşamış bütün insanlara dərin hüznlə başsağlığı verirəm. Kədərinizə şərikik və bu faciəvi hadisənin ağrı-acılarını Sizinlə birgə bölüşürük.

Dünyasını dəyişənlərin ruhu şad olsun. Yaralananların tezliklə sağalması üçün dua edirik. Allah həlak olanların ailələrinə və yaxınlarına səbir versin.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Salim bin Məhəmməd ƏL-MALİK,*
*ICESCO-nun Baş direktoru*

# FHN və AZAL-ın birgə məlumatı

**"Azərbaycan Hava Yolları"nın təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həyatını itirən sərnişinlərin və ekipaj üzvlərinin cənazələri yaxın zamanda Azərbaycana gətiriləcək.**

Bu barədə Fövqəladə Hallar Nazirliyinin və "Azərbaycan Hava Yolları" QSC-nin birgə məlumatında deyilir.

Qeyd olunur ki, xəsarət alanların AZAL-ın xüsusi reysi ilə ölkəyə gətirilməsi planlaşdırılır. Xəsarət almış sərnişinlər həkim rəyləri əsasında sağlamlıq vəziyyəti imkan verdiyi halda sözügedən reyslə Bakıya çatdırılacaqlar.

Bununla bağlı Azərbaycanın və Qazaxıstanın aidiyyəti dövlət qurumları tərəfindən müvafiq tədbirlər görülür.

*XQ*

# Təyyarə qəzası ilə bağlı MEDİA-nın çağırışı

**Bəzi onlayn media subyektlərində Azərbaycan Hava Yolları (AZAL) aviaşirkətinin Bakı-Qroznı reysini yerinə yetirən təyyarəsinin Aktau şəhərinin yaxınlığında qəzaya uğramasının səbəblərinə dair müxtəlif mülahizələr əsasında məlumatlar yayılmaqdadır.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Media subyektlərini məlumat yayarkən "Media haqqında" Azərbaycan Respublikası Qanununun mediada dərc olunan və (və ya) yayımlanan informasiyaya dair tələblərinə əməl etməyə, rəsmi mənbələrin rəyini əks etdirməyən, təhrif olunmuş informasiya hazırlamaqdan çəkinməyə çağırırıq.

Bu barədə Medianın İnkişafı Agentliyinin açıqlamasında bildirilib.

"Xüsusi vurğulayırıq ki, bu kimi hallar media etikasının tələblərinə cavab verməmiklə yanaşı, media subyektinin hüquqi məsuliyyətini şərtləndirir.

Jurnalistləri, ictimai fəalları belə məsələlərə qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların vüsət aldığı bir şəraitdə sayıq olmağa, cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa çağırırıq", – deyə açıqlamada qeyd olunub.

*XQ*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 531** **Bakı şəhəri, 20 dekabr 2024-cü il**

**“Hökmran mövqedən sui-istifadənin obyektiv zəruriliyinin və səmərəliliyinin qiymətləndirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Hökmran mövqedən sui-istifadənin obyektiv zəruriliyinin və səmərəliliyinin qiymətləndirilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 532** **Bakı şəhəri, 20 dekabr 2024-cü il**

**“Maliyyə bazarlarında təmərküzləşmədə iştirak edən maliyyə institutları tərəfindən rəqabət orqanından razılıq alınmasını şərtləndirən meyarların (təmərküzləşmədə iştirak edən maliyyə institutlarının aktivlərinin ümumi dəyərinin, ümumi dövriyyəsinin həcmi)”nin təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

“Maliyyə bazarlarında təmərküzləşmədə iştirak edən maliyyə institutları tərəfindən rəqabət orqanından razılıq alınmasını şərtləndirən meyarlar (təmərküzləşmədə iştirak edən maliyyə institutlarının aktivlərinin ümumi dəyəri, ümumi dövriyyəsinin həcmi)” təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

*Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# 2025-ci ildə Naxçıvan MR-in büdcə layihəsi təsdiq olunub

**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının növbəti iclasında “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında Qanunun və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında” qərarın layihələri müzakirə edilib.**

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov muxtar respublikanın sosial-iqtisadi inkişafı və 2025-ci il Naxçıvan Muxtar Respublikasının büdcəsi barədə çıxış edib. Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyev Ali Məclisin 2025-ci il xərclər smetası haqqında məlumat verib.





Gündəlikdə duran birinci məsələ ilə bağlı Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, qanun layihəsi 23 dekabr 2024-cü il tarixdə Ali Məclisin iclasında ikinci oxunuşda müzakirə edilib və aparıcı komitə tərəfindən üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclisin iclasının gündəliyinə salınıb.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev qanun layihəsi barədə məlumat verib. “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərar layihəsi səsə qoyularaq qəbul edilib.

**XQ**

# Rusiya XİN rəsmisi: Minsk qrupu ləğv edilməlidir

**“Minsk konfransının bütün strukturları – Minsk qrupu, yüksək səviyyəli planlaşdırma qrupu, ATƏT-in fəaliyyətdə olan sədrinin Qarabağ məsələsinin həlli üzrə şəxsi nümayəndəsi vəzifəsi ləğv edilməlidir”.**



Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova brifinqdə bu açıqlamasının davamında deyib: “Müvafiq qərarların qəbul edilməsinin optimal yolu bu qurumların ləğvi ilə bağlı Bakı və İrəvanın birgə təklifidir”.

Zaxarovanın sözlərinə görə, Minsk qrupunun həmsədrləri olan amerikalılar və fransalılar 2022-ci ilin fevralından rusiyalı həmkarları ilə əlaqəni kəsiblər: “Bundan sonra isə 2022-ci il oktyabrın 6-da Praqada keçirilmiş Azərbaycan–Ermənistan–Aİ–Fransa sammitinin yekununda Ermənistanın özü Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı”.

Rusiya XİN rəsmisi əlavə edib ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin Qarabağ nizamlanması üzrə təsdiq edilmiş mandatı 2023-cü ilin sentyabrında yerlərdə vəziyyətin əsaslı şəkildə dəyişməsi ilə əlaqədar aktuallığını itirib.

**XQ**

# Yelisey sarayında “dinozavr iyi”



**Bayru hökumətinin tərkibi solçuların iştirakı olmadan, ancaq bir neçə makronistin iştirakı ilə açıqlanıb. Mişel Barnyenin dövründə olduğu kimi, yenə də Marin Lö Penin qrupu arbitr mövqeyindədir.**

F.Bayru hökumətinin tərkibi açıqlandıqdan dərhal sonra bu hökumətin də ömrünün uzun olmayacağı səsləndirilir. 35 nazirdən ibarət hökumət elan olunandan dərhal sonra solçular və ifrat sağçı Milli Birlik partiyaları tərəfindən pislənilib, hətta sağçı Respublikaçı Partiyası tərəfindən tənqid olunub. Sonuncular M.Barnyenin sadiq tərəfdarları idilər.



Bildirilir ki, ədliyyəyə Jeral Darmanən, milli təhsilə Elizabet Born, gender bərabərliyinə Oror Berje, büdcəyə Ameli dö Monşalənin təyinatından, eləcə də keçmiş baş nazir və sosialist Manuel Vallsın gəlişi ilə makronist tanınmışlar hökumətə qayıdıblar. “Həqiqətən də dinozavr iyi gəlir və bu, V Respublikanın sona çatmasına səbəb olacaq”, – deyə parlamentarilər bildirib.

Bəziləri yeni hökuməti hətta “Barnye II” adlandırıb. Təyin edilmiş 35 nazirdən 19-u Assambleya tərəfindən devrilmiş əvvəlki komandanın bir hissəsidir. Yeni daxil olanların üçdə biri artıq Emmanuel Makronun rəhbərliyi altında hökumətin üzvü olub.

Barnye hökumətində Respublikaçıların və Makron partiyası “Renaissance”ın müvafiq olaraq 10 və 11 portfeli, MoDem-in isə üç portfeli var idi. Buna görə də prezident partiyası bu yeni hökumətdə 12 nazirliklə üstünlüyü bərpa edib, LR 6 nazirliyə, Fransua Bayrunun sədrlik etdiyi MoDem partiyası isə cəmi 2 nazirliyə (Xarici İşlər və Parlamentlə Əlaqələr) rəhbərlik edir.

Ancaq yeni hökumətdə solçular təmsil olunmur. Barnye hökumətinin süqutundan sonra Yelisey sosialistləri hökumətə daxil olmağa inandırmağa ümid edirdi. Çoxsaylı görüşlərə baxmayaraq, 2024-cü ilin dördüncü Baş naziri istədiyi kimi şəxsiyyətlərin üçdə birini sağdan, üçdə birini soldan, üçdə birini isə mərkəzdən təyin edə bilmədi.

Ölkədə siyasi böhran davam edir. Siyasi partiyalar arasında razılıq yoxdur. Ekspertlər Barnye dövründə makronistləri və sağları bir araya gətirən bazanın getdikcə dağıldığını vurğulayırlar.

# TBMM sədrinin Milli Məclis sədrinə başsağlığı

**Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuş Milli Məclisin sədri Sahibə Qafarovaya zəng edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumat görə, Numan Kurtulmuş "Azərbaycan Hava Yolları" şirkətinə məxsus təyyarənin Aktau yaxınlığında qəzaya uğraması ilə əlaqədar Milli Məclisin sədrinə, qəzada həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verib, yaralıların tezliklə sağalmalarını diləyib.

Sahibə Qafarova göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirib.

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2025-ci ilin yanvar ayında vətəndaşların qəbulu cədvəli

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 9 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 10,17,24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Seyidov Fərid Mirmufid oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 13, 24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 22 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 22 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 23 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 27 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 27 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 28 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Yusubov Elçin Mustafa oğlu | 28 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Bəşir Qüdrət oğlu | 30 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 30 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 31 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 31 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Uğurlu idarəetmə və İlham Əliyev təcrübəsi



II MƏQALƏ

**Azərbaycan müasir güclü dövlətə çevrilməlidir. Bunu etmək üçün bizim bütün imkanlarımız var. Həm iqtisadi, həm siyasi imkanlar, həm də insanların intellektual səviyyəsi, dövlət siyasəti, dövlətin iradəsi və açıq-aydın görünən gələcəyin üfüqləri.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

### Əməkdaşlıq və təhlükəsizlik

Azərbaycan Prezidentinin siyasi liderlik təcrübəsinin legitimləşməsində regional əməkdaşlıq platformaları və təhlükəsizlik formulları ciddi rol oynamaqdadır. Məsələ onunla bağlıdır ki, XXI əsrin sərt geosiyasi şərtləri hər bir lider üçün məhz davamlı, faydalı və dayanıqlı əməkdaşlıqla qalıcı təhlükəsizlik platformalarını daha da aktuallaşdırmışdır. Son 30 ilin dünya üzrə liderlik təcrübəsi göstərir ki, ağlı və zəkası şübhə doğurmayan lider belə, realpolitika müstəvisində qarşılıqlı faydalı əməkdaşlıq və dayanıqlı təhlükəsizlik istiqamətlərində uğur qazana bilmirsə, onun lider kimi siyasi fəaliyyətinin politoloji anlamda təcrübəyə çevrilməsi baş vermir. Həmin anlamda siyasi liderin əməkdaşlıq və təhlükəsizliklə bağlı fəaliyyətinin davamlılığı və məntiqi ziddiyyətsizliyi fəlsəfi baxımdan əhəmiyyətlidir.

Prezident İlham Əliyev maraqlı formada Azərbaycan cəmiyyətinin müəyyən edilmiş məqsəd istiqamətində kollektiv fəaliyyətə motivə etmə, təşkilatlandırma, vahid sinerji yaratma ruhunu regional miqyasda dövlətlərarası münasibətlərin əməkdaşlıq, həmrəylik və kollektiv təhlükəsizliyin təmini kontekstlərinə proyeksiya edə bilmişdir. Məncə, bu, XXI əsrdə postsovet məkanında müstəqil dövlət quruculuğunun xarici siyasət müstəvisində dövlət identikliyini yaratmaq prosesinin mühüm fraqmenti, tərkib hissəsidir. Bu tezisin əsası vardır.

Məsələ onunla bağlıdır ki, realpolitika kontekstində hamı etiraf edir ki, müstəqil dövlətlər üçün ilk geosiyasi, siyasi, ideoloji, təhlükəsizlik riskləri məhz regional miqyasda meydana gəlir. Azərbaycan üçün bu risk, doğrudan da, regional miqyasda Ermənistanın təcavüzünə himayədarlıq edən dövlətlərin fəaliyyəti ilə bağlı yaranmışdı. Yəni nə XX əsrdə, nə də XXI əsrin ilk onilliklərində Azəbaycan ölkə, cəmiyyət və dövlət olaraq təcavüzə haqq qazandıran hərəkət etməmişdir. Deməli, realpolitika prizmasında baxanda Azərbaycan müstəqilliyini əldə edəndən bu yana Cənubi Qafqazda ona qarşı yaradılan problemlərin qaynağı kənardadır. Eyni situasiyanı biz Ukraynada, Moldovada, Gürcüstanda və Mərkəzi Asiya ölkələrində müşahidə edirik.

Belə çıxır ki, regional miqyasda yaradılmış riskləri və problemləri "aşmaq" ciddi fəlsəfi, politoloji və bütövlükdə, elmi məsələdir. Onun üçün siyasi liderliklə məharətli diplomatiya real proqramlar vasitəsilə müstəqil dövlətin regional miqyasda təsir gücünə çevrilməlidir. Bu məqam tezisin əsas ideya imkanını ifadə edir – müstəqil dövlətin regiona təsir gücü olmalıdır! Ancaq necə, hansı siyasi-diplomatik addımlarla? Təcrübə göstərir ki, əksər liderlər burada "ilişirlər" – milli miqysada mövcud potensialı uğurlu şəkildə regional səviyyədə pozitiv təsir gücünə çevirə bilmirlər. Bununla da siyasi liderlikdə təcrübə yaratmaq səviyyəsinə çata bilmirlər.

Bu fikirlərin işığında İlham Əliyevin regional səviyyədə siyasi liderlik təcrübəsinin əsas prinsiplərini müəyyən etmək lazımdır.

### I prinsip: Əməkdaşlıqdan təhlükəsizliyə keçid

Müstəqil dövlətin başçısı və xalqın siyasi lideri daxili birlik, həmrəylik, vahid məqsəd uğrunda motivə olmaq xüsusiyyətlərini sinerji halında dövlətlərarası münasibətlərə transformasiya etməyi bacarmalıdır. Bu alınmadıqda liderin milli maraqlar və dövlət identikliyini yaratmaq mövqeyində olduğu əsaslı şübhələr yaradır. Milli miqyasın pozitiv birlik, həmrəylik və təhlükəsizlik enerjisinin siyasi-diplomatik aspektdə dövlətlərarası münasibətlər müstəvisinə real transformasiyası prosesi isə öncə problemlərin mahiyyətini düzgün müəyyənləşdirməyi və onların qaynağını adekvat anlamağı tələb edir.

Regionda problemlər əsasən kənar təsirlərdən qaynaqlanırsa, onda bütün hallarda yerli dövlətlər və xalqlar arasında bir etimadsızlıq, bir-birindən şübhələnmək kimi psixoloji kompleks əmələ gəlir. Bu maneənin aradan qaldırılması çox mürəkkəb məsələdir. Azərbaycan Prezidenti onun çox səmərəli həllini tapmışdır – region dövlətlərinə qarşılıqlı fayda verən layihələr təklif etmək əsasında qarşılıqlı etibarlılıq və əməkdaşlıq atmosferi formalaşdırmaq! İlham Əliyev 2003-cü ildən bu müddətə qədər həmin istiqamətdə ardıcıl, davamlı, nəticəverici fəaliyyət göstərmişdir. Azərbaycan Prezidentinin əməkdaşlıqdan təhlükəsizliyə keçid prinsipi siyasi liderlik təcrübəsi kimi artıq konkret məzmuna malikdir!

### II prinsip: Regional məsuliyyətin realpolitikaya gətirilməsi

Bu məqam da siyasi liderlik təcrübəsinin başlıca komponentlərindəndir. Çünki, adətən, hər bir siyasi lider region üçün məsuliyyət daşıdığını birbaşa və ya dolayısı yolla dilə gətirir. Lakin ritorika kifayət deyildir. Əsas odur ki, sözdə deyiləni real situasiyalarda təsdiq edə biləcək addımlar atılsın. Bu addımlar isə müsbət ab-yava yaradıcı məqamları özündə ehtiva etməlidir. Onları ümumi "səmimiyyət" adı altında birləşdirə bilərik. Deməli, siyasi liderlik təcrübəsinin real məzmununda regional məsuliyyətdə səmimilik xüsusi yer tutur. İlham Əliyevin fəaliyyətini bu aspektdə xarakterizə edən kifayət qədər fakt mövcuddur.

Azərbaycan Prezidenti regional miqyasda fəaliyyətində məsuliyyət və səmimiliyin dominantlığını konkret olaraq Gürcüstan istiqamətində atdığı addımlarda dəfələrlə nümayiş etdirmişdir. 2003-cü ildən başlayaraq Gürcüstana etdiyi səfərlərdə həmişə bu qonşu dövlətlə real əməkdaşlığa can atdığını və onu həyata keçirməkdə qərarlı olduğunu göstərmişdir. Bakı–Tbilisi–Ceyhan neft ixrac marşrutunun işə düşməsində qarşıya çıxarılan süni əngəlləri çəkinmədən və xeyli dərəcədə riskə gedərək aşan İlham Əliyev postsovet məkanında regional məsuliyyət duyğusunun zəruriliyini ortaya qoymuşdur.

Bir neçə dəfə Gürcüstan ərazisində təşkil edilən görüşlərdə İlham Əliyev daim region miqyasında əməkdaşlığı düşünən lider olduğunu göstərmişdir. Bu, özünün pik nöqtəsinə 2008-ci il Rusiya–Gürcüstan müharibəsində çatmışdır. Həmin dönəmdə çoxlarının susduğu bir vaxtda Azərbaycan Prezidenti regionun maraqlarına uyğun duruş göstərmiş və ədaləti müdafiə etmişdir. Bu zaman, çox əhəmiyyətlidir ki, bir an da olsun Gürcüstanla əməkdaşlıq xəttindən kənara çəkilməmişdir. Əksinə, real təşəbbüsləri ilə onu inkişaf etdirmişdir. Hətta Moskva da bununla razılaşmalı oldu!

Azərbaycan Prezidentinin siyasi liderliyində regional miqysada əməkdaşlıq və təhlükəsizliyin təmininin təcrübə kimi var olmasının olduqca əsaslı səbəbləri vardır. Yəni İlham Əliyevi siyasi lider statusunda regional əməkdaşlıq və təhükəsizlikdə mövcud siyasi təcrübəni XXI əsrin reallıqları və çağırışlarına uyğun inkişaf etdirməsi ciddi siyasi hadisədir. Buna bir daha əmin olmaq üçün məsələnin siyasi tarixinə qısa nəzər salaq.

### "Qafqaz evi" ideyası

Tarixçilərin yazdığına görə, "Qafqaz evi" ideyasını ilk dəfə Mirzə Fətəli Axundov irəli sürmüşdür (tarixçi Zaur Əliyev). Bu ideya Mirzə Bala Məmmədzadənin fikirlərində də mühüm yerlərdən birini tutmuşdur. Həmin dönəmdə Gürcüstan və Ermənistandakı liderlər etnik millətçilik ideyaları üzərində işləyirdilər. Azərbaycan ziyalıları isə nəzəri ilə yanaşı, praktiki olaraq da "Qafqaz evi" yaratmağa çalışırdılar (məsələn, Səlim bəy Behbudov). Azərbaycan Demokratik Respublikasının fəaliyyətində Qafqaz evi ideyası özünəxas yer almışdı.

Tarixçilər Üzeyir Hacıbəyovun "Biz hamımız qafqazlı balasıyıq" adlı məqaləsini də vurğulayırlar. Hətta sovet dönəmində azərbaycanlıların bu ideya ilə bağlı fəaliyyətindən bəhs olunur. Məsələn, 1935-ci ildə Qafqaz Federasiyası Şurası, 1952-ci ildə isə Münxendə Ümumqafqaz konfransının keçirilməsini misal olaraq göstərmək mümkündür.

Müstəqillik dönəmində, 1996-cı il martın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan–Gürcüstan bəyanatını imzalamışlar. Bunu tarixçilər yeni mərhələdə "Ümumi Qafqaz evi" ideyasının əməli olaraq həyata keçirilməsinin başlanğıcı hesab edirlər.

2023-cü ildə Prezident İlham Əliyev Gürcüstana növbəti səfəri zamanı Cənubi Qafqaz ölkələrinin əməkdaşlığa üçtərəfli formatda başlaması zərurətini xüsusi vurğulamışdır. Azərbaycanın dövlət başçısı Cənubi Qafqaz regionunda dövlətlərarası münasibətlərin normallaşması üçün kənar qüvvələrə ehtiyacın olmadığını ayrıca ifadə etmişdir. İlham Əliyev mövqeyini regionun tarixi ilə əsaslandırmışdır. Yəni təcrübə göstərir ki, Cənubi Qafqazın taleyi əsas olaraq, Azərbaycan, Gürcüstan və Ermənistandan asılı olmuşdur. Müasir mərhələdə bu məsələ daha da aktuallaşmışdır. Bunu "Qafqaz evi" ideyasının reallaşması üçün tarixi fürsət də adlandıra bilərik.

Bu qısa izahat aydın göstərir ki, Azərbaycan siyasi təcrübəsində Qafqazda sülh, barış və əməkdaşlıq ideyası davamlı təcrübə səviyyəsindədir. İlham Əliyev həmin təcrübəyə əsaslanaraq XXI əsrin reallıqları işığında bu ideyanı canlandırmış, ona yeni geosiyasi və siyasi məzmun vermişdir. Həmin məzmunda üçüncü prinsip xüsusi yer tutur.

### III prinsip: Milli təhlükəsizliyin kollektiv maraqlara uyğunluğu

Sözün həqiqi mənasında, bu prinsipi müasir mərhələdə siyasi liderlik təcrübəsinin çox vacib aspektlərindən biri kimi qəbul etmək gərəkdir. Burada iki məqam sintez halında mövcuddur. Birincisi, Prezident İlham Əliyev Azərbaycan üçün hazırlanmış multikultural yanaşmanı uğurla regional miqyasda təhlükəsizlik məsələsinə proyeksiya edə bilmişdir. Onun mərkəzi xəttini milli təhlükəsizliyin təmininin daxili meyarı ilə regional təmininin xarici kriteriyalarının harmoniyada olması təşkil edir. Belə bir sinxronluğa isə İlham Əliyev konkret layihələri bütövlükdə regionun maraqlarına uyğun həyata keçirmək əsasında nail olmaqdadır.

Məsələn, Ermənistanın hər bir təcavüzkar davranışına və İranla Rusiyanın inkaredici hərəkətlərinə baxmayaraq, onların hər biri üçün layihələrin qapısı açıq olmuşdur və indi də açıqdır. İran və Rusiya konkret olaraq Azərbaycanın təşəbbüs etdiyi layihələrdə iştirak edirlər (məsələn, Şimal–Cənub nəqliyyat dəhlizi və s.).

Ayrıca, Rusiya mədəniyyət, sivilizasiya, enerji, iqtisadiyyat, ticarət, sosial xarakterli tədbirlərdə fəal iştirakçıdır. İran da getdikcə daha intensiv şəkildə bu prosesə qoşulur. Bu kontekstdə İran Prezidentinin Azərbaycanı D–8-ə qəbulda dəstəkləməsi diqqəti çəkməkdədir. Xüsusi olaraq, Ermənistanı da Bakı dəfələrlə əməkdaşlığa və regionun təhlükəsizliyini birgə təmin etməkdə Azərbaycanla Gürcüstanın təşəbbüslərinə qoşulmağa dəvət etmişdir. Hətta II Qarabağ müharibəsi başa çatan kimi, İlham Əliyev məsələni məhz vurğuladığımız aspektdə qoymuşdur.

İkincisi, İlham Əliyev regionda təhlükəsizliyin təmini məsələsini kollektiv maraqlar müstəvisinə birbaşa müxtəlif əməkdaşlıq və təhlükəsizlik platformalarının qarşılıqlı əlaqəsində reduksiya etməklə, bütövlükdə, XXI əsrdə regional siyasi liderlik təcrübəsinə yeni naxış vurmuşdur. Məsələnin bu tərəfi siyasi liderlik təcrübəsinin məzmunlaşması baxımından son dərəcə əhəmiyyətlidir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Böyük manipulyator"

**Mark ENDEVELD**

***(əvvəli qəzetin 17, 18, 19, 20, 21, 22, 24, 25 dekabr tarixli saylarında)***

Fransada gördüyü işlərdə İssad Rebraba 2012-ci ildən başlayaraq o qədər də adlı-sanlı olmayan, ancaq çox bacarıqlı bir iş adamı olan Fərid Belkaçemi kömək etdi. Əvvəllər Parisdə və Londonda bizneslə məşğul olan bu franko-əlcəzairli adamın çox böyük bir çevrəsi – özü kimi peşəkar iş adamlarından ibarət dostluq şəbəkəsi var. Kasıb bir ailədən çıxan Fərid Belkaçemi (atası Montrey şəhərində zibilyığan olub) sərvətini 1980-ci illərin ortalarında baş verən "maliyyə partlayışı" zamanı Parisin birjalarında qazanır. 2008-ci ildə məşhur "La Tribune" qəzeti onun bacarığına və istedadına həsr olunmuş geniş bir məqalə çap edir.




Bir müddət Fransa Kredit Kommersiya (CCF) təşkilatında çalışandan sonra Fərid Belkaçemi əmlak işi ilə məşğul olan "Viel Tradition" şirkətinə qatılır və çox keçmir ki, orada Avropa zonasındakı əmlakçılar qrupunun prezidenti seçilir. President olduğu müddətdə Belkaçemi London, Brüssel, Milan, Münhen, Frankfurt, Lozan və Lüksemburq şəhərləri arasında xeyli işgüzar və məhsuldar səfərlər edir. Sonra karyerasını "Credit Agricole" və "Natixis" banklarının filialı olan CACEIS qrupunda davam etdirir. Daha sonra peşəkar futbolçuların agenti kimi fəaliyyət göstərməyə başlayır. Bu agentliyi Fərid Belkaçemi təkbaşına, heç kimin köməyi olmadan yaradır. Keçmiş əmlakçı həqiqətən də, beynəlxalq biznes planetində bir çox nüfuzlu şəxsiyyətlərlə yaxından tanışdır, xüsusilə Londonda, eyni zamanda, Aralıq dənizinin hər iki tərəfi ndə və Orta Şərqdə fəaliyyət göstərən iqtisadi lider İssad Rebrabla. O, həmçinin franko-əlcəzairli iş adamı Mehdi Dazi ilə də yaxın dostdur. Mehdi Dazi isə "Vivendi" şirkətinin müşahidə şurasının keçmiş üzvü və Abu Dhabi ailəsinə məxsus olan "Emirates International" investisiya şirkətinin keçmiş baş direktoru olub. Hal-hazırda isə bu adam, Kayman adalarında məskunlaşan Dar Benian Real Estate şirkətinin meneceridir.

Belkaçeminin qabiliyyəti tək maliyyə və ya idmanla məhdudlaşmır. O, həm də bir çox siyasi liderləri də yaxından tanıyır. Məsələn, sağçılar partiyasından olan İv Jeqo və Jan-Lui Borlo. Solçular partiyasından isə Jan-Mari Lö Qen, Arno Monteburq, Yamina Benqiqi, eləcə də Flör Pellera.

Təbii ki, o şəxsi telefon kitabçasını, həmyerlisi Issad Rebrabın qarşısında geniş açıb. "Le Point" jurnalında çap olunan bir məqalədən bunu da öyrənirik ki, bu əlcəzairli iş adamı, nəinki Yelisey sarayı ilə yaxın əlaqədədir, həm də Fransanın müxtəlif partiyalarından olan siyasi liderlərin yaxşı tanıdıqları bir sahibkardır. 2016-cı ilin qışında, Fərid Belkaçemi məntiqi olaraq Emmanuel Makrona yaxınlaşır və Fransua Tuazi kimi prezidentliyə namizədin Əlcəzairə səfərinin təşkilində ona yaxından kömək edir.

Futbol dünyasında, xüsusən də Qətər və PSG arasında əlaqələr yaradan Belkaçemi, bir zamanlar franko-əlcəzairli vəkil Kərim Aşui ilə də yaxın olub. Aleksandr Benallanın dostu olan bu vəkil, əvvəllər xeyli peşəkar cinayətkarları və böyük banditizmlə məşğul olan oğruları müdafiə edib. Buna görə də bu adam mətbuatda "oğru-quldurların vəkili" kimi təqdim olunur. Nəticədə bir sıra "etik pozuntulara" yol verdiyi üçün o Paris ədalət orqanlarından xaric edilir. (Hal hazırda bu adam Əlcəzairin ədalət orqanlarının Fransa Respublikasındakı filialı kimi fəaliyyət göstərir) Belkaçemi və Kərim Aşui 2013-cü ildə Müsəlmanların Məhkəmə Müdafiə Liqası qrupu (LDJM) yaradır, ancaq Belkaçemi az sonra bu liqadan könüllü olaraq çıxır. Niyə, nə səbəbə? Onun liqanın açılışına yaxın dostunu – fransalı yəhudi deputat Meyer Habibi dəvət etdiyinə görə. Müsəlmanlar bu açılışa bir yəhudinin dəvət olunmasını ona bağışlamırlar.

Belkaçemi həm də Dransidən olan imam Hassen Şalqumi ilə də dostluq edir. Şalqumi də Meyer Habib kimi Makronun namizədliyini dəstəkləmişdi.

Onu da qeyd edək ki, Fərid Belkaçemi Fransa–Afrika şəbəkələrini də yaxından tanıyır. Jan-Lui Borlo kimi, o da fransalı yəhudi Filip Hababu Solomon ilə çox yaxındır. Qətərin Müdafiə Nazirliyi üçün işləyən bu adam "Le Monde" qəzetində "şəxsi diplomatiya üzrə mütəxəssis" kimi təqdim olunur. Bu kiçik çevrədə Fərid Belkaçemi 2018-ci ilin payızında yəhudi dostu Filip Hababu Solomonu Aleksandr Benalla ilə tanış edir. Belkaçeminin istəyi odur ki, Filip Hababu Solomon Yelisey sarayından kənarlaşdırılan Makronun keçmiş cangüdəni Benallaya dəstək olsun.

### Londondan üçüncü adam

Fərid Belkaçemi ilə Aleksandr Benallanın dostluğu çox maraq doğurur. Onlar bir-birlərini çox yaxşı tanıyırlar, özü də çoxdan. Hələ 2012-ci ildə Benalla Arno Monteburqun cangüdəni olanda, bu iki nəfər bir neçə ay ərzində tez-tez görüşmüşdülər. Və onu da unutmaq lazım deyil ki, mətbuatda yazılanlardan fərqli olaraq, Benalla Sosialist Partiyasındakı xidmət şəbəkələri sayəsində nazir Arno Monteburqun cangüdəninə çevrilmir. Onun nazirlik kabinetində tez bir zamanda belə bir "pilləyə qalxmağı" Benalla ilə onun keçmiş rəhbəri Fransua Hollandın yaxın dostu Erik Plümer arasında ciddi mübahisə yaradır. Məsələ burasındadır ki, bir neçə nazirliyin yerləşdiyi Solferino küçəsində hamının yaxşı tanıdığı Plümer heç cürə qəbul edə bilmir ki, niyə mühafi zə xidmətinin başqa təcrübəli üzvləri dura-dura məhz onun keçmişdə qanadının altına aldığı gənc və təcrübəsiz Aleksandr Benalla nazirin cangüdəni olur? "Mən bu xəbəri sonradan bildim, o, artıq rəsmi olaraq Arno Monteburqun cangüdəni təyin olunandan sonra. Mən çox narazı qaldım. Aleksandrla görüşüb ondan tələb elədim ki, mənə bu məsələni izah etsin. Mən Aleksandrı çoxdan tanıyırdım və onunla yaxın idim. Sonra aramız kəsildi, neçə illər ondan xəbərim olmadı". Erik Plümer onu da xatırlayır ki, "2017-ci ilin payızında Aleksandr artıq Yelisey sarayında olanda, özü mənimlə yenidən əlaqəyə girdi. O vaxt mənim vəziyyətim yaxşı deyildi, məni nazirlər kabinetindəki işimdən qovmaq istəyirdilər...". Bundan başqa, Arno Monteburqun özünün ilk dəfə dediklərindən fərqli olaraq, Aleksandr Benalla onun nazirlikdəki kabinetində bircə həftə yox, üç ay qaldı və keçmiş nazirin sözlərinə əsasən, yol hərəkəti qaydalarını kobud şəkildə pozub hadisə yerindən qaçdığına görə nazirlikdən uzaqlaşdırıldı…

Məhz o zaman – 2014–2015-ci illərdə – Aleksandr Benalla Velours International şirkətinin filialı olan Velours özəl kəşfiyyat qrupunun əməkdaşına çevrilir. Bu şirkət banal bir cangüdənlər şirkəti deyil, onun missiyaları daha genişdir. 2018-ci ilin oktyabrında Benalla yarızarafat yarıciddi, demişdi ki, "o vaxt media məni iri əzələləri olan, ancaq başında heç nə olmayan axmaq bir ərəb gədəsi kimi təqdim edirdi". Onu da qeyd edək ki, hər şeydən əvvəl bu şirkətin Əlcəzairlə yaxın əlaqəsi var. Əvvəllər dediyimiz kimi onun rəhbərlərindən birinin – keçmiş fransız polis məmuru Uali Aberkanın əsli Əlcəzairdəndir. Bundan başqa, Velours şirkətinin müştərilərindən biri Issad Rebrabın Cevital qrupu idi.

Məhz elə bu səbəbdən, Aleksandr Benalla franko-mərakeşli olmasına baxmayaraq, Əlcəzairi çox yaxşı tanıyır. "O çox asanlıqla istənilən adamı inandıra bilirdi ki, onun əsli Əlcəzairdəndir. Təbii ki, bu yalan idi. O mənimlə Əlcəzair haqqında daha çox danışırdı, nəinki Mərakeş haqqında. "Le Monde" qəzetində onun çıxardığı hoqqalar haqqında məqaləni oxuyandan sonra mən başa düşdüm ki, onun əsli Mərakeşdən imiş", – deyə onu tanıyanlardan biri bizə etiraf etdi. Digər dumanlı bir element də var: 2015-ci ilin sonunda, Velours Mərakeşdə filial müəssisə açır. Velours MENA adlanan bu şirkətə Aleksandr Benalla ilə Joze Buyye rəhbərlik edirlər. Joze Buyye kim olsa yaxşıdır? Vaxtilə Arno Monteburqun cangüdənlərindən biri, özü də keçmiş jandarm! Bu məsələdən sonra, medianın bütün diqqəti Mərakeşə tərəf döndü. Lakin Əlcəzairdə Emmanuel Makron keçmiş sosialist nazirinin, xüsusilə İssad Rebrab və onun ətrafındakıların şəbəkələrindən istifadə etdi. Aleksandr Benalla da təbii ki, onlara yaxın idi...

Bu əlaqə lətifə kimi görünsə də, Emmanuel Makronun bir-birindən fərqli personajlarla, eləcə də onun Əlcəzair şəbəkələri ilə əlaqələrini şübhə altına alır. 2018-ci ilin oktyabr ayında gündəlik qəzet Libération yazır ki, Aleksandr Benalla və franko-əlcəzairli Aleksandr Djuri Londonda görüşüblər. Əvvəlcə, Benalla bunu inkar edir, ancaq bir müddət sonra, "Mediapart" saytına müsahibəsində etiraf edir ki, həqiqətən də, payızda, bir neçə dəfə onunla Londonda görüşüb.

**(ardı var)**

# Cənubi Qafqazda geosiyasi gərginliyi səngiməyə qoymurlar

## *Sülh sazişini imzalamamaq üçün İrəvanın fəndləri tükənib*

**İl başa çatır, amma Cənubi Qafqazın uzunömürlü münaqişəsinə sülh nöqtəsi hələ də qoyulmayıb. Təxminən, bir il bundan əvvəl Azərbaycan və Ermənistan hərbi əsirlərin mübadiləsini həyata keçirdilər. Sonra İrəvan Bakının xeyrinə COP29-a ev sahibliyinə namizədliyini geri götürdü. Bu addımlar iki ölkə arasında sülh sazişinin tezliklə imzalanacağına ümidləri artırdı. Amma...**

### Ermənipərəstlərin “yuvası”ndan səslənən şikəstə

Azərbaycan kənar aktorların müdaxiləsinə yol verməməyə, sülh prosesi ətrafında süni şəkildə yaradılan geosiyasi gərginliyi azaltmağa çalışsa da, Paşinyan iqtidarının atdığı addımlar, “kollektiv Qərb”in Ermənistana göstərdiyi dəstək, onu militarizmə sürükləməsi ikitərəfli dialoqa davamlı problemlər yaradır. Açıq görünən odur ki, ümumən bölgəni bürümüş geosiyasi fon sülh prosesinə mənfi təsir göstərməkdədir. Bəs, Cənubi Qafqazın başı üzərində xoşagəlməz və zərərli geosiyasi fonun əmələ gəlməsində kimlər maraqlıdır? Avropa İttifaqı, Fransa və Vaşinqton. Bu “üçlüy”ün ən “mötəbər tribunası” rolunda isə Avropa Parlamentinin çıxış etdiyi heç kəsə sirr deyil. Burada ermənipərəstlərin “yuvası” formalaşıb.

“Qərbi Azərbaycan” və ya “dəhliz” rəvayətlərinin (?) sülh danışıqlarında yeri olmamalıdır”. Avropa Parlamentinin üzvü Natali Luazo bu sözləri “Armenpress”in müxbiri ilə söhbətində bildirib. Onun fikrincə, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına dair danışıqlarda “Qərbi Azərbaycan” və ya “dəhliz” məsələləri kənara qoyulmalıdır.

Ermənipərəst mövqeyi ilə çoxdan tanıdığımız Avroparlamentin deputatı daha sonra ərz edir ki, heç bir ilkin şərt irəli sürülmədən, Ermənistanın suverenliyinə hörmət edən sülh sazişinin müsbət nəticəsi ola bilər. Sonra sözlərinə əlavə edib ki, Ermənistan və Azərbaycan arasında sabit sülh hər iki ölkənin mənafeyinə uyğun olmalıdır: “Ermənistan və Azərbaycan arasında davamlı sülh hər iki ölkənin ümumi məqsədi olmalıdır. İndiyə qədər Ermənistan xoşməramlılığını (?) və güzəştə getməyə hazır olduğunu (?) nümayiş etdirib. Azərbaycan buna dərhal adekvat şəkildə cavab verməlidir”.

Natali Luazonun fikrincə, hər iki ölkənin suverenliyinə və ərazi bütövlüyünə hörmət etmək lazımdır. Deputat hay mediasına açıqlamasında “Bakıda qanunsuz və qondarma (?) ittihamlarla həbsdə olan erməni məhbusların” da xatırlatmağı unutmayıb: “Bütün hərbi əsirlərin azadlığa buraxılması və mədəni irsə hörmət məsələsini də yaddan çıxarmamalıyıq”.

Reallıqdan və siyasi məntiqdən uzaq, gözəgirən faktları təhrif edən “şikəstəvarı” açıqlamasında bir qədər də irəli gedən Avroparlamentari bu dəfə “ermənişünaslığın” hərbi qanadının təmsilçisi kimi də çıxış edir. Bakının İrəvanı hücüm xarakterli hərbi texnika əldə etməkdə ittiham etməsinə də toxunan avropalı deputat qeyd edib ki, bu, hər bir müstəqil ölkənin daxili işidir: “Hərbi texnikanın alınmasına gəlincə, hər bir müstəqil ölkə özünü müdafiə etməyə və bədxahlarını hərbi təcavüzdən çəkindirməyə borcludur”.



**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu** mövzu ilə bağlı XQ-yə açıqlamasında bildirdi ki, Avropa Parlamentinin deputatlarının böyük əksəriyyəti anti–Azərbaycan mövqelərindən əl çəkmir: “Artıq dörd ildir ki, Azərbaycan torpaqlarını erməni işğalından azad edib, Qarabağ üzərində suverenliyinə nail olub. Amma ermənipərəst qüvvələr bu mövzunu gündəmdə saxlamağa çalışır, ermənilərin Qarabağa qayıtmaq hüquqlarından dəm vururlar. Məgər onların hüquqlarını pozan olub? Azərbaycan bu gün də deyir ki, Qarabağda yaşamış etnik ermənilər geri qayıda bilərlər. Sadəcə olaraq, onlar Azərbaycan vətəndaşlığını qəbul edərək, bizim qanunlarımızla yaşamalıdırlar. Bu şərt Avropa ölkələri üçün də keçərlidir. Təsəvvür edin ki, Avropanın hansısa



ölkəsində kimsə yerli qanunlarla yaşamaq istəmir. Bu zaman nə baş verir? Həmin adam ölkədən departasiya edilir. Deməli, bu, həm də Azərbaycanın təbii haqqıdır. Amma Avropa Parlamentinə yeni seçkilərdən sonra da ölkəmizə qarşı bu tribunadan yenə şər-böhtan yağdırılmaqdadır. Çünki Fransanın dominantlıq etdiyi Avroparlamentdə ermənipərəst qüvvələr yenə çoxluq təşkil edirlər. Eynilə Avropa Komissiyasının icraedici orqanı Azərbaycanla əməkdaşlıqda özü maraqlı olmalıdır. Ən azı ona görə ki, Azərbaycan Cənubi Qafqazın əsas açar dövləti olmaqla yanaşı, həm də Aİ üzvü olan 11 ölkənin enerji təhlükəsizliyində aparıcı rola malikdir”.

### İkibaşlı oyunlara son qoyulacaqmı?

Avropa parlamentarisi Natali Luazonun çıxışını riyakarlıq, ikiüzlülük, Aİ-nin məkrli planlarını ört-basdır etmək cəhdi kimi qiymətləndirmək daha doğru olardı. Bakı onsuz da Avropa Parlamentindən məlum münaqişənin həlli ilə bağlı heç vaxt ədalətli yanaşma, konstruktivlik görməyib, Azərbaycanın daxili işlərinə qarışmamaq kimi davranışını müşahidə etməyib. Sadəcə olaraq, ümid hay sevdalıların, xristian “təəssübkeşlərinin” riyakar bəyanatlarının tükənəcəyi günü gözləməyə qalıb. Necə ki, sülh sazişini imzalamaqdan yayınmaq üçün rəsmi İrəvanın uydurduğu bəhanələrin də sona çatacağına inanmaq istəyir.

Bu məqamda hay “çete”sinin okeanın o tayındakı üzvünün “sülhpərvər xidmətlərini” yada salmamaq mümkün deyil. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünə evsahibliyi edən Vaşinqton münasibətlərin normallaşmasının son mərhələyə çatdığını bəyan etmişdi. Amma üstündən bir il keçsə də, sülhün taleyi hələ də sual altındadır. Siyasi ömrünə 25 gün qalmış demokrat Bayden administrasiyası, deyəsən, Azərbaycanla bütün körpüləri yandırmaq qərarına gəlib. Əgər rəsmi Vaşinqtonun belə bir niyyəti olmasaydı indi Bakının üzərinə heç vaxt görünmədiyi qədər gəlməzdi. ABŞ Senatı, Konqresi, Dövlət Departamenti, ayrı-ayrı sorğu mərkəzləri, reytinqçilərin bütün maskalarını kənara atıb aşkar anti–Azərbaycan fəaliyyəti azlıq edirmiş, indi də supergücün Bakıdakı səfirliyi suyu dərindən bulandırmaqla məşğuldur. Vaşinqton bir tərəfdən Bakı–Tbilisi– Ceyhan neft kəmərini və Cənub Qaz Dəhlizinin konsepsiyasını dəstəklədiyini bəyan edir, digər tərəfdən bu layihələr olmadan Azərbaycanın daha az inkişaf edəcəyini nəzərə çatdırır. Yəni, boynumuza minnət qoymağa çalışır. Bu tezisi gündəmə gətirən ABŞ-ın Bakıdakı səfirliyidir.

### Bir il əvvəl və sonra...

Xatırladaq ki, 2023-cü il dekabrın 7-də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin imzaladıqları bəyanatda deyilir ki, xoş niyyətin təzahürü olaraq, Ermənistan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürür və Azərbaycan Respublikasının namizədliyini dəstəkləyir. Bakı da bunun qarşılığında Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyini dəstəklədi. Beləliklə, Azərbaycan və Ermənistan ilk dəfə vasitəçi olmadan, öz iradələri ilə birgə bəyanat verdilər. Həm də iki ölkə SSRİ dağılandan və Qarabağ münaqişəsi başlayandan bəri ilk dəfə bir-birinə doğru addım atdılar. Bəyanat heç bir vasitəçi və ya üçüncü tərəf olmadan, Azərbaycan və Ermənistanın baş diplomatları tərəfindən imzalandı. Tərəflər əsirlərin dəyişdirilməsinə razılaşdılar. Razılaşmaya görə, 2 azərbaycanlının azad edilməsi müqabilində 32 erməni hərbçi Ermənistana təhvil verilib.

Birgə bəyanatda öz əksini tapan müddəalar sülhün tezliklə əldə olunacağına ümidləri xeyli artırdı. “Azərbaycan Respublikası və Ermənistan Respublikası regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətin yarandığı fikrini bölüşür”. Bəyanatda deyilir: “Daha sonra qeyd olunur ki, iki ölkə münasibətləri normallaşdırmaq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini bir daha təsdiq edir. Ən önəmlisi isə İrəvan və Bakı qarşılıqlı etimad yaratmaq öhdəliyi götürdüklərini bəyan etdilər. Azərbaycan və Ermənistan yaxın gələcəkdə əlavə etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi üçün müzakirələri davam etdirəcəklər. Tərəflər beynəlxalq ictimaiyyəti “iki ölkənin qarşılıqlı etimadın yaradılmasına töhfə verəcək, bütün Cənubi Qafqaz regionuna müsbət təsir göstərəcək səylərini dəstəkləməyə” çağırıblar.

### Məmnunluq, alqışlar və ...silahlanma

Reaksiyalar özünü çox gözlətmədi. Həm Ermənistanın, həm də Azərbaycanın sosial media platformalarında birgə bəyanatın imzalanmasından məmnunluq və alqışlarla müşayiət olunan paylaşımlar edildi. Sadə azərbaycanlılar və erməni internet istifadəçiləri “Sülh!”, “Müharibəyə son!”, “Alqışlar!” kimi şərhlərlə bir-birini təbrik edirdilər. Qərbin aparıcı dövlətlərinin rəsmiləri, beynəlxalq qurumların başçıları da Bakı və İrəvanın bu addımını dəstəklədiklərini bildirdilər. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel “X” sosial media hesabında Azərbaycan və Ermənistanın birgə bəyanatını “böyük irəliləyiş” adlandıraraq, onu alqışladığını bildirdi, tərəflər arasında görünməmiş dialoq qurulmasından məmnunluğunu ifadə etdi. Bütün bunların ardınca sülh müqaviləsinin harada imzalanacağı ətrafında müzakirələr başladı. Qərbdə, yoxsa Rusiyada? Bakı ortaq məkan kimi Tbilisini təklif etdi. Sonra iki ölkənin xarici işlər nazirləri Astanada görüşdülər və Qazaxıstan neytral mövqeli aktor kimi tarixi sülh sazişinin bağlanmasına ev sahibliyi etməyə hazır olduğunu açıqladı. Sonra isə...

Məhz Brüssel – Vaşiqton– İrəvan (Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen, ABŞ Dövlət katibi Antoni Blinken və Ermənistan baş naziri Nikol Paşinyan) “üçlüyü”nün imzaladığı psevdo-razılaşmadan sonra sülh danışıqlarında “durğunluq” mərhələsi başlandı. Bakının Brüssel görüşündən narazılığını hiss edən Antoni Blinken sözügedən görüşün əsas mahiyyətini, guya, Ermənistanın iqtisadi inkişafı məsələlərinin təşkil etdiyini diqqətə çatdırdı. Azərbaycanın diqqət yönəltdiyi gerçəklik isə Ermənistanın Vaşinqtonun və Parisin xeyir-duası ilə silahlanmasıdır.

Beləliklə, sülh havası ilə keçən son bir ilə qısa nəzər yetirməyimiz kifayətdir ki, hadisələrin hansı məcrada davam edəcəyi barədə nikbin proqnozlardan vaz keçəsən. Siyasi ekspertlər də iki ölkənin hələ bir müddət “nə sülh, nə müharibə” şəraitində yaşayacağını təxmin edirlər.

***İmran BƏDİRXANLI***
***XQ***

# İrəvan “təxribatçı missiya”dan əl çəkmir

## *Əksinə, ona “yeni nəfəs” verməkdə israrlıdır*

**Müxtəlif güc mərkəzlərinin Cənubi Qafqaz regionu ilə bağlı xəbis planlarının icrasında hər zaman alət olan Ermənistan bu siyasətini indi də davam etdirir. Maraqlıdır ki, Ermənistanda hakimiyyətlər dəyişir, amma kurs dəyişməz olaraq qalır. Sadəcə olaraq, əvvəllər başqa güclərə sığınan Ermənistan indi Qərb dünyasına – Avropa İttifaqı–ABŞ–Fransa üçlüyünə qucaq açıb.**

Bu gün Ermənistan rəhbərliyi bölgədə gerçək sabitliyin bərpa olunmasına çalışmaqdansa, Qərbdən gələn dağıdıcı sifarişləri can-başla yerinə yetirir. Rəsmi İrəvan qərbli tərəfdaşlarına güvənərək destruktiv siyasət yürüdür və yeni gərginlik ocağı yaradır. Gərginliyi körükləyən qüvvələrdən biri də Avropa İttifaqının Ermənistandakı missiyasıdır.

Məlumdur ki, bu “mülki” missiya Ermənistan–Azərbaycan şərti sərhədinə yerləşdirilib. “Mülki” sözünü ona görə dırnaq işarəsi daxilində yazırıq ki, missiyanın tərkibində Aİ ölkələrinin ehtiyatda olan polis-jandarm məmurları, hərbçiləri üstünlük təşkil edirlər. Əslində, onu yarımhərbiləşdirilmiş missiya adlandırmaq daha doğru olardı. Missiya iki ölkə arasında etimad quruculuğu istiqamətində indiyədək heç bir uğura imza atmayıb. Əksinə, qeyd etdiyimiz kimi, pozuculuqla məşğul olub.

Azərbaycanda onun fəaliyyətindən hər zaman narazılıq edilib. Sonuncu dəfə dekabrın 17-də “Rossiya-1” televiziya kanalında “Vesti nedeli” proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsində Prezident İlham Əliyev bu barədə bir daha danışdı. Dövlətimizin başçısı qeyd etdi ki, 17 maddədən ibarət sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsinin 17 maddəsinin 15-i razılaşdırılıb, ikisi qalıb. Prezident İlham Əliyev jurnalistin dəqiqləşdirici sualına cavab olaraq bildirdi ki, onlardan biri bir-birinə qarşı beynəlxalq iddialardan kənarda durmaqdır: “Zənnimcə, bu, qarşılıqlı şəkildə qəbul olunan maddədir. Biz yaxınlarda biz vurulmuş zərərin təhlilini başa çatdırdıq, həm də bunu ətraflı etdik. Biz buna 4 il vaxt sərf etdik və orada hər şey sənədlərlə qeyd olunub. Bu, təqribən, 150 milyard dollardan çoxdur, yəni işğal illərində vurulan zərərdir. Ona görə də, zənnimcə, qarşılıqlı iddiaları kənara qoymaq hər iki tərəf üçün qəbulediləndir. Digər maddə başqa ölkələrin nümayəndələrini bizim sərhədimizdə yerləşdirməməklə bağlıdır. Bu, niyə bizim üçün vacibdir? Çünki sözdə Avropa müşahidəçiləri pərdəsi altında bizimlə Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradılıb. Axı bu müşahidəçilərin göndərilməsi məsələsi bizimlə 2022-ci ilin oktyabrında Paşinyan, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Fransa prezidenti və mənim aramda keçirilən dördtərəfli görüşdə razılaşdırılıb. O vaxt Fransa hələ bizim tərəfimizdən normallaşdırma prosesindən kənarlaşdırılmamışdı. Belə bir razılıq əldə edildi ki, Avropa İttifaqının nümayəndələrinin iki ay müddətində məhdud kontingenti olacaq...”

Dövlətimizin başçısı qeyd etdi ki, ilkin dövrdə iki aylığına 40 nəfərin yerləşdirilməsi qərara alınmışdı: “Bundan sonra bu missiya bizimlə razılaşdırılmadan uzadıldı və arqument bundan ibarət idi: niyə sizinlə razılaşdırmalıyıq, axı, bu missiya Ermənistan ərazisindədir. Bizim isə arqumentimiz belə idi: razılığa gələndə siz niyə bizimlə razılaşırdınız? Axı, belə olmaz. Sonra onların sayı 200 nəfərdən çox artırıldı. Bundan başqa, bu missiya tədricən NATO-nun missiyasına çevrildi, belə ki, oraya Kanadanın nümayəndələri qoşuldu. Beləliklə, bu, bizim razılığa gələcəyimiz ikinci maddədir”.

Ancaq biz Ermənistandan missiyanın fəaliyyətinə son qoymağı tələb etdiyimiz halda məlum olur ki, İrəvan 2025-ci ilin yanvarından sonra da onun müddətini uzatmaq istəyir. Azərbaycan Prezidentinin verdiyi müsahibədən iki gün sonra – dekabrın 19-da Ermənistan baş naziri Nikol Paşinyan dövlət informasiya agentliyi olan “Armenpress”ə verdiyi müsahibədə bu barədə deyib: “Biz təklif edirik ki, üçüncü dövlətlərin qüvvələrinin Ermənistan–Azərbaycan sərhədinin delimitasiya olunmuş hissələrinə yerləşdirilməməsi haqqında müddəa tətbiq edilsin və bu, məntiqlidir, çünki bu hissələrdə eskalasiya riski delimitasiya ilə əlaqədar əhəmiyyətli dərəcədə azalıb. Beləliklə, sərhədin tam delimitasiyası başa çatdıqdan sonra Ermənistan–Azərbaycan sərhədinin heç bir hissəsində üçüncü qüvvələrin varlığına ehtiyac qalmayacaq və Ermənistan Respublikası belə bir məntiq təklif edir”.

Dekabrın 24-də ilin yekunlarına dair keçirdiyi mətbuat konfransında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin sədri Fərid Şəfiyev də bildirib ki, Kanadanın qoşulması ilə həmin missiya “Avropa İttifaqı plyus” formatına keçib. Onun sözlərinə görə, sərhədyanı ərazidə heç bir üçüncü dövlətin qüvvələri olmamalıdır: “Ermənistan hazırda “Avropa İttifaqı plyus” formatına çevrilən missiyanın fəaliyyətini 2-3 il müddətinə uzatmağa çalışır. Əgər delimitasiya-demarkasiya prosesi uzanarsa, Aİ missiyası sərhədin 5-10 il müddətinədək qala bilər”.

F.Şəfiyev onu da əlavə edib ki, rəsmi İrəvan hazırkı mövqeyini davam etdirsə, 2025-ci ildə sülh müqaviləsinin imzalanması qeyri-real görünür.

Qeyd etmək lazımdır ki, ümumiyyətlə, missiyanın bölgəyə daimi əsaslarla yerləşdirilməsinin özü rəsmi Bakı ilə razılaşdırılmamışdı. Bakı yalnız Aİ-nin müvəqqəti missiyasına razılıq vermişdi. Müvəqqəti missiyanın isə yalnız iki aylıq dövrü əhatə edəcəyi qərarlaşdırılmışdı. Avropa Siyasi Birliyinin 2022-ci il oktyabrın 6-da Çexiyanın paytaxtı Praqada



keçirilən ilk Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev, Fransa prezidenti Emmanuel Makron, Ermənistan baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında görüş keçirilmişdi. Görüşdən sonra verilən bəyanatda bildirilirdi ki, Ermənistan Azərbaycanla sərhəddə Aİ-nin mülki missiyasının göndərilməsinə razılıq verib. Azərbaycan da bu missiya ilə əməkdaşlığa razılaşıb. Bəyanatda qeyd olunurdu ki, Aİ-nin missiyası oktyabr ayında gələcək və maksimum iki ay müddətində işləyəcək. Onun məqsədi etimad yaratmaq və hesabatları ilə sərhəd komissiyalarının işinə töhfə vermək olacaq. Beləliklə, əldə olunmuş razılaşmaya əsasən, vəziyyətin monitorinqi, təhlili və yerlərdə vəziyyətlə bağlı hesabatların təqdim edilməsi məqsədilə oktyabrın 20-də şərti sərhədin Ermənistan tərəfi boyunca Aİ-nin mülki missiyası yerləşdirildi.

Daha sonra, yəni 2022-ci il dekabrın 20-də rəsmi İrəvan missiyanın fəaliyyətinin qeyri-müəyyən müddətədək uzadılmasına dair birtərəfli qaydada qərar qəbul etdi. Beləliklə, “mülki” missiya 2023-cü ilin yanvarında 2 illik ilkin mandata malik olaraq Ermənistanda yerləşdi. Bir ay sonra bu müddət başa çatır və qeyd etdiyimiz kimi, rəsmi İrəvan indidən missiyanın müddətinin uzadılacağına dair mesajlar verir.

Onu da bildirək ki, ilk vaxtlar missiyada, təxminən, 103 müşahidəçinin olacağı gözlənilirdi. 2023-cü il dekabrın 11-də isə Aİ Ermənistanda yerləşdirilən əməkdaşlarının sayının 209-a çatdırılacağını təsdiqlədi.

**(ardı 6-cı səhifədə)**

# “Facebook” inqilabı”ndan “Tik-Tok” inqilabı”na keçid

(əvvəli 1-ci səhifədə)



Əlqərəz, Paşinyanın Qarabağ danışıqları ilə bağlı paylaşımı xüsusilə Ermənistanın ikinci prezidenti Robert Koçaryanın ofisi tərəfindən hiddətlə qarşılandı. Ofisin rəhbəri Baqrat Mikoyan və ölkə parlamentinin Koçaryanın tərəfdarı olan deputatı Artur Xaçatryan Paşinyanı yalan danışmaqda günahlandırdılar, onu satqın kimi qələmə verdilər. Baş nazir məhz buna cavab olaraq üç keçmiş prezidenti – Levon Ter-Petrosyanı, Robert Koçaryanı və Serj Sarkisyanı canlı ictimai debata çağırdı.

Ermənistanın hər üç keçmiş prezidenti öz nümayəndələri vasitəsilə Paşinyanın təklifini qətiyyətlə rədd etdilər. Məsələn, S.Sarkisyanın ofisi baş nazirə ATƏT-in keçmiş Minsk qrupunun həmsədr ölkələrinin (Rusiya, ABŞ və Fransa) prezidentləri ilə debat keçirməyi məsləhət gördü. Ermənistanın üçüncü prezidentinin tərəfdarları onu da bildirdilər ki, 2009 və 2013-cü illərdə Minsk qrupuna daxil olan ölkələr 5 dəfə danışıqların formatı və Qarabağ probleminin həlli prinsipləri ilə bağlı bəyanatlar səsləndiriblər.

R.Koçaryanın tərəfdarları Paşinyana daha kəskin reaksiya verdilər və bəyan etdilər ki, 2018-ci ildən indiyədək Ermənistanda bütün hakimiyyət bir nəfərə – yaşananlara görə tam məsuliyyət daşıyan hazırkı baş nazirə məxsusdur. Onlar öz bəyanatlarında Nikolu ciddi mövzuların müzakirəsindən kənar “Tik-Tok” platformasının komik personajı kimi qələmə verdilər.

Baş naziri məsxərə predmetinə çevirmək baxımından birinci prezident L.Ter-Petrosyanın tərəfdarları da geri qalmadılar. Onlar bildirdilər ki, N.Paşinyan özü özü ilə debat keçirsə və hakimiyyəti müddətində yol verdiyi qanunsuzluqların hesabını sorsa, bu, Ermənistan üçün daha faydalı olardı.

İmtinalara cavab olaraq, Paşinyan yenidən keçmiş prezidentlərə müraciət ünvanladı. Nikol ekslərin qərarlarına yenidən baxmağa və debat dəvətini qəbul etməyə çağırdı. O, debatın erməni xalqı üçün əhəmiyyətini vurğuladı və bildirdi ki, insanlar üçüncü respublikanın bütün tarixi boyu baş verən hadisələrdən qəti nəticə çıxarmalıdırlar.

N.Paşinyan da öz növbəsində məsxərə tonundan geri qalmadı və keçmiş prezidentlərə müzakirə aparacaq heç bir şeyləri olmadığı təqdirdə, təqaüdə çıxmağı, öz üzərilərində məhkəmə qurmağı məsləhət gördü.

*

Az əvvəl Paşinyanın 2018-ci ildə Qarabağ danışıqlarının həmin vaxta qədərki mahiyyəti barədə xalqa düzgün informasiya verilməməsini səhv kimi dəyərləndirdiyini diqqətə çatdırdıq. Yada salaq ki, növbəti səhv onun 2019-cu ildə səsləndirdiyi “Qarabağ Ermənistandır və nöqtə” bəyanatı olmuşdu. Axı 44 günlük müharibəyə başlıca səbəb məhz həmin bəyanat oldu. Görəsən, N.Paşinyan indi nə üçün Qarabağ mövzusunun erməni cəmiyyətindəki həssaslıq amilinə söykənir? Məgər bilmir ki, bu, son dərəcə ziyanlıdır?

Bəli, Nikolun 2019-cu ildəki bəyanatı Qarabağ danışıqlarını heçə saymaq, prosesi dalana dirəmək idi. 2018-ci il inqilabının qalibi olmuş Paşinyan sözügedən çıxışı ilə özünü ekslərdən daha qətiyyətli göstərmişdi. Nikol xal qazanmağa çalışmış və o an istəyinə çatmışdı. Hay cəmiyyəti onu erməni milli identikliyi deyilən cəfəngiyyatın mühüm tərkib hissəsi sayılan məsələdəki qətiyyətini görmüş və beləliklə əmin olmuşdu ki, Paşinyan özündən əvvəlki liderlərdən köklü surətdə fərqlənir.

Baş nazir “qətiyyətinin” cəzasını 44 günlük müharibədə artıqlaması ilə çəkdi. Təzadlı məqam isə odur ki, hazırda Paşinyan siyasi dividendi Qarabağ itkisində məsuliyyəti boynundan atmaqla qazanmağa çalışır. Hesab edirik ki, bir siyasətçi, dövlət xadimi, ölkə rəhbəri statusunu daşıyan şəxs üçün bundan böyük rəzillik yoxdur. Ancaq Nikolun mənəvi məqamları zərrə qədər düşünmədiyi gün kimi aydındır.

*

Qeyd edək ki, son həftələrdə N.Paşinyanın komandası sosial şəbəkələrdə görünməmiş aktivliyə başlayıb. Ekspertlərin fikrincə, elə bu amil seçki kampaniyasına erkən startın verildiyini göstərir. Ermənistan iqtidarının məqsədi, nəyin bahasına olursa-olsun, hakimiyyətdə qalmaq, 2026-cı il seçkilərində qalib gəlməkdir. Qarabağ məsələsi ilə bağlı ictimai debat keçirmək təklifi mövcud istiqamətdəki ilk əhəmiyyətli addımdır.

Bölgənin əldən çıxma ağrısı üzərinə oyun oynayan erməni iqtidarı ənənəsinə sadiq qalaraq, eksləri qınamaq yolunu tutub. Şübhəsiz, Paşinyan ölkəsinin sabiq liderlərinin Qarabağ uğrunda heç nə etmədiklərini vurğulayacaq. Onların korrupsiya və rüşvətxorluq hallarını normaya çevirmələrini, Qarabağa dövlət büdcəsindən ayrılmış maliyyə vəsaitini mənimsədiklərini hayqıracaq. Yəni təkcə sabiqlərin diplomatik səriştəsizliklərini diqqətə çatdırmaqla kifayətlənməyəcək. Beləliklə, erməni cəmiyyətinin yadına keçmişin bərbad idarəçilik tarixçəsini salacaq. Nəzərə alaq ki, Paşinyanın keçmiş prezidentlərə Qarabağ məsələsini müzakirə etmək təklifi sosial şəbəkələrdə nəzərəçarpacaq populyarlıq qazanıb.

*

Baş nazirin komandası sosioloji məlumatları əsas götürür. Nikolun tərəfdarları artan ictimai laqeydlik fonunda siyasi fəallığına arxalanaraq, müxtəlif demoqrafik qruplara ünvanlı yanaşma yolunu seçiblər. Bunu Ermənistandakı Demokratiya və Təhlükəsizlik Regional Mərkəzinin rəhbəri, politoloq Tiqran Qriqoryan deyib. “Biz Nikol Paşinyanın sosial şəbəkələrdəki fəallığının nəzərəçarpacaq dərəcədə artmasının şahidi oluruq. Növbəti parlament seçkiləri 2026-cı ilə təyin olunsa da faktiki olaraq, seçkiqabağı dövr başlanıb. Eyni zamanda, 2025-ci il bir çox qüvvələrin, xüsusən, Paşinyan və onun ətrafının siyasi mövqeyi üçün əsas il olacaq”, – deyən ekspertin sözlərinə görə, baş nazirin tərəfdarları Qarabağ münaqişəsi, 2020-ci il müharibəsində məğlubiyyət və danışıqlar prosesi ilə bağlı məsələlərdən müntəzəm olaraq manipulyasiya və öz məsuliyyətlərinin dərəcəsini azaltmaq cəhdləri üçün yararlanırlar: “Bu məqsədlə onlar bəzən hətta özlərini aldatmaqla da məşğul olurlar”.

İnformasiya təhlükəsizliyi üzrə ekspert Samvel Martirosyan da həmkarının fikirlərini təkrarlayıb. O deyib ki, hakimiyyət ən əlverişli başlanğıc şəraiti yaratmaq üçün artıq erkən seçki kampaniyasına start verib: “Müxalifət seçkilərdə iştirak formalarını belə müəyyənləşdirməyib, hakimiyyət isə artıq kampaniyaya başlayıb. İnzibati resurslar və hökumət qərarları ilə yanaşı, hazırda sosial şəbəkələr Paşinyan üçün əsas alətdir”. O, baş nazirin erməni siyasi elitası üçün gözlənilmədən “TikTok”da hesab yaratmasına da diqqət çəkib və deyib ki, belə bir gediş müxtəlif təbəqələrinə çatmaq istəyindən xəbər verir. Ekspertin fikrincə, Paşinyanın komandası sosioloji araşdırmalara əsaslanan məqsədyönlü yanaşma tərzi seçib və konkret demoqrafik qruplarla işləyir: “Son bələdiyyə seçkilərinin göstərdiyi yüksək siyasi laqeydliyi nəzərə alsaq, yəqin ki, səsvermədə siyasi cəhətdən fəal azlıq iştirak edəcək. Bu kontekstdə sosial şəbəkələr hədəf auditoriya ilə məqsədyönlü iş üçün əlverişli vasitədir”.

*

Sonda vəd etdiyimiz kimi, baş nazir N.Paşinyanın 2026-cı il parlament seçkilərinə erkən hazırlığı məsələsində start verdiyi Qarabağ ritorikasının zərərli tərəfinə nəzər salaq. Əvvəldə də vurğuladıq ki, Nikol erməni cəmiyyətinin Qarabağ həssaslığı üzərində oyun qurur. Yəni ona görə ölkənin eks rəhbərlərini debata çağırır ki, bölgənin itirilməsinə görə məsuliyyətdən boyun qaçırsın. Daha doğrusu, öz əməlini başqalarının boynuna yıxsın. Paşinyan onu da bildirib ki, əgər sabiqlər debata gəlməsələr, xalqa öz bildiyi həqiqətləri anladacaq. Bu isə o deməkdir ki, o, Qarabağ mövzusunu sosial şəbəkələrə, o cümlədən, yenicə aktivləşməyə başladığı “Tik-Tok”a çıxaracaq.

Bu o deməkdir ki, istər-istəməz, şüurlarda Qarabağ erməni milli identikliyinin rəmzi kimi qalacaq. Deməli, dolayısı ilə Azərbaycana ərazi iddiası məsələsi aktuallığını saxlayacaq. Ən başlıcası isə belə bir durumun və ab-havanın hökm sürdüyü şəraitdə Azərbaycanla sülh müqaviləsinin nə dərəcədə real olmasıdır. Əgər Paşinyan 2026-cı il seçkilərində qalib gəlməyi düşünürsə, öz reytinqini aşağı salmaq istəməyəcək, nüfuzunu yüksəltməyə çalışacaq, seçkiyədək barış sazişini imzalamaqdan boyun qaçıracaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

Replika

# Nikolun “COVID” bəhanəsi: MDB pisdir, Aİİ isə yaxşı?

## Siyasətdə primitivlik müsbət heç nə vəd etmir



**Bəri başdan deyək ki, MDB dövlət başçılarının ənənəvi qeyri-formal sammiti ilə Avrasiya İqtisadi İttifaqının Ali Avrasiya İqtisadi Şurasının iclası eyni şəhərdə – Sankt-Peterburqda keçirilir. Dünən sammit öz işini başa çatdırdı, bu gün isə iclas olacaq.**

Ermənistanın baş naziri Nikol Paşinyan MDB dövlət başçılarının Sankt-Peterburqda keçirilən qeyri-formal sammitində iştirak etməyəcəyini açıqlayıb. Guya ki, baş nazir COVID-19-a yoluxub. Əlbəttə, Paşinyanda da hər bir insanda olan orqanlar var və onun hansısa xəstəliyə tutulması mümkündür. Ancaq, istər-istəməz, şübhələr yaranır. Çünki Nikolun MDB egidası altındakı tədbirlərə maraq göstərməməsi dair danılmaz reallıq var. Paşinyan və komandası nə MDB-ni sayır, nə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını.

KTMT müstəvisində hər şey bəllidir. Ermənistan Rusiyanın hakim rol oynadığı bu təşkilatı açıq şəkildə boykot edir. Səbəb odur ki, guya, qurum “Azərbaycanın işğalına” lazımi siyasi qiymət verməyib. Prezident İlham Əliyevin də bildirdiyi kimi, rəsmi İrəvan ABŞ Dövlət Departamentindən KTMT-dən çıxmaq üçün son təlimatları gözləyir. Yəni, hər şey aydındır. KTMT ilə yolları ayırmaq Ermənistanın anti-Rusiya xəttində vacib amildir.

MDB-də də prinsipcə hakim rol Rusiyaya məxsusdur. Paşinyan və tərəfdarları bu təşkilatın Ermənistana lazımsızlığına dair hansısa bəhanəni, görünür, hələ tapa bilməyiblər və tapa bilməyəcəklər. Belə bir mexanizm yox kimi görünür. Ancaq Qərbin Ermənistan qarşısında qoyduğu Rusiyadan maksimum dərəcədə uzaq durmaq tələbi var. Böyük ehtimalla, Paşinyanın “koronavirusa yoluxması” bununla bağlıdır.

Özünə bazar ertəsi, yəni dekabrın 23-də COVID-19 diaqnozunun qoyulduğunu, dekabrın 23 və 24-nü təcriddə keçirdiyini, iqamətgahında işlədiyini, dekabrın 25-də diaqnozun “mənfi” olduğunu və yenidən iş rejiminə qayıtdığını yazan, ancaq Sankt-Peterburqda keçiriləcək MDB dövlət başçılarının qeyri-rəsmi sammitində iştirak etməyəcəyini bildirən N.Paşinyan onu da deyib ki, “günün sonuna kimi Aİİ-nin Ali İqtisadi Şurasının sabahkı (bugünkü) iclasında iştirak edib-etməmək barədə qərar qəbul edəcəm”.

Qeyd edək ki, Rusiya Avrasiya İqtisadi İttifaqında da mühüm rol oynayır. Ancaq əminliklə demək olar ki, N.Paşinyan Aİİ-nin Ali İqtisadi Şurasının toplantısına qatılacaq. Birincisi, Aİİ müstəvisi Ermənistan üçün sığortadır. Qurum sırf iqtisadi zəminlidir və ölkə oradan faydasını götürür. Qərb isə buna qarşı çıxmır. Çünki indiki durumda Aİİ, loru dildə desək, Ermənistanı Rusiyanın pulu ilə onun özünə qarşı qoymaq üçün kifayət qədər ciddi maliyyə platformasıdır. Məhz bu səbəbdən Nikol qurumun sammitindənək “sağalmalıdır”. Həm də nəzərə alaq ki, hazırda təşkilata rotasiya qaydasındakı sədrlik İrəvana məxsusdur. Yəni, Aİİ-nin Ali İqtisadi Şurasının toplantısına rəhbərliyi N.Paşinyan həyata keçirəcək.

Yeri gəlmişkən onu da deyək ki, əslində, Aİİ-nin sammiti Sankt-Peterburq deyil, İrəvanda düzənlənməli idi. Lakin Ermənistanın xahişi ilə tədbirin keçirilmə yeri dəyişdirilib. Rəsmi İrəvanın açıqlamasından belə nəticə hasil olur ki, təşkilata üzv ölkələrin bəzilərinin dövlət başçılarının Ermənistanda olmaları arzulanan deyil. Böyük ehtimalla, söhbət Belarus Prezidenti Aleksandr Lukaşenkodan gedir.

Nəzərə alaq ki, A.Lukaşenko bu ilin mayında Azərbaycana səfəri çərçivəsində Şuşada olmuş, ölkəmizin haqq davasına rəğbət aşılayan fikirlər səsləndirmişdi. Belarus liderinin Şuşada söylədiklərinin Ermənistanda doğurduğu qəzəb qarşılığında N.Paşinyan parlamendə çıxışı zamanı demişdi ki, A.Lukaşenko Belarusda dövlət başçısı postunu tutduğu müddətdə həmin ölkəyə səfər etməyəcək və hökumət üzvlərinə də bununla əlaqədar müvafiq tapşırıq verib.

Sonda onu da deyək ki, Cənubi Qafqaz tarixi ərzində baş nazir Nikol Paşinyan qədər hiyləgərliyi olduqca primitiv üsullarla həyata keçirən ikinci lider görməyib. Hərçənd, Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın təbii ehtiyaclarını ödəmək bəhanəsi ilə Azərbaycanla danışıqlardan yayındığını nəzərə alsaq, deyə bilərik ki, primitivlik erməni dövlətçiliyi üçün yenilik deyil. Bir dövlət ki, quramadır, onun rəhbərinin hansı dəyər və prinsipləri ola bilər? Sual ritorikdir…

***Ə.RÜSTƏMOV***
***XQ***

# İrəvan “təxribatçı missiya”dan əl çəkmir

(əvvəli 5-ci səhifədə)

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev** mövzu ilə bağlı qəzetimizə



açıqlamasında bildirdi ki, Avropa İttifaqının üzvü olmayan, NATO üzvü Kanada kimi ölkələrin daxil olması ilə EUMA bir növ NATO missiyasına çevrilib. Onun sözlərinə görə, ilkin dövrdə, yəni 2022-ci ilin oktyabrında Praqada missiyanın müddətinin iki aylıq dövrü əhatə edəcəyi, onun tərkibinə yalnız Aİ-yə üzv ölkələrin daxil olacağı razılaşdırılmışdı. Ancaq rəsmi İrəvan sonradan əldə olunan razılaşmanı pozaraq, həm missiyanın müddətini birtərəfli qaydada uzatdı, həm də onun tərkibinə digər ölkələri daxil etdi: “Missiyanın varlığı Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması prosesinə üç şəkildə zərər verir. Birincisi, bu missiya Ermənistanla sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsinin imzalanmasına əsas əngəllərdən biridir. Razılaşdırılmamış iki maddədən biri missiyanın bölgədəki varlığı ilə bağlıdır. Amma, təkcə bu deyil. Azərbaycan şərti sərhəddə üçüncü ölkələrin hər hansı formada varlığını istəmir. Beləliklə, missiya hazırda sülh sazişinin razılaşdırılmasına mane olur. İkincisi, Azərbaycan Ermənistanla məsələlərin ikitərəfli qaydada həll olunmasının tərəfdarıdır. Biz EUMA-nın bu prosesə zaman-zaman müdaxilə etdiyini görürük. Nikol Paşinyan özü də bir neçə gün öncə “Armenpress”ə müsahibəsində etiraf etdi ki, missiyanın burada olmasının səbəbi Ermənistan–Azərbaycan sərhədinin qalan hissəsinin müəyyənləşməməsi ilə bağlıdır. Bildirdi ki, sərhədlərin delimitasiyası başa çatdıqdan sonra EUMA bölgəni tərk edəcək. Bu mənada Paşinyan etiraf edir ki, onlar üçüncü tərəfləri prosesə daxil ediblər. Halbuki biz daha əvvəl gördük ki, sərhədin 12 kilometrlik hissəsi ikitərəfli qaydada aparılan müzakirələr nəticəsində müəyyənləşdi. Delimitasiya ilə yanaşı, demarkasiya prosesi də getdi”.

C.Vəliyev dedi ki, üçüncüsü Aİ missiyasının mövcudluğu Ermənistan və Azərbaycan arasında etimad quruculuğu prosesinə zərər verən bir prosesdir. Missiya sərhədyanı ərazidə “binokl diplomatiyası” həyata keçirərək bəzən ciddi şəkildə problem yaradır: “Bu, özlüyündə göstərir ki, missiya açıq-aydın Azərbaycana qarşı fəaliyyət göstərir. Biz bunun nümunələrini daha əvvəl də görmüşdük. Şərti sərhəddə hansısa münaqişə yarandığı zaman EUMA daha çox Ermənistanın mövqeyindən çıxış edirdi. Bu səbəbdən missiyanın bölgədə varlığı Ermənistan və Azərbaycan arasındakı münasibətlərin ümumi normallaşma prosesinə zərər verir. Yəni, həm sülh sazişinin imzalanmasına, həm sərhədlərin delimitasiya və demarkasiyasına, həm də etimad atmosferinin formalaşmasına zərər vurur”.

Politoloq onu da qeyd etdi ki, sərhədlərin delimitasiya və demarkasiyası uzun çəkən prosesdir: “Digər həmsərhəd ölkələrlə bu istiqamətdə qazandığımız təcrübə də bundan xəbər verir. Bu isə onu göstərir ki, Ermənistan EUMA-nın müddətini 2025-ci ilin yanvarından sonra da uzadacaq. Missiyadan verilən açıqlamalarda da müddətin uzadılmasının tərəfdarı olduqları bildirilir. Mən deyərdim ki, burada bir qədər təzyiq də formalaşdırıb prosesi uzatmağa çalışırlar. Ermənistan daxilində hələ ki, ekspertlər səviyyəsində missiyanın müddətinin uzadılması ilə bağlı tələblər gündəmə gətirilir. Paşinyanın dediklərindən anlaşılan odur ki, Ermənistan–Azərbaycan sərhədləri tam müəyyənləşmədən, delimitasiya–demarkasiya prosesi başa çatmadan EUMA orada qalacaq. Bu səbəbdən missiya Bakı və İrəvan arasında davam edən sülh danışıqlarına da ciddi maneə törədir. Bunun aradan qaldırılması üçün də missiyanın fəaliyyətinə dərhal xitam verilməlidir. Çünki delimitasiya–demarkasiya prosesinin uğurla getməsi üçün tərəflər arasında etimad mühiti formalaşmalıdır”.

***Səxavət HƏMİD***
***XQ***

# Adını dünya diplomatiya və hərb tarixinə yazdırmış lider

(əvvəli qəzetin 25 dekabr sayında)

## Dövlət hakimiyyəti və idarəetmə

Azərbaycanda keçirilən hüquqi islahatları fonunda 2009-cu və 2016-cı illərdə Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsini nəzərdə tutan ümumxalq referendumlarının keçirilməsi sonrakı illərdə bunun doğru yanaşma olduğunu təsdiqlədi. Azərbaycan Respublikasında həyata keçirilən islahatlar, dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi zərurəti konstitusiyada əlavə və dəyişiklikləri zəruri etdiyindən Prezident İlham Əliyev Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi təşəbbüsünü irəli sürdü. 2008-ci il dekabrın 19-da Azərbaycan Respublikası Milli Məclisində Konstitusiyanın 29 maddəsinə təklif olunan 41 dəyişiklik geniş müzakirə edildi. Milli Məclis "Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi haqqında referendum aktı" layihəsini qəbul etdi. Dəyişikliklərin 17-si maddələrə yeni hissələrin və ya bəndlərin əlavə edilməsi, 7-si maddələrdə sözlərin əvəz edilməsi, 7-si maddələrə yeni sözün və ya sözlərin əlavə olunması, 6-sı maddələrə yeni cümlələrin əlavə olunması, 2-si maddənin yeni redaksiyada verilməsi, 1-i maddənin adının dəyişdirilməsi, 1-i isə maddədən sözün çıxarılması ilə bağlı idi.

Təklif olunan birinci qrup dəyişikliklərdə dövlətin üzərinə əlavə öhdəliklərin qoyulması, ikinci qrupda insan hüquqlarının həyata keçirilməsi mexanizmi, qaydaları və şərtləri, üçüncü qrupda dövlət orqanlarının fəaliyyətinin hüquqi əsaslarının daha da təkmilləşdirilməsi, dördüncü qrup dəyişikliklərdə Konstitusiyanın bəzi müddəalarının konkretləşdirilməsi və bəzi ifadələrin başqası ilə əvəz edilməsi nəzərdə tutulurdu.

Azərbaycan Respublikası Konstitusiyasına təklif edilən dəyişikliklərə dair referendum 2009-cu il martın 18-də baş tutdu. Referendumda ölkədəki 5367 məntəqədə səsvermədə iştirak edən seçicinin 70,83 faizi təklif olunan dəyişikliklərin lehinə səs verdi.

2009-cu ilin ümumxalq referendumunda ictimai dəstək almış hüquqi yeniliklər 1948-ci il "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"nə, 1950-ci il "İnsan Hüquqları üzrə Avropa Konvensiyasına", 1966-cı il "Vətəndaş və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt"a, 1989-cu il "Uşaq hüquqları haqqında" Konvensiyanın müddəalarına tam uyğun olmaqla, ölkənin milli qanunvericiliyinin beynəlxalq hüquq, prinsip və normaları ilə uzlaşdırılmasına yönəlmişdi.

Dövlət orqanları tərəfindən əhaliyə bütün xidmətlərin vahid məkandan, daha keyfiyyətli və rahat həyata keçirilməsi məqsədiilə 2012-ci ilin iyul ayında Azər-baycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təsis edilməsi, qurumun nəzdində Azərbaycanın milli brendinə çevrilmiş "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması ilə ölkəmizin dövlət idarəetmə sistemində inqilabi dəyişikliklərə start verildi. İlk "ASAN xidmət" 2013-cü il yanvarın 15-də vətəndaşlara xidmət göstərməyə başladı. Çox keçmədən respublikanın bir çox rayonlarında "ASAN xidmət" mərkəzləri fəaliyyətə başladı. Dünyada ciddi yeniliklərdən biri kimi qiymətləndirilən "ASAN xidmət", "ASAN kommunal" və "DOST" kimi modern xidmət mərkəzlərinin yaradılması və fəaliyyəti hökumətin xalq qarşısında bürokratik amillər olmadan, şəffaf və layiqli xidmət etmək niyyətinin ali təcəssümü olaraq Azərbaycan milli brendinə çevrilmişdir. Bu innovasiyalar dövlət idarəçiliyində "müştəri məmnunluğu" ideyasının tətbiqinə, dövlət qulluqçusu vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət etmişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2016-cı il 9 iyun tarixli "Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında" Fərmanı da vətəndaş məmnunluğunun təminində yeni mərhələni təşkil etdi.

## 2018-ci il prezident seçkiləri

2018-ci ildə Azərbaycanda növbədənkənar seçkilərin keçirilməsi ölkəmizdə cəmiyyət həyatının bütün sahələrində daha böyük nailiyyətlər qazanmaq, respublikanı daha möhtəşəm inkişafa doğru aparmaq, yeni və genişmiqyaslı islahatlar həyata keçirmək üçün əlavə vaxt və imkan qazanmaq məqsədi daşıyırdı. Növbədənkənar prezident seçkilərinin keçirilməsini bir sıra amillər şərtləndirmişdi.

Birincisi, Azərbaycan ərazilərinin uzun illər boyu davam edən işğalına tezliklə son qoymaq üçün dövlətin daha da gücləndirilməsinə, ölkə daxilində islahatları sürətləndirərək çevik idarəetmənin qurulmasına, millətin hakimiyyətə etimadının bir daha sınaqdan çıxarılmasına, güvənməsinə əmin olmaqdan ötrü növbədənkənar seçkilərin keçirilməsi zəruri idi.

İkincisi, yaranmış mürəkkəb beynəlxalq şərait, müxtəlif dövlətlər arasında münasibətlərin gərginləşməsi çevik addımların atılmasını irəli sürürdü. Regional



və qlobal miqyasda proqnozlaşdırılmayan proseslər getdiyindən keçirilən demokratik seçkilər həm də Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirəcəkdi.

Bu baxımdan 2018-ci ildə iqtidar partiyası ilk dəfə olaraq növbədənkənar prezident seçkilərinin keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Təşəbbüsə uyğun olaraq fevralın 5-də dövlət başçısı növbədənkənar prezident seçkilərinin keçirilməsi haqqında sərəncam imzaladı. Sərəncama əsasən, seçkilər 2018-ci il aprelin 11-nə təyin edildi.

Azərbaycan Respublikası Prezidenti namizədliyi uğrunda mübarizəyə 8 nəfər qoşulmuşdu. Prezident İlham Əliyevin namizədliyi Yeni Azərbaycan Partiyası (YAP), Araz Əlizadənin namizədliyi Azərbaycan Sosial Demokrat Partiyası (ASDP), Qüdrət Həsənquliyevin namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (BAXCP), Fərəc Quliyevin namizədliyi Milli Dirçəliş Hərəkatı Partiyası (MDHP), Hafiz Hacıyevin namizədliyi Müasir Müsavat Partiyası (MMP), Sərdar Cəlaloğlunun namizədliyi Azərbaycan Demokrat Partiyası (ADP), Razi Nurullayevin namizədliyi Cəbhəçilərin təşəbbüs qrupu (bitərəf), Zahid Orucun namizədliyi özü tərəfindən (bitərəf) irəli sürülmüşdü. 125 dairənin 100 seçki məntəqəsində və ya seçki məntəqələrinin 20 faizində vebkameralar quraşdırılmış, 5641 seçki məntəqəsində keçirilən seçkiləri 61 təşkilat, 59 ölkədən 894 beynəlxalq müşahidəçi izlədi. Azərbaycan Respublikasında keçirilmiş ilk növbədənkənar prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyev 3.394.898 seçicinin etibarını qazanaraq 86,02 faiz səs topladı. 2018-ci il aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirildi.

## Ərazi bütövlüyünün bərpası

Azərbaycan xalqı 2018-ci il mayın 2-dən 27-dək daha bir erməni təxribatına cavab verməli oldu. Naxçıvan Muxtar Respublikasında keçirilən Günnüt əməliyyatı zamanı Şərur rayonunun Günnüt kəndi, Ağbulaq, Qızılqaya və Qaraqaya yüksəklikləri, ümumilikdə, 11 min hektardan artıq ərazi azad olundu. Dərələyəz mahalının Arpa kəndi, dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Günnüt kəndi ətrafında yerləşən 2065 metrlik Xunut yüksəkliyi, 1869 metrlik Mehridağ yüksəkliyi, 1683 metrlik Qızılqaya yüksəkliyi Ümumqoşun Ordu bölmələrinin nəzarəti altına keçdi.

Qızılqaya yüksəkliyinin azad olunması nəticəsində böyük əhəmiyyətə malik İrəvan–Yegeqnadzor–Gorus–Laçın–Xankəndi avtomobil yolu, yəni böyük Zəfərədək işğal altında olan Qarabağ ərazisi ilə Ermənistanın cənubunu birləşdirən əsas magistral xəttin mühüm hissəsi nəzarətə götürüldü. Günnüt kəndinin azad olunması ilə Naxçıvanın təxminən 14 faiz elektrik enerjisini verən Arpaçay-1 və Arpaçay-2 su elektrik stansiyalarının da təhlükəsizliyi təmin olundu. Beləliklə, Ermənistanın növbəti təxribatı onun məğlubiyyəti ilə nəticələndi.

Azərbaycan Respublikasının həm daxili, həm də xarici siyasətdə əldə etdiyi uğurlarını həzm edə bilməyən, 2016-cı ilin Aprel və 2018-ci ilin May döyüşlərindən düzgün nəticə çıxarmayan Ermənistanın hərbi-siyasi rəhbərliyi 2020-ci il iyulun 12-də Azərbaycan Respublikası ilə dövlət sərhədinin Tovuz rayonu istiqamətində növbəti hərbi təxribat törətdi. Təxribatda əsas məqsəd beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycanın işğal edilmiş ərazilərindən, Dağlıq Qarabağ münaqişəsindən yayındırmaq və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan dövlətləri münaqişəyə cəlb etmək, strateji yüksəklikləri tutaraq, Azərbaycanın Qərbə çıxışını, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərini, Bakı–Tbilisi–Ərzurum qaz boru kəmərini, TAP, TANAP, Bakı–Tbilisi–Qars dəmir yolunu və Böyük İpək yolunu kəsmək, həmçinin öz ölkəsi daxilindəki ağır şəraitdən diqqəti yayındırmaq idi.

Ermənistan–Azərbaycan dövlət sərhədinin Tavuş mərzi və Tovuz rayonu ərazilərində baş verən döyüşlərdə 16 əsgər həlak oldu. İyulun 14-də erməni ordusunun hücumu nəticəsində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev, həmçinin hücumun qarşısını alarkən beş hərbi qulluqçu şəhid oldu.

44 günlük Vətən müharibəsinin başlanğıcı hesab edilən Tovuz döyüşləri Azərbaycan əhalisi arasında ciddi narahatlığa səbəb oldu. İyulun 14-dən 15-ə keçən gecə on minlərlə gənc Bakıda Prezidentə və orduya dəstək nümayiş etdirərək "Qarabağ bizimdir!" şüarı ilə dövlətin və silahlı qüvvələrin yanında olduqlarını bildirdilər. Lakin münaqişənin dinc siyasi vasitələrlə həllindən boyun qaçıran Ermənistan silahlı qüvvələri atəşkəs rejimini yenidən kobud şəkildə pozaraq 2020-ci il sentyabrın 27-də təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini, Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çiraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı, Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutdular. Qarşıdurmalar İkinci Qarabağ müharibəsinə çevrildi.

44 günlük Vətən müharibəsinin başlanması bizə dostları və düşmənləri tanımağa şans verdi. Türkiyə, Pakistan, Əfqanıstan, Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC), Bosniya və Herseqovina, Gürcüstan, Ukrayna, İsrail, Macarıstan və Moldova, İslam Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Qoşulmama Hərəkatı Azərbaycana dəstək nümayiş etdirdi. Malayziya, Mərakeş, Səudiyyə Ərəbistanı, Özbəkistan, Qətər Azərbaycanı qismən dəstəklədi, Yunanıstan, Kipr (Yunan Kipri), Fransa, Kanada, Rusiya, ABŞ Ermənistanı müdafiə etdi.

Azərbaycanda fəaliyyət göstərən 52 siyasi partiyadan 50-si, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycandakı yəhudi icmaları, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycandakı Katolik dini icması və Yevangelist-Xristian protestant dini icmaları bəyanat verərək erməni vandalizmini pislədilər. Azərbaycan Respublikasında yaşayan etnik icma rəhbərləri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və üzvləri Ermənistanın törətdiyi son hərbi təxribatları pisləyən bəyanat verdilər.

Ermənistan–Azərbaycan döyüş bölgəsində baş verən hadisələr geniş ictimaiyyət tərəfindən diqqətlə izlənilirdi. Avstriya, İsrail, Gürcüstan, Ukrayna, Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkiyə, Avstraliya İttifaqı, Yeni Zelandiya, Misir Ərəb Respublikasında yaşayan azərbaycanlılar bəyanat imzaladılar. ABŞ və Avropanın müxtəlif ölkələrində Azərbaycana dəstək mitinqləri keçirildi. Azərbaycanın həyata keçirdiyi əks-hücum həmlələrindən narahat olan vasitəçilər, xüsusilə Fransa prezidenti Emmanuel Makron Azərbaycan Prezidentinə ardıcıl zənglərlə Ermənistanı tam iflasdan qurtarmaq üçün cəhdlər göstərdi.

Vətən savaşının gedişində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müharibə dövründə dünyanın 30-a yaxın televiziya və mətbuat orqanlarına verdiyi müsahibələri, xarici dövlət və hökumət başçıları ilə telefon danışıqları münaqişənin başlanması səbəblərinə, müharibə dövründə əldə olunan atəşkəsin üç dəfə (oktyabrın 10, 18 və 25-də) Ermənistan tərəfindən xaincəsinə pozulmasına, Türkiyənin və xarici muzdluların Azərbaycan tərəfindən cəbhədə əməliyyatlarda iştirak etmələrinə aydınlıq gətirməsi beynəlxalq ictimaiyyətin rəyində dönüş yaratdı. 44 günlük Vətən müharibəsində arxa cəbhənin ön cəbhə ilə əlaqələrinin möhkəmlənməsində, əsgərlərin arxa cəbhədəki vəziyyətlə tanışlığında və xalq–ordu birliyinin yaranmasında "Əsgərə məktub!" layihəsi önəmli rol oynadı.

Azərbaycan Ordusu Ali Baş Komandanın strategiyasını uğurla həyata keçirərək, Ermənistanı diz çökdürdü, onu kapitulyasiya sənədini imzalamağa məcbur etdi. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri Nikol Paşinyan üçtərəfli Bəyanat imzalamaqla Azərbaycanın hərbi-siyasi Qələbəsini dünyaya təqdim etdilər. Qarabağın ürəyi, tacı olan Şuşanın tarixi sahibinə qaytaran, 44 gündə 5 şəhər, 4 qəsəbə, 300-ə yaxın yaşayış məntəqəsi və xeyli sayda strateji yüksəkliyin döyüşlə işğaldan azad edilməsinə nail olan Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycana qarşı 7 şərt irəli sürən Ermənistanın baş naziri Nikol Paşinyanın qarşısında yalnız bir şərt – torpaqlarımızı tərk etmək şərtini qoydu.

İlham Əliyev tarixin ən qüdrətli Azərbaycanının yaradıcısı olmaqla bərabər, həm də onun ən böyük Zəfərinin müzəffər Ali Baş Komandanıdır. Xalqımıza böyük qürur bəxş edən Vətən savaşında əldə olunan Zəfərdən sonra Cənubi Qafqazda formalaşan hərbi-siyasi reallıqlar Azərbaycan Prezidentinin "dəmir yumruğ"unun nəticəsidir.

İkinci Qarabağ müharibəsində Azərbaycan xalqı 2908 şəhid versə də, qazanılan möhtəşəm Zəfər ulu öndər Heydər Əliyevin müqəddəs arzuları və vəsiyyətləri müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə məhz "Heydər Əliyev İli"ndə gerçəyə çevrildi. Son beş əsrlik tariximizin ən böyük qəhrəmanlıq örnəyi bu yubiley ilində tarixin qızıl səhifəsinə həkk olundu.

## Sosial-iqtisadi inkişafın İlham Əliyev modeli

Xalqımızı sabitliyə, dayanıqlı sosial-iqtisadi inkişafa, tərəqqiyə, azad və demokratik inkişafa aparan yol görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra başlanmışdır. 1994-cü ilin payızında imzalanmış və "Əsrin müqaviləsi"ndən sonra beynəlxalq aləmə səs salan neft kontraktlarının İlham Əliyev tərəfindən həyata keçirilməsi istiqamətində dövlət səviyyəsində aparılan geniş, ardıcıl və məqsədyönlü iş nəticəsində qarşıya çıxan bütün maneələr qətiyyətlə aradan qaldırıldı, bu möhtəşəm layihə böyük uğurla tamamlandı.

2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra İlham Əliyevin imzaladığı fərmanlar ölkənin hərtərəfli inkişafına dair davamlı və sistemli proqramların əsasını qoydu, sosial-iqtisadi inkişafın real dinamikasını müəyyənləşdirdi. Regionlarda mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etmək, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirmək və aqrar sektorda islahatları dərinləşdirmək, əhalinin məşğulluğunu artırmaq, yoxsulluğun səviyyəsini azaltmaq, infrastrukturu yeniləşdirmək, əlverişli investisiya şəraiti, müasir tipli müəssisələr, yeni iş yerləri yaratmaq istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi məqsədilə Prezidentin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004–2008-ci illər)" təsdiq edildi. Proqramdan əlavə Quba–Xaçmaz, Şəki–Zaqatala, Dağlıq Şirvan, Lənkəran, Aran, Gəncə–Qazax və Yuxarı Qarabağ iqtisadi rayonlarına daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə 17 sərəncam imzalandı. "Bakı şəhərinin qəsəbələrinin 2006–2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı" təsdiq olundu.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004–2008-ci illər)"nın qəbulundan sonra iqtisadiyyatın müxtəlif sahələrində ilk uğurlar qazanıldı. 2006-cı il iyulun 13-də Heydər Əliyevin adını daşıyan nəhəng Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin açılışı mərasimi keçirildi. Dekabrın 15-də "Şahdəniz" yatağında ilk quyu istismara verildi. Sonrakı illərdə "Ümid", "Babək" və "Abşeron" yataqlarının kəşfi Azərbaycanın böyük qaz ehtiyatlarına sahib olduğunu təsdiq etdi. Bununla da, Azərbaycanın təbii resurslar tarixində yeni bir səhifə açıldı. TRASEKA proqramı çərçivəsində fəaliyyət göstərən Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi əsas beynəlxalq dəhlizlərdən birinə çevrildi.

Həyata keçirilən iqtisadi siyasət kənd təsərrüfatının inkişafına da təsir göstərirdi. "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 oktyabr tarixli Sərəncamı aqrar sahədə zəruri kənd təsərrüfatı texnikası ilə təchizatının yaxşılaşdırılmasına, keyfiyyətli məhsul yetişdirilməsi və onun itkisiz yığılması məqsədini istiqamətlənmişdi.

2003–2008-ci illərdə Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmış qaçqınlar və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Biləsuvar rayonunda 2560, Füzuli rayonunda 2021, Ağdam rayonunda 126, Yevlax rayonunda 65, Şəmkir rayonunda 126, Bakı şəhərinin Ramana qəsəbəsində 160, Mehdiabad qəsəbəsində 50, İsmayıllı şəhərində Qarabağ müharibəsi əlilləri üçün 27 mənzilli yeni yaşayış evləri tikilmiş və 2007-ci ildə artıq bütün çadır şəhərcikləri ləğv edilmiş, soydaşlarımız yeni mənzillərə köçürülmüşlər.

2003–2008-ci illərdə respublikada 766 min, o cümlədən, 548 min daimi iş yeri açılmışdır. Respublikada yoxsulluq səviyyəsi 2003-cü ildəki 49 faizdən 2008-ci ilin sonunda 13,2 faizə düşmüşdür.

Əldə olunan uğurlar "Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın hazırlanmasına təkan verdi və proqram Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli Fərmanı ilə təsdiq olundu.

II Dövlət Proqramının icrasını şəxsi nəzarətinə götürən Prezident İlham Əliyev ötən müddət ərzində regionlara 27 dəfə səfər edərək istehsal, nəqliyyat, təhsil, səhiyyə, mədəniyyət, idman, turizm və digər sahələri əhatə edən 105 obyektin açılışında, 14 obyektin təməlqoyma mərasimində iştirak etmiş, 50-dən çox müxtəlif təyinatlı müəssisənin fəaliyyəti ilə tanış olmuşdur.

**(ardı var)**

*Mais ƏMRAHOV,*
*AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, professor*

# Böyük strateji kurs

## Xarici siyasətdə uğurların anatomiyası

**Müasir tarixi mərhələdə gənc müstəqil dövlətlərin davamlı olaraq uğurlar qazanması çox çətin məsələdir. Bunu dünyanın nüfuzlu dövlət başçıları da etiraf edirlər. Xüsusilə Cənubi Qafqaz kimi dolaşıq və ziddiyyətli geosiyasi mənzərəsi olan regionda müstəqil milli siyasət yürütmək xüsusi məharət tələb edir.**

2003-cü ildən bu yana Azərbaycanın keçdiyi yola xarici siyasətdə əldə edilən konkret nəticələr kontekstində nəzər saldıqda, çox müsbət bir mənzərəni görürük. Bu barədə ekspertlərin fikirləri maraq doğurur. Onların üzərində dayanmağa ehtiyac yoxdur. Lakin Azərbaycanın dünyada ən mötəbər tədbirlərdən biri hesab edilən BMT-nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) yüksək səviyyədə evsahibliyi etməsi və səkkiz inkişaf etməkdə olan ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzvlüyə qəbul olunmasından sonra xarici siyasət kursuna daha bir ümumi baxışın olmasına ciddi ehtiyac yaranıb. Bu, faktiki olaraq, xarici siyasətdə düşündürücü və əhəmiyyətli trendləri aydınlaşdırmağa imkan verir.



### Müstəqil xarici siyasət strategiyası

Prezident İlham Əliyevin Azərbaycanda dövlət quruculuğunun bütün istiqamətlərində böyük nailiyyətlər əldə etdiyi ən yüksək siyasi dairələrdə yekdilliklə qəbul olunur. O, nadir milli siyasi liderlərdəndir ki, müasir dövrün tələbləri və çağırışları səviyyəsində davamlı olaraq qələbələr əldə edir. Buraya xarici siyasət sahəsində qazanılan ciddi uğurlar da daxildir. Əlbəttə, onun əsas səbəbi Azərbaycanın, sözün həqiqi mənasında, müstəqil xarici siyasət aparmasından ibarətdir.

XXI əsrin ilk onilliklərinin təcrübəsi göstərir ki, rəsmi Bakı bütün sferalar üzrə dərin düşünülmüş siyasi strategiya reallaşdırır və bu zaman regional miqyasdan qlobal səviyyəyə uğurlu keçidlər edə bilir. Bu, Bakının geniş geosiyasi məkanda enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyi üzvi surətdə əlaqələndirə bilmək qabiliyyətində özünü büruzə verir.

Bu siyasi strateji kursun əsası Ulu öndər tərəfindən qoyulub. Burada tarixi təcrübə, geosiyasi reallıqlar və liderin yüksək şəxsi keyfiyyətlərə malik olması qarşılıqlı surətdə bir-birini tamamlayır. Eyni zamanda, çoxistiqamətli və tarazlaşdırılmış əsasda praqmatik və realist siyasət həyata keçirilir. İlham Əliyevin sistemli və ardıcıl yanaşmasını xalq tam dəstəkləyir. Həmin məqam Prezident İlham Əliyevin bütün mənalarda tam inklüziv legitim lider olduğunu bir daha təsdiqləyir.

Müstəqil xarici siyasət strategiyası Azərbaycanın ikitərəfli və çoxtərəfli əməkdaşlıq platformalarını uğurla sintez edə bilməsi ilə sıx bağlıdır. Son illər ekspertlər bu aspektə daha çox diqqət yetirməyə başlayıblar. Çünki bütövlükdə dünya miqyasında müstəqil dövlətin yalnız ikitərəfli və ya ancaq çoxtərəfli əməkdaşlıq platformalarına arxalanması qalıcı uğur gətirmir. Bunun fərqinə indi daha çox diqqət yetirilir. Ulu öndər isə hələ keçən əsrin 90-cı illərində Azərbaycanın xarici siyasət kursunu müstəqil dövlət kimi məhz həmin özəlliyi nəzərə alaraq formalaşdırıb.

Çox əhəmiyyətlidir ki, Prezident İlham Əliyev Heydər Əliyev siyasi kursuna sadiq qalaraq Ulu öndərin bu xəttini mürəkkəb şərtlər daxilində XXI əsrdə böyük uğurla davam etdirir. Bu xətt milli, regional və qlobal səviyyələrin qarşılıqlı əlaqəsinin təmin edilməsi fonunda reallaşdırılmaqdadır. Məntiqi olaraq, Azərbaycanın regional və qlobal təşkilatlardakı fəaliyyəti konkret nəticələr verməkdədir.

Bütün bunların nəticələrini ekspertlər, adətən, aşağıdakı kimi qruplaşdırırlar: Regional miqyasda yaranmış geosiyasi, siyasi və s. reallıqlara uyğun yeridilən siyasətdə uğurlar; Regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqda əldə edilən nailiyyətlər; BMT TŞ-yə müvəqqəti sədrlik hüququnun əldə edilməsi (2012–2013-cü illər); Qoşulmama Hərəkatındakı fəaliyyətdə qazanılan uğurlar; TDT-nin gücləndirilməsi; İkinci Qarabağ müharibəsi zamanı Prezident İlham Əliyevin uğurlu hərbi, diplomatik və informasiya mübarizəsi; Şuşa və Qarabağ bəyannamələrinin imzalanması; Azərbaycanın BMT-nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurlu sədrliyi; COP29 çərçivəsində qəbul edilmiş qərarlar; Azərbaycanın inkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzv qəbul edilməsi.

Əlbəttə, bunlar da bütün uğurları əhatə edən tam siyahı deyildir. Ancaq həmin faktlar bütövlükdə bir müstəqil dövlətin həm xarici siyasətdə böyük uğurlar əldə etməsini, onun müstəqil kurs həyata keçirməsini və mürəkkəb şərtlər daxilində hərb meydanında, faktiki olaraq, böyük gücləri belə yenməsini ümumi şəkildə ifadə edir. Vurğulanan istiqamətlərin hər birinin üzərində ayrılıqda dayanmaq olar.

### Regional reallıqlar fonunda aparılan siyasət

2003-cü ildən başlayaraq Azərbaycan milli və regional miqyaslarda həyata keçirdiyi siyasəti uğurlu surətdə əlaqələndirmək əsasında iki mühüm siyasi və geosiyasi nəticə əldə edib. Onlardan birincisi ölkədə qalıcı sabitliyə nail olmaqdan ibarətdir. Hazırda ölkəmiz mürəkkəb və ziddiyyətli geosiyasi regionda sabitlik və təhlükəsizliyin yeganə etibarlı məkanıdır. İkincisi, Azərbaycan milli səviyyədə əldə etdiyi uğurları səmərəli şəkildə regional miqyasa transformasiya etməklə təhlükəsizliklə əməkdaşlığı üzvi surətdə birləşdirib. Sonuncu tezisin işığında Azərbaycanın beynəlxalq səviyyədə qazandığı nailiyyətləri ayrıca vurğulamaq lazımdır. Bunun fonunda Azərbaycan kənardan olan riskləri və təhdidləri neytrallaşdırır və regionda sabitliyi təmin edən əsas güc kimi mövcudluğunu davam etdirir. Bununla Azərbaycan dünyanın böyük güclərinin belə regiona dağıdıcı təsirlərinin qarşısını alır.

Regionda mövcud olan real vəziyyətin fonunda Azərbaycanın son 21 ildə həyata keçirdiyi proqramlar sayəsində bir sıra böyük irəliləyişlər əldə edilib. Onların sırasında ölkəmizin təkbaşına regionun ən riskli münaqişəsini həll etməsi xüsusi yer tutur. İndi bu reallıq bütövlükdə Cənubi Qafqazın geosiyasi mənzərəsini müəyyən edir. Bu mənzərə konstruktiv mahiyyətlidir. Belə ki, Azərbaycan regional dövlət kimi nəinki mövcud reallıqlardan çıxış edir, hətta indi həmin reallığı özü yaradır. Bu prosesin öncəki mərhələlərdən fərqi isə rəsmi Bakının təhlükəsizlik, əməkdaşlıq və sülhsevərliyə üstünlük verən geosiyasi mühit formalaşdırmasından ibarətdir.

Ötən müddət ərzində digər nailiyyət Bakının Şərq–Qərb, Şimal–Cənub, Cənub–Qərb marşrutları üzrə dünya okeanlarını və qitələri birləşdirən nəqliyyat layihələrinin müəllifi olması ilə bağlıdır. Bununla Azərbaycan Cənubi Qafqazın qlobal enerji təhlükəsizliyinə töhfə verən dövləti halına gəlib. Onun tərkib hissəsi kimi isə ölkəmiz Avropanın enerji təchizatına ciddi fayda verir. Həmin kontekstdə Azərbaycanın nəqliyyat-logistika, informasiya-kommunikasiya proqramlarının təşəbbüskarı olması və həm də Orta dəhliz layihəsinin həyata keçməsində geniş bir məkanda aparıcı rol oynaması diqqətdən kənarda qalmır.

Bütün bunlardan məntiqi olaraq xarici siyasətin başqa bir aspektinin aktuallığı ön plana çıxır. Bu isə regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqda əldə edilən nailiyyətləri nəzərdə tutur.

### Beynəlxalq təşkilatlarla faydalı əməkdaşlıq

Xarici siyasətin regional aspekti indi ən mühüm istiqamətlərdən biri kimi qəbul edilir. Bunun bir səbəbi müasir geosiyasi proseslərdə regionalizmin əhəmiyyətinin artmasıdırsa, digər səbəb eyni regionda yerləşən dövlətlərin daha geniş münasibətlər qurmalı olmasının aktuallaşmasıdır. Azərbaycan müstəqil dövlət kimi regional siyasətində ikitərəfli və çoxtərəfli əməkdaşlıq platformasına üstünlük verir, eyni zamanda, bir sıra regional təşkilatlanma modellərinin təşəbbüskarıdır. Bu sırada nümunə kimi "3+3" formatını göstərmək olar. Ekspertlər bu platformanın perspektivinə inanırlar.

Bundan başqa, rəsmi Bakı "Qafqaz evi" ideyasını irəli sürüb. Prezident İlham Əliyev Cənubi Qafqazda əməkdaşlıq və təhlükəsizliyə çox ciddi diqqət yetirir.

Azərbaycan regional təşkilatlardakı fəaliyyətini böyük uğurla beynəlxalq təşkilatlarda həyata keçirdiyi siyasətlə uyğunlaşdırır. Həmin kontekstdə bir regional və iki beynəlxalq təşkilatda Azərbaycanın əldə etdiyi nailiyyətlərə nəzər salmaq olar.

### TDT-nin gücləndirilməsi

Hazırda Azərbaycan. sözün həqiqi mənasında, Türk Dövlətləri Təşkilatının (TDT) inkişafında stimulverici güc rolunu oynayır. Türk dünyasının real zəmində inteqrasiya olunması istiqamətində irəli sürülən təşəbbüslərin əksəriyyətinin müəllifi Azərbaycan Prezidentidir. Eyni zamanda, bu, siyasi-diplomatik fəallıqda da özünü göstərir. Onun nəticəsi kimi, TDT-də müxtəlif sferaları əhatə edən konkret layihələr həyata keçirilir. Nümunə üçün enerji, nəqliyyat-logistika, gömrük, informasiya-kommunikasiya və s. sahələri göstərə bilərik.

Son illər isə Azərbaycan Türk dünyasının mədəniyyət, elm, təhsil kimi sferalarda əməkdaşlığının yeni səviyyəyə yüksəldilməsində xüsusi rol oynayır. Bu proses artan sürətlə davam etdirilir.

Azərbaycan Prezidenti Türk dövlətlərini əhatə edən yeni enerji və Orta dəhliz kimi qlobal əhəmiyyətli layihələrin reallaşmasında ciddi rol oynayır.

Bütün bunların fonunda Azərbaycanın TDT-də təhlükəsizlik və ortaq müdafiə sisteminin yaradılması ilə bağlı apardığı siyasət böyük rəğbət qazanıb. Həmin çərçivədə Azərbaycan–Türkiyə və Azərbaycan–Özbəkistan–Qazaxıstan strateji tərəfdaşlıq sazişinin imzalanması əhəmiyyətlidir.

Nəhayət, TDT kontekstində Azərbaycan üçün Şuşa və Qarabağ bəyannamələrinin imzalanması xüsusi əhəmiyyət daşıyır. Çünki bu iki sənəd Azərbaycanın türk dövlətləri ilə münasibətlərini müasir dövrdə hüquqi olaraq rəsmiləşdirir. Bu baxımdan Şuşa Bəyannaməsi iki türk dövlətinin strateji müttəfiqliyinə hüquqi və siyasi məzmun verirsə, Qarabağ Bəyannaməsi bütün müstəqil türk dövlətlərinin əlaqələrini tənzimləyir.

Hər iki strateji sənədin Azərbaycanda imzalanması isə böyük rəmzi məna daşıyır. Bu nailiyyətin təməlində Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsində uğurlu hərbi, diplomatik və informasiya mübarizəsi aparması dayanır. 44 gün müddətində bütün dünya bu prosesi heyranlıqla izlədi.

Bir çoxları nə baş verdiyini tam anlaya bilmədi. Lakin gerçəklikdə Azərbaycanın müzəffər Ali Baş Komandanının verdiyi çox düzgün, çevik və nəticəverici hərbi qərarları, dünyanın bir sıra güclü, ancaq qərəzli dairələrinə ünvanladığı incə diplomatik mesajları və sözün həqiqi mənasında, təkbaşına apardığı uğurlu informasiya müharibəsi sonda dumanlı başları ayıltdı.

Bununla yanaşı, Mərkəzi Asiyadakı türk dövlətləri cəsarətləndi, Azərbaycanı bir uğur nümunəsi kimi qəbul etdi. Qarabağ Bəyannaməsinin məzmununa həm də bu prizmadan baxmaq lazımdır. Həmin sənəd, faktiki olaraq, türk dövlətlərinin inteqrasiyasına Azərbaycanın verdiyi töhfələrin yerini və rolunu yaxşı ifadə edir!

### BMT Təhlükəsizlik Şurasına sədrlik

Bu, Prezident İlham Əliyevin nüfuzlu beynəlxalq təşkilatda əldə etdiyi ən böyük diplomatik və siyasi qələbələrdən biridir. Çünki bir sıra böyük güclər birmənalı olaraq ermənipərəst mövqe tuturlar və bu ədalətsizlik indi də davam edir. Azərbaycan lideri buna görə iki vəzifəni paralel şəkildə yerinə yetirməli idi.

Onlardan biri Azərbaycanın hüquqi, demokratik və müstəqil dövlət kimi haqlı olduğunu sübuta yetirməklə bağlıdır. Prezident İlham Əliyev 2003-cü ildən başlayaraq daha intensiv və əhatəli formada bunu dünyada təşviq etdi. Artıq 2012-ci ildə BMT-nin əksər üzvləri Azərbaycanın haqlı olduğuna əmin idilər.

İkinci vəzifə bu əminliyi BMT-nin rəsmi sənədlərində təsbit etməklə əlaqəli idi. Məhz buna görə də həmin dövrdə Azərbaycanın BMT TŞ-nin müvəqqəti üzvlüyünə səsvermə (təşkilata üzv olan 155 ölkə Azərbaycanı dəstəklədi) yolu ilə seçilməsi və orada çox ədalətli və səmərəli fəaliyyət göstərməsi Azərbaycan diplomatiyası və liderlik ənənəsində xüsusi hadisədir. KİV-də bu məqam kifayət qədər araşdırılıb.

### Qoşulmama Hərəkatında tarixi uğurlar

Azərbaycan 2011-ci ildən üzvü olduğu Qoşulmama Hərəkatının fəaliyyətinə yeni dinamika, əhatə və məzmun gətirib. Bu, özünü xüsusilə 2019–2023-cü illərdə QH-yə Azərbaycanın sədrliyi müddətində göstərib. Prezident İlham Əliyev ədalətli, obyektiv, səmərəli, humanist və birləşdirici təşəbbüsləri ilə bütün dünyada ölkəmizin nüfuzunu daha da yüksəldib. QH-dəki fəaliyyət, şübhəsiz, Azərbaycan liderinin çox böyük uğurlarından biridir. Bu təşkilatda Azərbaycan, praktiki olaraq, regional miqyası aşaraq, qlobal miqyasda haqsızlığa və antihumanizmə qarşı çıxır. Bunun nəticəsidir ki, indi dünyanın bir sıra müstəmləkə dövlətləri neokolonializmə qarşı ciddi mübarizəyə başlamışlar. Bütövlükdə dünyada ksenofobiyaya və ədalətsiz siyasətə qarşı da hərəkat güclənir.

Bunlardan başqa, Azərbaycan Prezidenti QH çərçivəsində qlobal siyasətdə yeni liderliyin nümunəsini nümayiş etdirir. Bunlar bütövlükdə həm Azərbaycanın dövlət kimi, həm də onun rəhbəri İlham Əliyevin lider olaraq obyektiv obrazının təsdiqində ciddi rol oynayır.

### COP29-a sədrlik

Bu hadisə Azərbaycanın milli və regional səviyyədən qlobal miqyasa çox uğurlu geosiyasi, siyasi, diplomatik və informasiya transformasiyasının bariz nümunəsidir. COP29-un Bakıda təşkili asan məsələ deyildi. Çünki Azərbaycan, faktiki olaraq, total xarakter alan və güclü mənbələrdən qaynaqlanan informasiya təxribatlarını neytrallaşdırmalı, eyni zamanda, bir təşkilatçı dövlət kimi mükəmməl davranmalı idi. Nəhayət, ən əhəmiyyətlisi, Bakıdakı müzakirələrin konkret nəticəsi olmalı idi.

Bu üç məqamın vəhdətdə yerinə yetirilməsi geosiyasi aspektdə həm də ona görə vacib idi ki, Azərbaycan 2003-cü ildən bu yana davamlı olaraq müstəqil siyasəti ilə uğurlar qazandığını dünyaya göstərmişdi. Dövlətimizin artıq uğurlu siyasət yürütdüyü inkar edilə bilməzdi. Buna görə də bədxahlar bu imicin qlobal miqyasda özünü tam təsdiq edə bilməsinin xofunu yaşayırdılar.

Buna qarşı isə Ermənistandan alət kimi istifadə etməklə müxtəlif iftiralar və şantajlar ortaya atıldı. Onların Azərbaycandakı “qulbeçələri” indi ədalət məhkəməsi qarşısında cavab verirlər. Əsası isə odur ki, ABŞ və Fransa başda olmaqla, bu ədalətsiz planları quranlar güclü Azərbaycan dövləti və onun ədalətli lideri ilə qarşı-qarşıya gəldiklərinə tam əmin oldular! Bu, onlar üçün pis xəbər ola bilər, lakin müasir Azərbaycan müstəqil dövlətinin bütün dünyaya töhfə verə bilmək potensialının çox yüksək olduğunun təsbiti kimi, bizim qürur mənbəyimizdir!

Azərbaycan BMT-nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını həm yüksək səviyyədə təşkil etdi, həm də yekunda müsbət razılıqlara gəlindi. Onların sırasında üzv dövlətlərin iqlim məsələsinə vəsaitləri tələb olunan səviyyəyə yüksəltməklə bağlı ortaq mövqeyə gəlməsini ekspertlər Azərbaycan diplomatiyasının ciddi uğuru kimi ayrıca vurğulayırlar. BMT və dünyanın ədalətli siyasi liderləri Prezident İlham Əliyevin bu uğurunu birmənalı vurğulayır və dövlətimizin başçısına, xalqımıza daha böyük uğurlar arzulayırlar! Təbii ki, bu cür yüksək qiymət tarixi olaydır! Lakin bu da son deyildir və Azərbaycan xalqı artıq başqa bir böyük uğurun qürur hissini yaşamaqdadır.

### D-8-ə üzvlük

D-8 üç qitəni əhatə edir. ÜDM-i 4 trilyon ABŞ dollarından artıqdır. Ticarət dövriyyəsi 130 milyard dollar həcmindədir. Demoqrafik göstəricisi yüksəkdir. Təşkilata üzv olan ölkələrin əhalisinin sayı dünya müsəlmanlarının 60 faizini təşkil edir – 1,2 milyarddan artıq insanı əhatə edir. D-8-in böyük iqtisadi potensialı vardır. "İslam səkkizliyi" kimi xüsusi məna daşıyır. Çünki sürətlə inkişaf edən müsəlman dövlətlərini birləşdirir və perspektivdə onun qlobal güc mərkəzlərindən biri olmaq ehtimalı yüksəkdir. Azərbaycanın bu təşkilata üzvlüyü birbaşa Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin məntiqi nəticələrindən biridir. Təsadüfi deyildir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın üzvlüyü ilə bağlı “qardaş Azərbaycan təşkilatı gücləndirəcək”, – deyib.

Prezident İlham Əliyevin D-8-ə üzv olan dövlətlərin başçılarına ünvanladığı məktubların məzmunu bir daha göstərir ki, Azərbaycan müstəqil, düşünülmüş, siyasi varisliyə əsaslanan təmkinli siyasəti ilə böyük təşkilatlarda layiqli yerini tutmaqda davam edəcəkdir.

D-8-ə üzvlük Azərbaycanı həm Cənubi Qafqazda bənzərsiz uğur əldə edən dövlət kimi bir daha təsdiq edir, həm də TDT, MDB, İƏT, QDİƏT kimi təşkilatlarda ciddi statusunu daha da gücləndirir. Onların sırasında xüsusilə Azərbaycanın TDT və MDB daxilində fəaliyyətini yeni səviyyəyə yüksəltməsi üçün əlavə imkanlar yaradır.

Yalnız onu vurğulayaq ki, MDB-də Azərbaycandan başqa D-8 üzvü olan dövlət yoxdur, TDT-də isə Türkiyə ilə yanaşı, ancaq Azərbaycan vardır! Bu fakt onu göstərir ki, türk dünyasında Azərbaycan xüsusi yer tutur. Təşkilatın gələcəyi bir çox mənada onun fəaliyyətindən asılıdır.

Beləliklə, Azərbaycanın xarici siyasətinin son 21 ildə əldə etdiyi bir sıra nailiyyətlərin ümumi ifadəsi də göstərir ki, Prezident İlham Əliyev dövlət başçısı və siyasi lider kimi dövlətimizi uğurlardan uğurlara aparır. Bu prosesin davam edəcəyinə xalqın böyük əminliyi vardır! Azərbaycan öz rəhbəri və liderinə dərindən inanır və etibar edir!

***Kamal ADIGÖZƏLOV***

# Qürbətdəki xalçalarımızla Vətəndə görüş

## *BP Azərbaycanın tarixi irsini himayə edir*

**Milli Xalça Muzeyində XVII–XVIII əsrlərə aid nadir Azərbaycan xalçalarından ibarət sərgi öz işinə başlayıb. BP şirkətinin sponsorluq etdiyi "Azərbaycan xalçasının ehtişamı – Səfəvi dövrü xəzinəsi" adlı sərgidə nümayiş olunan nadir sənət incilərinin hamısı Azərbaycan tarixinin Səfəvilər sülaləsinin hakimiyyəti dövrünə aiddir.**



Sərginin açılış mərasimində bildirilib ki, Əmir Oskoueinin şəxsi kolleksiyasının bir hissəsi olan bu əsərlər ABŞ-dən Azərbaycan Milli Xalça Muzeyində sərgilənmək üçün xüsusi olaraq gətirilib. Nümayiş olunan sənət nümunələrinin əksəriyyəti Azərbaycan xalçalarının dünyaca məşhur növləri, o cümlədən Qarabağ və Quba xalçaçılıq məktəbi ustaları tərəfindən Səfəvi şahlarının saraylarını bəzəmək üçün hazırlanmış "Əfşan", "Qoca", "Xətai" ("Əjdahalı") kompozisiyalı saray xalılarıdır.

Sərginin açılışında çıxış edən BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli bu nadir Azərbaycan incəsənət xəzinələrini onların doğma vətənində ictimaiyyətə təqdim etməkdən böyük şərəf duyduqlarını bildirib: "İnanırıq ki, sərgidə nümayiş olunan əsərlər Azərbaycan incəsənətinin XVII–XVIII əsrlərdəki zənginliyini göstərməklə yanaşı, həm də Azərbaycan hökmdarlarının və əsilzadələrin nəfis yaşam tərzini, yüksək sənət zövqünü və nəcib mədəniyyətini əks etdirir. Bu əsərlər Azərbaycan tarixinin bir hissəsidir və ümid edirik ki, sərgi həm sənətsevərlərdə, həm də tarixçilərdə böyük maraq doğuracaq."

Xatırladaq ki, BP-nin Azərbaycanın zəngin mədəni irsinin təbliği və tədqiqinə verdiyi davamlı dəstəyin bir hissəsi olan bu layihənin ümumi dəyəri, təqribən, 41 min 400 manat təşkil edir. Xərclərin əsas hissəsini sənət incilərinin ABŞ-dən Azərbaycana və geri daşınması, sərginin təşkili və kataloqun hazırlanması və nəşri təşkil edir.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Xalça Muzeyi və "Amir Textiles&Rugs" MMC-nin birgə təşkilatçılığı, ABŞ – Azərbaycan Ticarət Palatası və "Silk Way West Airlines" aviaşirkətinin dəstəyi ilə təşkil olunan sərgi 2025-ci il mayın 10-dək ictimaiyyət üçün açıq olacaq.

Yeri gəlmişkən, ölkəmizdə neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısı olan BP şirkəti bu layihələrin icrasını təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirməklə yanaşı, sosial, humanitar, təhsil, səhiyyə, idman, mədəniyyət və digər sahələrdə də bir sıra maraqlı təşəbbüslərlə çıxış edir, müxtəlif proqramlar həyata keçirir. Şirkət ölkəmizdə fəaliyyət göstərdiyi ötən 32 il müddətində öz tərəfdaşları ilə birlikdə ölkədə icraçısı olduğu layihələrə, təxminən, 85 milyard dollar sərmayə qoyub.

Azərbaycanda ən çox töhfə verə biləcəyinə inandığı sahələrə vəsait xərcləməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyi götürən BP-nin ölkədə həyata keçirdiyi geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səyləri insanlara əhəmiyyətli faydalar gətirib. Şirkətin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib. Fəaliyyətə başladığı vaxtdan indiyədək BP özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından Azərbaycandakı sosial sərmayə layihələrinə ümumilikdə, təqribən, 111 milyon ABŞ dollarından çox vəsait xərcləyib.

# Naxçıvanın enerji potensialı yüksəldilir

## *Yeni istilik elektrik stansiyası mövcud gücü balanslaşdıracaq*

**"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü siyasət nəticəsində Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi inkişafının yeni mərhələsini yaşayır. Həyata keçirilən tədbirlər onu göstərir ki, qədim diyarın hərtərəfli inkişafı dövlət başçısının diqqət mərkəzindədir".**



Bu sözləri "XQ"-yə açıqlamasında Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti rəisinin müavini Tural Murtuzəliyev bildirib. Onun sözlərinə görə, Azərbaycan Prezidentinin bu yaxınlarda Naxçıvan Sənaye Parkının yaradılması haqqında imzaladığı fərmanı və dekabrın 23-də Naxçıvan Muxtar Respublikasında yeni istilik elektrik stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncamı muxtar respublikanın gələcək inkişafı baxımdan mühüm addımlardır.

Dövlət Energetika Xidməti rəisinin müavini yaradılacaq yeni istilik elektrik stansiyası haqqında deyib: "Bu, muxtar respublikada icra olunacaq ən irihəcmli layihədir. İstilik Elektrik Stansiyasının iki əsas faydası olacaq. Birincisi, muxtar respublikanın enerji dayanıqlığı tam təmin olunacaq. İkincisi, stansiya bölgədə alternativ və bərpaolunan enerji potensialının istifadə olunması üçün balans rolunu oynayacaq".

T.Murtuzəliyev daha sonra qeyd edib ki, dövlət başçısının "Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" Fərmanı da muxtar respublikada enerji təhlükəsizliyinin gücləndirilməsi, su təchizatının dayanıqlığının artırılması, eyni zamanda, infrastrukturun modernləşdirilməsinə ciddi töhfələr verəcək. Bu, həm də bölgənin ölkənin əsas enerji sisteminə qoşulmasında və ixracın təmin edilməsində ən əhəmiyyətli addımlarından biri olacaq.

*Səbuhi HƏSƏNOV*

**Naxçıvan**

# "ACWA Power" ilin fəal xarici şirkəti oldu

## *Qurum "yaşıl" quruculuq aparır, dəniz suyunu şirinləşdirir*

**Enerji keçidi sahəsində lider və dəniz suyunun duzsuzlaşdırılması üzrə dünyanın ən böyük özəl şirkəti olan "ACWA Power" Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin birgə təşkil etdiyi "Dayaq" mükafatı tədbirində 2024-cü ilin "Fəal xarici şirkəti" adına layiq görülüb.**

Mükafatı qəbul edən Səudiyyə Ərəbistanı şirkətinin Azərbaycan və Türkiyə üzrə direktoru Selim Güven bildirib: "Azərbaycan 2030-cu ilə qədər bərpaolunan enerji potensialını 30 faizə çatdırmaq və istixana qazı emissiyalarını 35 faiz azaltmaqla öz iqtisadiyyatını dekarbonizasiya etmək üçün ilhamverici hədəflər müəyyənləşdirib. Strateji mövqeyi və geniş "yaşıl" enerji potensialı ilə Azərbaycan regionda və onun hüdudlarından kənarda "yaşıl" enerjinin inkişafı və təmin olunmasında əsas oyunçulardan birinə çevrilməyə hazırdır". Təmsil etdiyi şirkətin Azərbaycanın bu strategiyasını dəstəklədiyini vurğulayan Səlim Güvən ölkədə "yaşıl" enerji və suyun duzsuzlaşdırılması layihələrinə sərmayə yatırmağa böyük maraq göstərdiyini bildirib.




Xatırladaq ki, bu ilin sentyabr ayında "ACWA Power" Azərbaycan və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında "yaşıl" sahibkarlığın təşviqi və ölkədə mikro, kiçik və orta müəssisələr üçün iqlim dəyişikliyi məsələlərinin həlli üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdı. Bundan əlavə, "ACWA Power" ölkəmizdə keçirilmiş mühüm iqlim tədbiri olan COP29-un enerji və su tərəfdaşı seçilmişdi.

"ACWA Power" şirkəti Azərbaycanda həyata keçirilən bərpaolunan enerji layihələrinin də fəal iştirakçısıdır. Şirkət hazırda 240 meqavatlıq "Xızı–Abşeron" Külək Elektrik Stansiyasının inşasını həyata keçirir. Ötən müddətdə layihənin reallaşdırılmasına 300 milyon ABŞ dolları ayrılıb. Bu isə Səudiyyə Ərəbistanı şirkətinin öz ölkəsindən kənarda yatırdığı ən böyük investisiyasıdır.

"Xızı–Abşeron" Külək Elektrik Stansiyasının təməli 2022-ci il yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun iştirakı ilə qoyulub. İlkin hesablamalara görə, stansiyada ildə 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Bu isə il ərzində 220 milyon kubmetr təbii qaza qənaət etməyə, 400 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa imkan verəcək.

Ölkəmizdə xarici sərmayə cəlb edilməklə həyata keçirilən "Xızı–Abşeron" Külək Elektrik Stansiyası layihəsi sənaye həcmli bərpaolunan ilk enerji layihələrindəndir. Eyni zamanda, stansiya Azərbaycanın ilk, Qafqaz bölgəsinin isə ən böyük külək enerjisi istehsal edən qurğusu olacaq. Stansiyada hər birinin gücü 6,5 meqavat olan 37 ədəd külək turbini fəaliyyət göstərəcək. 25 il müddətinə "tikinti-sahiblik-istismar" (BOO - Build – Own – Operate) prinsipi ilə fəaliyyət göstərəcək stansiya "ACWA Power" şirkəti tərəfindən idarə ediləcək. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və enerji sisteminin modernləşdirilməsi məqsədlərini dəstəkləyən bu layihə, həm də qeyri-neft sektoruna xarici sərmayələrin artırılmasına töhfə verəcək.

Yeri gəlmişkən, 2004-cü ildə Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində yaradılmış "ACWA Power" şirkəti Yaxın Şərq, Afrika, Mərkəzi Asiya və Cənub-Şərqi Asiya da daxil olmaqla 13 ölkədə fəaliyyət göstərir. Lokalizasiyaya xüsusi diqqət yetirən şirkət 4 mindən çox işçi heyəti ilə təmsil olunur. Onların isə 60 faizi fəaliyyət göstərdiyi ölkələrin yerli əhalisidir. Şirkətin portfeli istismarda olan, inkişaf etdirilən və tikilməkdə olan 90 layihədən ibarətdir və ümumi sərmayə dəyəri 94,3 milyard ABŞ dolları təşkil edir. "ACWA Power" şirkəti hazırda, ümumilikdə, 65,6 qiqavat enerji istehsalı gücünə malik layihələr həyata keçirir və gündəlik 8 milyon kubmetr duzsuzlaşdırılmış su istehsal edir.

# Ölkəyə 3 milyard manat yatırım daxil olub

**Dünən Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun təşkilatçılığı ilə media nümayəndələri arasında ölkəmizdə həyata keçirilən yaşayış maliyyəsi və sahibkarlığa dəstək alətləri barədə məlumatlılıq səviyyəsinin artırılması məqsədilə təlim keçirilib.**

Fondun İdarə Heyəti sədrinin müşaviri İlham Kələşov bildirib ki, 2017-ci ildə fəaliyyətə başlayan İpoteka və Kredit Zəmanəti Fondu tərəfindən kapital bazarlarına, təqribən, 3 milyard manata yaxın vəsait daxil olub. İpoteka və Kredit Zəmanət Fondunun ölkənin kapital bazarlarının inkişafına əvəzsiz töhfə verdiyini vurğulayan İ. Kələşov ötən illər ərzində fond tərəfindən kapital bazarlarına, təqribən, 3 milyard manata yaxın vəsait daxil olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, fondun hazırkı dövrə olan istiqrazlarının həcmi 2 milyard manatdan artıqdır.



Fondun əsas nizamnamə kapitalının dövlət büdcəsindən formalaşdığını bildirən müşavir daha sonra deyib: "Artıq bizim nizamnamə kapitalımız 1,78 milyard manata yaxındır. Fond yüksək kapitallaşma səviyyəsinə malikdir. Kapitalın aktivlərə nisbəti 33,4 faiz təşkil edir". İpoteka və Kredit Zəmanəti Fondunun İpoteka kreditləri departamentinin direktoru Rasim Abdullayev isə bildirib ki, 2018-ci ildən indiyədək zəmanətlə təmin olunmuş ipoteka kreditlərinin həcmi 98,8 milyon manat həcmindədir. Güzəştli ipoteka kreditləri verilmiş ümumi kreditlərin 32 faizini təşkil edib. "Verilmiş kreditlərin ümumi həcmində gənclərə, gənc ailələrə verilmiş kreditlərin göstəricisi 70 faizə yaxındır. Hazırda regionlarda verilmiş kreditlər isə 18 faiz həcmindədir", – deyə o əlavə edib.

Bildirilib ki, fondun ipoteka kreditləri üzrə əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması, əlçatanlılığının artırılması məqsədilə 2018-ci ildən tətbiq olunan zəmanət mexanizmi nəticəsində artıq 11 region üzrə 1134 vətəndaş zəmanətli ipoteka kreditlərindən faydalanıb. Eyni zamanda, həm ipoteka kreditləşməsi, həm də satmaq öhdəliyi ilə kirayə mexanizmi vasitəsilə, ümumilikdə, 60 minə yaxın ailə özünün mənzil şəraitini yaxşılaşdırıb ki, onların da 70 faizindən çoxunu gənclər təşkil edir.

Təlim zamanı media nümayəndələrinə İpoteka və Kredit Zəmanət Fondunun həyata keçirdiyi sahibkarlığa dəstək alətləri təqdim edilib. Tədbir çərçivəsində keçirilən "Yaşayış maliyyəsi və sahibkarlığa dəstək alətləri" adlı seminarda fondun Kredit zəmanət departamentinin direktoru Elşən Kərimov deyib ki, indiyə qədər İpoteka və Kredit Zəmanət Fondunun zəmanəti ilə Azərbaycan sahibkarlarına güzəştli şərtlərlə 540 milyon manatdan çox kredit verilib. Bunun da 282,2 milyon manatlıq hissəsinə dövlət zəmanəti verilib.

Kreditlərin tikinti və emal sənayesi də daxil olmaqla müxtəlif sahələrə ayrıldığını vurğulayan fond rəsmisinin sözlərinə görə, onların da hesabına 7 minə yaxın yeni iş yerinin açılması nəzərdə tutulub. Diqqətə çatdırılıb ki, 2022-2024-cü illərdə İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə 17 min 750-dən çox həyat və 40 min 661 əmlak sığortası müqaviləsi imzalanıb. Bundan əlavə, son 3 ildə fondun vəsaiti hesabına verilmiş ipoteka kreditləri üzrə, ümumilikdə, 16,4 min əmlak qiymətləndirilib.

İştirakçılara ölkədə həyata keçirilən ipoteka kreditləşməsi və satmaq öhdəliyi ilə kirayə mexanizmi barədə ətraflı məlumat verilib, jurnalistləri maraqlandıran suallar cavablandırılıb. Təlimin sonunda media nümayəndələrinə sertifikatlar təqdim edilib.

# COP29 ölkəmizin iqtisadi inkişafına təkan verib

**Bakıda keçirilmiş 29-cu BMT İqlim Dəyişikliyi Konfransı (COP29) Azərbaycanın iqtisadi inkişafını daha da sürətləndirib. "Mastercard Advisors" biznes konsultasiya xidmətinin hazırladığı və "Mastercard"ın satış nöqtələri üzrə xərc məlumatlarına əsaslanan bu hesabatda COP29-un Azərbaycan iqtisadiyyatına təsiri ilə bağlı əsas göstəricilərin bu qlobal tədbir sayəsində əldə edilmiş böyük iqtisadi irəliləyişi nümayiş etdirdiyi göstərir.**




Sənəddə bildirilir ki, COP29 zamanı respublikamıza turist axını 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 148 faiz artıb. Bu rəqəm iqlim konfransının qlobal səviyyədə marağa səbəb olduğunu göstərib. Maliyyə əməliyyatlarında da oxşar tendensiya müşahidə edilib. Belə ki, əməliyyatların ümumi dəyəri 236 faiz, sayı isə 178 faiz artıb. Paytaxt Bakıdan kənar bölgələrdə isə tranzaksiyaların həcmi 128 faiz yüksəlib.

Qonaqlama və iaşə sektoru COP29 dövründə yüksəliş əldə edən sahələr kimi fərqlənib. Mehmanxana və qidalanma üzrə xərcləmələr 400 faizdən çox artaraq əsas sənayelərə iqtisadi səmərə gətirib. Böyük məbləğli əməliyyatlarda da artım qeydə alınıb: 10 və 25 dollar dəyərindəki ödənişlər 200 faizdən çox yüksəlib.

COP29 tədbiri Azərbaycanın qlobal səviyyədə turistik cəlbediciliyini də artırıb. Braziliya, Almaniya, ABŞ və Böyük Britaniya kimi əsas bazarlardan gələn ziyarətçilərin xərcləmələrində kəskin artım müşahidə olunub. Xüsusilə COP30-un ev sahibi Braziliyadan gələn ziyarətçi qrupu mehmanxana xərcləmələrində 7 milyon faiz artım göstərərək rekorda imza atıb.

Bu nəticələr COP29-un dayanıqlı inkişaf üçün gücləndirici rolunu və Azərbaycanın qlobal miqyasda artan nüfuzunu bir daha təsdiqləyir. Əldə edilmiş nailiyyətlər uzunmüddətli iqtisadi və ekoloji faydalara yol açaraq qlobal əməkdaşlığın gücünü bir daha yenidən nümayiş etdirir.

Qeyd edək ki, "Mastercard" dünyanın 200-dən çox ölkəsində iqtisadiyyatları dəstəkləyir. Eyni zamanda, geniş rəqəmsal ödəniş həllərini təşviq edərək əməliyyatların təhlükəsizliyini və əlçatanlığını gerçəkləşdirir. Texnologiya və innovasiyaları, tərəfdaşlıqları və şəbəkələri insanlar, bizneslər və hökumətlər üçün əlçatan edir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

**Xalq Qəzeti TV-nin “Ulduz” jurnalı ilə birgə layihəsi**

# “Mən həmişə vəzifənin məsuliyyətini səlahiyyətlərindən uca tutmuşam”

**Xalq Qəzeti TV-də “Ayrı söhbət” proqramının qonağı görkəmli yazıçı-dramaturq, ictmai xadim Hidayət Orucovdur**

**– Salam əziz dostlar, efirdə Xalq Qəzeti TV, studiyada Qulu Ağsəsdir. “Ayrı söhbət” proqramı “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşovla birgə səyimiz nəticəsində ərsəyə gəlir. Bizim verilişimiz – qəzet və jurnalın layihəsi Xalq Qəzeti TV-də yayımlanacaq, “Xalq qəzeti”ndə və “Ulduz” jurnalında isə söhbətin mətni çap olunacaq. İlk qonağımız şair, yazıçı, dramaturq, publisist, ictimai xadim, hamımızın sevimlisi, təqdimata ehtiyacı olmayan Hidayət Orucovdur.**

***– Hidayət müəllim, xoş gəlmisiniz! Biz Əflatun müəllimlə bu layihə haqqında danışanda təxmini siyahını nəzərdən keçirdik. İlk nömrədə sizi seçdik, ona görə ki, Hidayət Orucov ələ düşməyən adamdır. O efirləri sevmir və biz onu, adətən, kamera qarşısında görmürük. Baxmayaraq ki, 1968-ci ildə 24 yaşında cavan bir oğlan böyük bir teatrın rəhbəri olub və o vaxtdan da məsul vəzifələrdə işləyib. Bugünə qədər də heç bir qalmaqalda, o cümlədən, məmura xas olan korrupsiyada, kimisə haqsız işdən çıxarmada və s. adı hallanmayıb. Bu təmizliyi, paklığı vəzifə adamı olaraq necə qorumusunuz? Şair, yazıçı, publisist, tərcüməçi kimi qorumağınız bəllidir. Bəs məmur olaraq necə oldu ki, siz bütün bu intriqalardan uzaq qaldınız?***

– Təşəkkür edirəm mənim fəaliyyətimlə bağlı yüksək fikirləriniz üçün. Mən bu suala qısa cavab vermək istəyirəm. Birincisi, bu bizim ailəmizdən gələn ənənədir, həm də mən Qərbi Azərbaycanda doğulmuşam, orda böyümüşəm, bizim ailəmiz orada yaşayıb. Mənim babam, nənəm, anam hələ 1918-ci ildə qaçqın düşüblər. Qonşu rayona – Zəngilana pənah aparıblar. Ermənistan sovetləşəndən sonra qayıtmaq imkanları olub və yenidən Zəngəzura – bizim doğma kəndimiz Maralzəmiyə qayıdıblar. Anam o vaxt 13 yaşındaymış. Sonralar uşaqlığındakı yaddaşından silinməyən acı xatirələri bizə danışardı. Bir sözünü heç unutmuram.

“Sovet hökumətinin bayrağı bir az aşağı düşən kimi erməninin yumruğu yenə bizim başımızdadır”. 1988-ci ildə məhz belə oldu. Qorbaçovsayağı “yenidənqurma” (o vaxtların özündə də mən mətbuatda onu “yenidənqırma” adlandırmışam) dövlətin sütunlarını sarsıtdı, mənəviyyatsızlıq baş alıb getdi.Anam ikinci dəfə, bu dəfə ömrünün ağbirçək çağında didərgin düşdü. Çox təəssüf ki, anam 44 günlük mücadilənin “dəmir yumruğ”unu görmədi. Əlbəttə, erməni təqibləri də mənim formalaşmağımda, həyatımda ciddi rol oynayıb.

İkincisi, dediyiniz kimi mən çox gənc yaşlarımda yüksək vəzifəyə təyin olunmuşam. Hələ 20 yaşında məktəb müdiri idim. O vaxt ailə vəziyyəti ilə bağlı Bakı Dövlət Universitetində qiyabi şöbəyə dəyişildim. 6 illik qiyabi təhsili 5 ilə bitirdim. Birinci kursu bitirdikdən sonra ikinci kursun imtahanlarını “ekstern” yolu ilə verdim. Üçüncü kursa əmrim verildi. O vaxtlar Azərbaycan Dövlət Universitetində əyani şöbə 5 il, qiyabi şöbə 6 il idi.

Sonra rayona getdim və məktəb müdiri oldum. 20 yaşında “Sovet Ermənistanı” qəzetinin ədəbi işçisi, 24 yaşım tamam olmamış isə Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram teatrının direktoru təyin edildim. Məni sevməyənlər deyirdilər ki, onun pioner baş dəstə rəhbəri olmaq vaxtıdır, amma o böyük kollektivə, qədim teatra direktor təyin olundu. Görəsən, neçə həftə orada davam gətirə biləcək?

Amma o vaxt teatrda çox fədakar kollektiv yarada bildik. İncəsənət Universitetinin (o zaman institut adlanırdı) bir qrupu oraya göndərilmişdi. Ermənilər 1965-ci ildə –uydurma genosidin 50 illiyindən sonra daha da fəallaşmışdılar. Qərbi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı açıq mübarizə aparırdılar. Qardaş Türkiyəyə qarşı ağlasığmaz ittihamlar irəli sürürdülər. Amma Azərbaycan teatrının tarixinə çox böyük səhifələr yazıldı.





Sizin sualınıza konkret cavab olaraq deyim ki, bu, bizim ailənin əxlaqı, cəmiyyətə münasibətindən irəli gəlir. İkinci isə – mən o vaxtdan indiyədək həmişə vəzifənin məsuliyyəti barədə düşünmüşəm, səlahiyyətləri barədə yox. Tutaq ki, mən dövlət teatrının direktoruyam, mənim məsuliyyətim nədir, hansı işləri görməliyəm? Nəşriyyatın baş redaktoruyam, ictimaiyyət, cəmiyyət məndən nə gözləyir? Yaxud, siyasi və ya diplomatik fəaliyyətdəyəm, yenə də həmin vəzifələrin məsuliyyəti haqqında düşünürəm. Bugün belə mən hər bir addımımda öz məsuliyyətim barədə düşünürəm.

***– Hidayət müəllim, bu görüş öncəsi sizin kitabınız haqqında yazdığım “Burdan min atlı keçdi” adlı essemi də oxudum. Maraqlı məlumatlarla yanaşı, fotoşəkillər də diqqətimi cəlb etdi. Mənə elə gəlir ki, siz indi cavanlaşırsınız. Həmişə ağsaqqal, müdrik olmusunuz. Bu, həddən artıq məsuliyyəti üzərinizə götürdüyünüz üçün, həmişə kostyumda, qalstukda, ciddi görünüşdə olduğunuz üçünmü bizə elə gəlib. Sanki, Hidayətin çoxdan 80 yaşı olub.***

– Müxtəlif rəylər, fikirlər, yanaşmalar ola bilər. Dediyim kimi, mən keçdiyim yolların, daşıdığım vəzifələrin məsuliyyətini həmişə səlahiyyətlərimdən çox uca tutmuşam, yəni bununla bağlıdır. Həyatımda, yaşadığım illərdə yalnız Allahın hüzurunda və vicdanım qarşısında hesabat vermişəm.

***– Hidayət müəllim, 80 yaş və 41 kitab. Bu, çox böyük məsuliyyətdir. Dövlət vəzifəsində işləyib, öz şaxəli yaradıcılığınız, tərcümələrinizlə 2 ildən bir kitab çıxarmaq uzun gecələrin hesabına baş tutub?***

– 41 kitab köhnə məlumatdır. Əslində indi ondan çoxdur. Bəli, zəhmətkeşlik mənim ailəmin, doğulduğum, böyüdüyüm bölgənin – Zəngəzurun ənənəsidir. Əgər mənim fəaliyyətimdə müsbət tərəflər varsa, ailəmizə və Zəngəzurda gəncliyimdə gördüyüm köhnə kişilərə minnətdaram. Ancaq mən özümdən çox narazıyam. Məsələn, daha çox əsər, şeir, nəsr, publisist yazılar, esselər, pyeslər yaza bilərdim. Mən tutduğum vəzifələrdəki fəaliyyətimi şəxsi yaradıcılığıma görə məhdudlaşdırmamışam. Əksinə, bədii yaradıcılığımı tutduğum vəzifələrin qanunlarına görə müəyyən etmişəm.

***– Hidayət müəllim, sizin ikon olmağınızın bir özəlliyi var. Siz 1967-ci ildə nəşr olunan və hazırda mənim çalışdığım “Ulduz” jurnalının 1 illiyi haqqında diplom işi yazmısınız. Biz istərdik onu təkrarən çap edək.***

– Məmmuniyyətlə. O unudulmaz bir səhifədir həyatımda. Çünki mən Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasından xahiş etmişdim ki, mənə Füzulidən, Nəsimidən, Mirzə Fətəli Axundovdan, Cəlil Məmmədquluzadədən diplom işi versinlər. Bu işləri koordinasiya edən müəllimdən dörd dahi fikir sahibi, yazıçı, yalnız Azərbaycan ədəbiyyatı deyil, Şərqdə, Qərbdə tanınan, sevilən sənətkarlar haqqında diplom işi verməyi xahiş etmişdim. Amma vəziyyət dəyişdi.

Böyük şairimiz Bəxtiyar Vahabzadə Bakı Dövlət Universitetinin professoru idi. İndi necədir– bilmirəm, o vaxt hər bir dosent, professorun dərs yükü vardı və o dərs yükünü çatdıra bilməmişdi. Beləliklə, kafedranın müdiri bizim böyük yazıçımız, mütəfəkkirimiz, fikir sahibimiz, alimimiz Mir Cəlal Paşayevdən xahiş etmişdi ki, ona bir-iki nəfər yaxşı oxuyan diplomçu tələbə verilsin. Həmin tələbələrin diplom işi rəhbəri olsun və dərs yükünü yerinə yetirə bilsin.

1968-ci ilin may ayının əvvəlləri idi. Biz artıq sonuncu kursda idik, universiteti bitirirdik. Onu qeyd edim ki, mənim kafedradan xahiş etdiyim mövzular klassik ədəbiyyatdan, 20-ci əsr ədəbiyyatından idi. Bəxtiyar Vahabzadə isə sovet dövrünün müəllimi idi və mövzusu bununla bağlı olmalı idi. Məni kafedraya çağırdılar. O vaxtlar Azərbaycan klassik ədəbiyyatı, sovet, xarici ədəbiyyat, ədəbiyyatşünaslıq və s. bir kafedrada – Azərbaycan ədəbiyyatı kafedrasında idi. İndiki İqtisad Universitetinin binasında yerləşirdi. Bu kafedra əsas girişin ikinci mərtəbəsində idi.

Kafedraya daxil oldum və gözlədim. Mir Cəlal müəllim yer göstərdi, əyləşdim, geniş otaqda var-gəl edə-edə bir az fikirləşdi və məndən soruşdu ki, “Ulduz” jurnalı çap olunur, bilirsən? Dedim, əlbəttə. Dedi: “Hə, sən şairsən, diplom işinin mövzusu olsun “Ulduz” jurnalının poeziyası”. Jurnal o vaxtlar 1 il idi ki fəaliyyət göstərirdi. Mən jurnalın poeziyasını, nəsrini, tənqidini yenidən oxudum və “Ulduz” jurnalının 12 nömrəsindən ibarət diplom işi yazmalı oldum.

Əvvəla, onu deyim: müdafiədən öncə öz təşəbbüsümlə diplom işini “Ulduz” jurnalına təqdim etdim ki, oxusunlar. Məmməd Araz o vaxtlar “Ulduz”un məsul katibiydi, mənim işimin ilk baş rəyçisi oldu. Yüksək fikirlər dedi, onu da əlavə etdi ki, bizdə işi demək olar, hamı oxuyub. Bir məqam indiyədək gözlərimin önündədir: vərəqlərin kənarında neçə yerdə eyni məzmunlu qeydlər etmişdi: “Çox düzgün tutub” və bu qeydlərin demək olar ki, hamısı ayrı-ayrı müəlliflərin tənqidinə aid idi.

“Ulduz” jurnalının yaranması Azərbaycan ədəbi mühitində böyük hadisə idi. Yalnız Azərbaycanda deyil, Sov. İKP MK-nın qərarı ilə bütün müttəfiq respublikalarda yaranmışdı. O zamanlar partiyanın mərkəzi komitəsinin qərarı olmadan ciddi bir tədbir keçirmək, jurnal yaratmaq mümkün deyildi. “Ulduz” jurnalı həmin illərdə çox böyük işlər gördü. Mənim İrəvanda çap olunan ilk kitabım “Məni səsləyəndə” haqqında gənc şair, publisist Səyavuş Sərxanlının böyük bir məqaləsi “Ulduz” jurnalında çap olundu.

Təvazökarlıqdan uzaq da olmasın, “Ulduz” jurnalı mövzusundakı diplom işi müdafiəm çox ciddi əks-səda verdi, təriflındi. Professor Xalid Əlimirzəyev mənim diplom işimin rəyçisi idi. Çox yüksək qiymətləndirdi və dedi ki, bu, universitetin elmi əsərlərində çap olunmalıdır. Bəxtiyar Vahabzadə də yüksək rəy yazdı və hazırda diplom işinin ön səhifəsindədir. Bir epizodu da qeyd edim, heç vaxt yadımdan çıxmır.

Titul vərəqəsində diplomçunun, mövzunun, kafedra müdirinin və elmi rəhbərin adları var idi. Elmi rəhbəri isə təbii ki, filologiya elmləri doktoru, professor Bəxtiyar Vahabzadə yazmışdım. Bəxtiyar Vahabzadə bu sözləri pozdu və dedi ki, mən şairəm. Qaldı: “Elmi rəhbər– Bəxtiyar Vahabzadə”. Diplom işində yalnızca bu dəyişiklik olundu. Dövlət imtahanı komissiyasının rəhbəri məşhur dilçi Mirzə müəllim idi, akademiyadan gəlmişdi. Bütün komissiyanın tərkibi yüksək fikirlər səsləndirdilər və qərara gəldilər ki, diplom işi universitetin elmi əsərlərində çap olunsun. Amma mən dərhal İrəvana qayıtdım. Bir-iki ay sonra məni dövlət teatrına direktor təyin etdilər və mən bu işi davam etdirmədim.

***– Hidayət müəllim, “Ulduz” jurnalında ilk dəfə şair kimi neçənci ildə çap olunmusunuz?***

– Dəqiq yadımda olmasa da, 1969–1970-ci illər idi. Şeirlərim mütəmadi çap olunmağa başladı. Allah rəhmət eləsin Cabir Novruz, Əhməd Cəmil, Yusif Səmədoğluna. Onların zamanında mən İrəvanda yaşayırdım. Yusif Səmədoğlu ilə həmişə xoş münasibətlərim olub, istedadlı nasir kimi ona çox hörmət edirdim. Mənim üçün həm görkəmli Azərbaycan nasiri, həm də Səməd Vurğunun oğlu idi. Bir epizodu da deyim ki, mən həmişə Yusif müəllimin yanına gedəndə o çətinliklə ayağa qalxardı. Mən düşünürdüm ki, görkəmli nasirdir, Səməd Vurğunun oğludur deyə, belə edir.

Səməd Vurğunun 80 illiyində mənim təhsil aldığım və qızıl medalla qurtardığım Mığrı rayonunun Aldərə kənd məktəbində Səməd Vurğunun büstünün açılma mərasimi idi. O məktəbə Səməd Vurğunun adının verilməsi prosesində mən də iştirak eləmişdim. Mən o vaxt maarif naziri (indiki elm və təhsil naziri), mərkəzi komitənin müvafiq qurumları, şöbələri ilə, hətta mərkəzi komitənin ideologiya üzrə katibi ilə danışıqlar aparırdım ki, o məktəbə Səməd Vurğunun adı verilsin. Və verildi.

1986-cı ildə büst açılanda Azərbaycandan nümayəndə heyəti getdi oraya. Buradan Yusif Səmədoğlu, Aybəniz xanım və digər yazıçılar qrupu getmişdik. Açılış oldu və mən Azərbaycandan gələn nümayəndə heyətini öz kəndimizə, Maralzəmiyə – evimizə dəvət etdim. Süfrə ətrafında anam, qardaş-bacılarım da var idi. Yusif Səmədoğlu mənim haqqımda tostda dedi ki, “mənim belimdə radikulit var, incidir. Mən heç kəsin gəlişinə ayağa durmuram. Hidayət yeganə adamdır ki, o mənim yanıma gələndə mən ayağa dururam”.

Demə, beli incidirmiş, ona görə çətinliklə ayağa qalxırmış. Bu həqiqəti bilәndən sonra Yusif müəllim mənim gözlərimdə, ürəyimdə daha da ucaldı.

**– Hidayət müəllim, artıq vaxtınız var, bütün bunları yazmaq istərdinizmi?**

– Bilirsiniz, siz bayaq xatırlatdığınız “Burdan min atlı keçdi”də mən müəyyən məqamları yazmışam. Və haqlısınız, əlbəttə, bunlar, bütövlüklə yazılmalıdır.

**(ardı var)**

# Faşizm, milli əlahiddəlik haylarda məfkurəyə çevrilib

*Revanşizm erməni irqçi düşüncəsinin tərkib hissəsidir*

**Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya televiziyasına müsahibəsi son günlər Ermənistanda əsas müzakirə mövzusu olaraq qalmaqdadır. Qəribədir ki, bu müzakirələrə daha çox radikal qüvvələr, revanşist kəsim qoşulub. Prezident haqlı olaraq Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının yer aldığı müddəaların çıxarılmasının şərt olduğunu bildirib. Müsahibədə sülh prosesi ilə bağlı Azərbaycanın mövqeyi açıq şəkildə ifadə edilib.**

Ermənistan həqiqətənmi sülh istəyir? Elə isə nə üçün silahlanmanı davam etdirir? Azərbaycanın ərazi bütövlüyü bərpa olunmuşdursa, ATƏT-in Minsk qrupuna nə ehtiyac var? Ermənistan bu qurumun ləğv olunması ilə bağlı Bakının təklifini niyə qəbul etmir? 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda nəzərdə tutulan öhdəlikləri nə üçün yerinə yetirmir? Azərbaycanın Qərb bölgələrini Naxçıvana bağlayacaq maneəsiz keçid hələ də Ermənistanın tərsliyi üzündən açılmayıb, kommunikasiya xətləri qapalı qalır. Bu məsələləri həll etmək əvəzinə Ermənistan hakimiyyəti öz nəzarətində olan revanşist ünsürlərin Azərbaycana qarşı böhtan yağdırmalarına start verib.

Son günlərin olayları göstərir ki, erməni cəmiyyətində revanşizm meyilləri daha da artmaqdadır. Azərbaycana qarşı düşmənçilik siyasəti dövlət ideologiyası səviyyəsində aparılır. Bunu təsdiq edən çoxsaylı faktlar var. Ermənistan irqçi düşüncənin hakim olduğu dövlətdir və heç zaman güvəniləcək ölkə olmayıb. Erməni cəmiyyəti irqçi düşüncənin əsirliyindən xilas olmaq yerinə onun mövcud iqtidarı manipulyativ gedişlər edir, aldadıcı manevrlərlə həm ictimaiyyəti, həm də dünyanı aldatmaq cəhdləri edir. Erməni yazıcı və ictimai xadim Vahe Avetyan da erməni cəmiyyətinin nə dərəcədə irqçi olduğunu ifadə edərkən çox haqlı idi. Ona verilən “Siz nasistsinizmi?” sualına belə cavab vermişdi: “Əlbəttə! Mən Ermənistanda doğuldum, orada böyüdüm, məni ermənilər tərbiyə etdilər. Başqa cür necə ola bilər ki?..”

Erməni faşizmi, milliyyətçi düşüncə bu ölkədə ənənə olaraq davam etdirilir. Bu gün erməni cəmiyyətində nə dəyişib ki, biz nə vaxtsa Azərbaycan torpaqlarının ermənilərə “aidliyi” iddialarının ortaya atılmasının şahidi olmayaq. Məgər yaxın və uzaq keçmişdə belə xəyanətlərlə az rastlaşmışıq? Belə bir qonşu ilə müəyyən şərtlər daxilində anlaşmaya getməyimiz təbii haqqımız deyilmi?!

Erməni dissidenti, “Tsexakronutyun” partiyasının başçısı Şant Harutyunyan telemüsahibəsində muasir erməni cəmiyyətində ideoloji dəyişikliklərdən danışmış və erməni millətinin bir çox mənəvi dəyərlərinin deqradasiyaya uğradığından şikayət etmişdi. “Mənəvi dəyər” deyəndə keçmiş dissident hay milliyətçiliyini nəzərdə tutur və erməni xalqının “nifrətinin yetərsizliyindən“ şikayətlənir. O, qurduğu partiyanı Njdenin faşist ideologiyasına söykənən, bu ad altında qaranlıq keçmişi olan terrorçuları topladığına görə öyünür. “Mənəvi dəyər” deyincə, erməni milliyətçiləri türklərə qarşı mübarizəni nəzərdə tuturlar. Onlar üçün o kəslər dəyərlidir ki, bu “mübarizədə” iştirak edib, adam öldürüb və “qəhrəmana” çevrilib. “Mənəvi dəyər” bu gün Ermənistanda cəllad Andranik Ozanyandır, Njde, Dro, Teyliryan, Monte Melkonyan kimi terrorçulardır.

Tsexakronizmin təməl prinsipi nə idi? Başqalarına nifrət! Xüsusən ona qucaq açan, yer verən, himayə edən qonşularına... Ermənistanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq Njdenin irqçi düşüncəsi hər şeydən öndədirsə, bu cəmiyyət sağlamlaşa bilərmi?!

Bu düşüncədəyik ki, erməni irqçi düşüncə tərzini dəyişdirmək çox çətin olacaq. Çünki yüz illər boyu bu sistemin inkişaf trendi müəyyən qanlı ənənələr üzərində qurulub. Həmin ənənələr milliyyətçi erməni təşkilatlarının yön verməsi ilə, siyasi və ictimai, hərbi proseslərlə dəstəklənib, terror bu millət üçün müəyyən məqsədə çatmaq üçün vasitəyə çevrilib, partiyalarının proqramlarında yer alıb. Paşinyan hakimiyyəti və onun partiyası da bu ənənədən imtina etmək gücündə deyil, onu davam etdirmək məcburiyyətindədir. Bu gün ölkə silahlanırsa, ABŞ, Fransa və Hindistan kimi ölkələrdən hücum silahları alırsa, onun adını nə qoyurlarsa qoysunlar, bunun Azərbaycana qarşı olduğu heç kimdə şübhə doğurmur. Bu, revanşizmin dirçəlməsi elementlərindən biri deyilmi?!

…Bir neçə il əvvəl ermənilər faşist Qaregin Njdeyə İrəvanda heykəl qoydular. Açılışını o vaxtkı prezident Serj Sarkisyan etdi. Sarkisyanın başçılıq etdiyi respublikaçılar partiyasının ideoloji əsası Njdenin Tsexakronizm təlimi üzərində qurulub. Rusiya bu faşistə heykəl qoyulmasına etiraz etdi. Bəyanat verdi, bu faşistin alman nasistləri ilə əlaqələri ortaya çıxarıldı. Azərbaycan heykəlin götürülməsini tələb etdi, Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə bu məsələdən danışdı. Amma heykəl götürülmədi. Paşinyan da alman faşistləri ilə əməkdaşıq etmiş bu şəxsin heykəli önünə çiçək qoydu, tez-tez bu faşistdən misallar çəkir, onu “erməni millətinin qəhrəmanı” adlandırır.



Njdenin “Tsexakron” təliminin Hitlerin “Yeni nizam” anlayışı ilə eynilik təşkil etdiyini Paşinyan çox gözəl bilir. Onun həbsdən “erməni ziyalılarına” yazdığı müraciəti əzbər bildiyini etiraf edir.

Njdenin yaratdığı və bu gün də erməni cəmiyyətinin ideoloji lokomotivi rolunu oynayan Tsexakronizm özündə nəyi ehtiva edir? Tsexakron təliminin açıqlaması aşağıdakı kimidir: “Mən öz soyumu (tsex) bilirəm, öz nəslimə güvənirəm, mənim soyum Allaha daha yaxındır, ali irqdir, cismimdə Tsexarakonu (soy+din) daşıyıram”. Bu cəhətlər Tsexakronu faşizmlə eyniləşdirir. Müasir dövrün qatı erməni faşisti Zori Balayan Qarabağda bir hay toyunda görün nə deyib: “…Allah Qarabağı qoruyacaqdır, çünki Allahın özü də erməni və qarabağlıdır”. Bu, artıq faşizmdən də betər bir şeydir. Sələfi Njde erməni soyunu “ari irq” sayır, çağdaş faşist Balayan isə Allahın da erməni olduğunu iddia edir.

Nasistlərlə ermənilər, özəlliklə daşnaklar arasında əməkdaşlığın ideoloji zəmini 1930-cu illərdə qoyulub. Almaniyanın o zamankı İşğal Edilmiş Şərq Torpaqları naziri Alfred Rozenberq 1926–1936-cu illərdə Berlin Şərqşünaslıq İnstitutunda çalışmış milliyətcə erməni Artaşes Abeqyana hayların antropologiyasının və tarixini araşdırmaq üçün bir komitə qurmağı tapşırmışdı. Təbii ki, bu fürsəti ermənilər əla dəyərləndirdilər. Dərhal hesabat verildi ki, onlar almanlarla eyni irqdən gəlirlər. Komitənin qurulmasından beş ay sonra, 1934-cü ildə Rozenberq Hitlerə ermənilərin almanlarla eyni irqdən – ari irqdən gəldiyini “təsdiqləyən” bir hesabat təqdim edir. O illərdə Hitlerin ətrafına çoxlu erməni toplaşmışdı və 10 minlik erməni hərbi legionunu yaratmaq ideyası ortaya çıxmışdı. “Hayastan” adlı qəzetin hər nömrəsində fürer təbliğ olunurdu. Həm də ermənilərin dostu, xilaskarı kimi.

**(ardı var)**

***Qafar ÇAXMAQLI,***
***“Xalq qəzeti”nin Türkiyə müxbiri***

# Yüksəliş dinamik, əhatəli və davamlıdır

## *Bu il üçün nəzərdə tutulmuş gözləntilər uğurlara çevrilib*



**2024-cü il uğurla başa çatır. Fevralın 7-də dövlət başçısı İlham Əliyevin növbəti dəfə respublika Prezidenti seçilməsi, Milli Məclisin yeni tərkibinin formalaşdırılması, noyabrda ölkəmizin COP29 kimi nüfuzlu konfransa evsahibliyi etməsi və müstəqillik tariximizin ən iritutumlu maliyyə sənədinin – 2025-ci ilin dövlət büdcəsinin qəbul olunması Azərbaycanın uğur tarixinə qızıl hərflərlə yazılır.**

Hesabat ili bütün bunlarla bərabər, ölkəmizdə regional və qlobal layihələrin reallaşdırılması ilə, sosial-iqtisadi sahələrdə əldə edilən yüksək göstəricilərlə, eyni zamanda, bir çox istiqamətdə yeni hədəflərin müəyyənləşdirilməsilə də yadda qalacaq. 30 il doğma Vətən həsrəti ilə yaşayan soydaşlarımızın Qarabağ və Şərqi Zəngəzurda məskunlaşması (artıq 10 minə yaxın keçmiş məcburi köçkün öz ata-baba yurdlarına qayıdıb) prosesinin davam etdirilməsi, həmçinin o ərazilərin Azərbaycan cəmiyyətinə, iqtisadiyyatına, sosial-siyasi münasibətlərinə uğurla reinteqrasiya olunması da tarixdə silinməz iz buraxacaq.

"Güclü iqtisadiyyat ən önəmli şərtdir" deyən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan cari ilin əvvəlindən iqtisadi inkişafını uğurla davam etdirib. Dövlətimizin başçısı hələ sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunan müşavirədəki çıxışında 2024-cü ilin əvvəlindən iqtisadi inkişafın gözlənilən səviyyədə qərarlaşdığını, bu müddətdə uğurlu sosial-iqtisadi göstəricilər qazanıldığını və belə bir irəliləyişin gerçəkləşəcəyinə əminliyini hesabat dövrünün başlanğıcında vurğuladığını bildirib: "İlin əvvəlindən əldə edilmiş nəticələr və iqtisadi göstəricilər mənim sözlərimi təsdiqləyir. İqtisadi artım 4,3 faiz təşkil edib. Bugünkü dünyada gedən prosesləri təhlil edərkən və ümumiyyətlə, geosiyasi vəziyyətə nəzər saldıqda deyə bilərəm ki, bu, çox müsbət göstəricidir".

Bu uğurların əldə olunması isə, ilk növbədə, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı istiqamətində genişmiqyaslı islahatların gerçəkləşdirilməsi fonunda aydın nəzərə çarpır. Ölkə rəhbəri də çıxışında məhz bu cəhətləri qabardaraq qeyd edib ki, Azərbaycanın iqtisadi yüksəlişi bir çox ölkələrin iqtisadi inkişaf templərini üstələyir. Bu məsələdə xüsusi əhəmiyyət daşıyan məqam isə respublikada qeyri-neft sektorunun 7 faiz artmasıdır. Bu isə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan addımların və düşünülən islahatların öz bəhrəsini verdiyini göstərir.



Ölkədə davamlı iqtisadi uğurların qazanılmasının ən mühüm şərtlərindən biri də beynəlxaq təcrübədə özünü doğruldan prinsiplərin müəyyən plan və proqramlar əsasında gerçəkləşdirilməsi ilə bağlıdır. Bu fikrin təsdiqi olaraq deyə bilərik ki, ölkəmizin 2030-cu ilədək milli prioritetlərinə və 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyasında qarşıya qoyulan vəzifələrə və sağlam prinsiplərə əsaslanmaqla gələcəkdə qeyri-neft ixracında daha yüksək göstəricilər əldə etmək, bununla da dünya iqtisadiyyatında respublikamızın mövqeyini gücləndirmək qarşıya mühüm vəzifə kimi qoyulur.

Respublikada uğurlu iqtisadi göstəricilərin əldə edilməsində dövlətimizin başçısının rəhbərliyi ilə ardıcıl və sistemli surətdə həyata keçirilən sənayenin inkişafına dair Dövlət Proqramı da əhəmiyyətli rol oynayır. Bu proqram ənənəvi sənaye sahələri ilə yanaşı, Azərbaycan iqtisadiyyatı üçün yeni olan kosmik, müdafiə, gəmiqayırma, alternativ enerji və digər sahələrin, həmçinin müasir istehsal infrastrukturuna malik sənaye zonalarının inkişafını sürətləndirir. Belə vəziyyət ölkənin ixrac qabiliyyətinin güclənməsinə, idxalı əvəz edən məhsulların istehsalının artırılmasına da əhəmiyyətli təsir göstərir.

Şübhəsiz ki, bu məsələdə qabaqcıl texnologiyalardan və idarəetmə təcrübəsindən səmərəli yararlanmaq böyük əhəmiyyətə malikdir. Bundan başqa, ölkədə hökm sürən siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici sərmayələr üçün ən cəlbedici dövlətlərdən biri kimi tanıdır.

Qeyri-neft sənayesində məhsul istehsalının artımına iqtisadiyyatın rəqəmsallaşması ilə bağlı layihələrin uğurla reallaşdırılması da müsbət təsir göstərir. Rəqəmsallaşma respublikamızın investisiya cəlbediciliyini şərtləndirən mühüm amillərdən biri olduğu üçün investorlar tərəfindən bu sahəyə aid infrastrukturun qurulması, eləcə də elektron ticarətin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır. Məhz bunun nəticəsidir ki, Azərbaycanda təhlükəsiz rəqəmsal ödəniş həllərinin genişləndirilməsi, etibarlı logistik şəbəkələrin təkmilləşdirilməsi kimi güclü rəqəmsal infrastruktur yaradılmasına böyük maraq göstərilir və bu sahədə müsbət göstəricilər əldə olunur.

Azərbaycanda qeyri-neft sektorunun inkişafına daha çox önəm verilməsi müstəqillik illərində yeni tərəqqi mərhələsinə daxil olan neft sənayesinin heç də arxa plana keçirilməsi demək deyil. Çünki respublikamızın sosial-iqtisadi həyatındakı indiki canlanma, davamlı inkişaf bu sahədən əldə edilən maliyyə vəsaiti ilə yaradılıb, ölkəmizin güclü, qüdrətli ordusu formalaşdırılıb, eləcə də müasir qeyri-neft sənayesinin əsası qoyulub. Belə bir uğur formulu isə neft-qaz təsərrüfatının inkişafına prioritet istiqamət kimi yanaşılmasını zəruri edib. Dövlətimizin başçısının iqtisadi məsələlərə həsr olunmuş müşavirədə qeyd etdiyi sözlər də bunu təsdiqləyir: "Son illər ərzində xarici neft şirkətləri tərəfindən həyata keçirilən layihələrdə neftin hasilatı ildən-ilə azalırdı və bu da təbii olaraq bizim ümumi iqtisadi inkişaf templərimizə mənfi təsir göstərirdi və biz bu tənəzzülü qeyri-neft sektorunun inkişafı ilə tənzimləyirdik. Ancaq neft hasilatında buraxılmış nöqsanlar xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində onların diqqətinə çatdırılmış və onlardan tələb edilmişdir ki, bu nöqsanlar aradan qaldırılsın, neft hasilatının sabitliyi təmin edilsin".

Beləliklə, ölkə rəhbərinin vurğuladığı kimi, artıq son aylar ərzində bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsi bundan sonra heç bir əsası olmadan neft hasilatında tənəzzül yaşanmayacağına, neft-qaz sektorunda yeni layihələrin işlənməsi ilə yeni hasilat proqnozlarının özünü doğruldacağına, təbii qaz və neft kondensatı hasilatının çoxalacağına əsaslı ümidlər yaranıb.

### Gələcək tərəqqiyə möhkəm təməl

Artıq bir neçə gündən sonra başa çatacaq 2024-cü ildə əldə edilən uğurlar qarşıdakı hesabat dövründə iqtisadiyyatın daha da şaxələndirilməsini və dayanıqlı inkişaf modelinin təkmilləşdirilməsini şərtləndirir. Həmin uğurların ifadəsi olan ilkin statistik göstəricilər də bunu deməyə əsas verir:

– reallaşdırılan layihələr nəticəsində 2024-cü ilin 11 ayında iqtisadi artım 4,1 faiz təşkil edib, o cümlədən qeyri–neft sektoru 6,4 faiz artıb;

– ölkədə 113 milyard 282 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,4 faiz, qeyri-neft-qaz sektorunda isə 6,4 faiz çoxalıb. ÜDM istehsalının 37,1 faizi sənayenin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 11 min 104 manata bərabər olub.

– respublikanın sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 58,3 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çox sənaye məhsulu istehsal edilib. Hesabat dövründə sənayenin neft-qaz sektorunda məhsul istehsalı 0,6 faiz, qeyri neft-qaz sektorunda 7,2 faiz çoxalıb;

– bu il oktyabrın 1-dək olan xarici dövlət borcu 5 milyard 299,1 milyon ABŞ dolları (cari məzənnə ilə 9 milyard 8,5 milyon manat ) və ya 2024-cü il üzrə proqnozlaşdırılan 121 milyard 342,5 milyon manat məbləğində ÜDM-in 7,4 faizini təşkil edib.

Ötən dövr ərzində cəlb edilən vəsaitlər, yerinə yetirilən əsas borc öhdəlikləri, habelə xarici valyuta məzənnələrində baş vermiş dəyişikliklər nəzərə alınmaqla, xarici dövlət borcu ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 1 milyard 162,1 milyon ABŞ dolları və ya 18 faiz azalıb;

–son 1 ildə valyuta ehtiyatları 13 faizə yaxın artıb. Bu il oktyabrın 1-nə respublikamızın strateji valyuta ehtiyatları 73 milyard 493,4 milyon ABŞ dolları təşkil edib. Bunun 83,95 faizi və yaxud 61 milyard 697,6 milyon ABŞ dolları Dövlət Neft Fondunun, 16,05 faizi və yaxud 11 milyard 795,8 milyon ABŞ dolları isə Mərkəzi Bankın payına düşüb;

–1999-cu ildə əsası qoyulan Dövlət Neft Fondunun hazırkı vəsaitləri 60 milyard ABŞ dollarını keçərək ölkə iqtisadiyyatının, təxminən, 80 faizinə bərabər olub.

Bu il oktyabrın 1-nə Dövlət Neft Fondunun vəsaitləri ilin əvvəlinə nisbətən 10 faiz artaraq 61 milyard 697,6 milyon ABŞ dolları təşkil edib. Yanvar–sentyabr aylarında fondun büdcə gəlirləri 15 milyard 4 milyon manat, xərcləri isə 9 milyard 634,5 milyon manat olub;



– cari ilin yanvar–noyabr aylarında əsas kapitala 15 milyard 910 milyon manat məbləğində investisiya yönəldilib. İstifadə edilən investisiyanın 8 milyard 139 milyon manatı (51,2 faizi) məhsul istehsalına, 5 milyard 618 milyon manatı (35,3 faizi) xidmət sahələrinə, 2 milyard 154 milyon manatı (13,5 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.



Əsas kapitala yönəldilən investisiyaların 13 milyard 66 milyon manatı (82,1 faizi) daxili investisiyalara aid olub, 11 milyard 435 milyon manatı (71,9 faizi) bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilib;

– ölkədə 12 milyard 216 milyon manat dəyərində (ötən ilin eyni dövrü ilə müqayisədə 1 faiz çox) kənd təsərrüfatı məhsulu istehsal edilib. Son bir ildə istehsal olunmuş bitkiçilik məhsullarının dəyəri 0,6 faiz artaraq 6 milyard 23 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 1,4 faiz artaraq 6 milyard 192 milyon manat olub;

– dövlət əmlakının özəlləşdirilməsi üzrə 43 hərrac keçirilib. Özəlləşdirmədən dövlət büdcəsinə 108,2 milyon manat vəsait daxil olub, ötən ilin eyni dövrü ilə müqayisədə 4,2 faiz artım qeydə alınıb.

### Proqnozlar sevindiricidir

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycanda orta illik inflyasiyanın bu il 2023-cü ildəki 8,8 faizdən 3,5 faizə qədər azalacağını proqnozlaşdırır. Bu barədə məlumat bankın hesabatında yer alıb. AYİB-in proqnozlarına görə, Azərbaycanın tədiyyə balansının cari hesabının profisitinin ÜDM-yə nisbəti ötən ildəki 9,9 faizə qarşı 2024-cü ilin yekunlarına əsasən 8,5 faiz təşkil edəcək. Ölkəmizdəki cari makroiqtisadi mühitə toxunan bank qeyd edir ki, 2024-cü ildə ÜDM-in artım tempi sürətlənib, inflyasiya isə azalıb. Neft-qaz sektoru "mavi yanacağ"a olan güclü tələbat sayəsində artım trayektoriyasına qayıdıb.

İnflyasiyanın Mərkəzi Bankın hədəf diapazonu həddində (4+/-2) qaldığını vurğulayan hesabat müəllifləri qeyd ediblər ki, enerji daşıyıcılarının ixracı və dövlət investisiyaları növbəti illərdə ölkənin ÜDM artımını stimullaşdırmağa davam edəcək. "Bizim qiymətləndirmələrimizə görə, Azərbaycanda real ÜDM artımı 2024-cü ildə 3,8 faiz, 2025-ci ildə isə 2,7 faiz təşkil edəcək. Proqnoz neft və qaz qiymətlərinin dəyişməsinə, həmçinin regionda geosiyasi qeyri-sabitliyə qarşı çox həssasdır", – deyə hesabatda vurğulanıb.

Xatırladaq ki, Azərbaycan iqtisadiyyatı 2023-cü ildə 1,1 faiz artıb, orta illik inflyasiya isə 8,8 faiz səviyyəsində olub. Ölkə iqtisadiyyatında artım meyilləri bu ilin ötən dövründə də davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-oktyabr aylarında Azərbaycanda ÜDM istehsalı 2023-cü ilin eyni dövrü ilə müqayisədə 4,9 faiz artıb. Bütövlükdə isə, Azərbaycan hökumətinin proqnozlarına görə, 2024-cü ildə ÜDM-in artımı 4,2 faiz, 2025-ci ildə 3,5 faiz, 2026-cı ildə 2,8 faiz, 2027-ci ildə 3,8 faiz, 2028-ci ildə isə 3,3 faiz səviyyəsində gözlənilir.

Bugünlərdə isə Niderlandın "ING Group" şirkəti 2024-cü il üçün Azərbaycanda iqtisadi artım üzrə proqnozunu 4,2 faiz, 2025-ci ildə 2,6 faiz, 2026-cı ildə isə 2,8 faiz səviyyəsində müəyyən edib. Şirkətin ölkəmizlə bağlı bundan öncəki proqnoza nisbətən 2024-cü il üçün gözləntilər 0,7 faiz bəndi artıb, 2025-ci il və 2026-cı il üçün isə dəyişməyib. Niderland şirkətinin hesabatına əsasən, 2024-cü ilin dördüncü rübündə ÜDM artımı üçüncü rübdəki 5,4 faizə qarşı 3 faiz səviyyəsində proqnozlaşdırılır. Bununla yanaşı, 2025-ci ilin birinci rübündə iqtisadi artım proqnozu 2 faiz, ikinci rübdə 2,5 faiz, üçüncü və dördüncü rüblərdə 3 faiz səviyyəsində nəzərdə tutulub. 2026-cı ilin son rübündə isə ölkəmizdə iqtisadi artımın 2 faiz təşkil edəcəyi proqnozlaşdırılır.

Bununla yanaşı, Birləşmiş Millətlər Təşkilatı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, eləcə də "S&P Global Ratings", "Moody's" və "Fitch Ratings" beynəlxalq reytinq agentliklərinin də ölkəmizin iqtisadi inkişafı ilə bağlı nikbin prooqnozları da nikbinliyə əsas verir. İqtisadi artımın davam etməsi isə ölkədə inflyasiya səviyyəsinin arzuolunan həddə çacağından xəbər verir.

***VB AYRAMOV***
***XQ***

# Dövlət proqramı Naxçıvanda islahatlara önəmli dəstək qazandırıb

**Son illər regionlarda həyata keçirilən tikinti-quruculuq işlərinin miqyası genişlənib, sosial-iqtisadi layihələrin icrası diqqətdə saxlanılıb. Nəticədə bölgələrin siması dəyişib, əhalinin rifahı daha da yaxşılaşıb. Bu tərəqqi, innovativ inkişaf, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasından da yan ötməyib. Görülmüş işlər Naxçıvanın qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar açıb. Hazırda bu imkanlardan istifadə edilməklə muxtar respublikanın sosial-iqtisadi həyatında, o cümlədən, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması əsas prioritetlərdən birinə çevrilib.**



Bütün bu fəaliyyəti sürətləndirmək, səmərəliyi artırmaq məqsədilə Azərbaycan Respublikası Prezidenti 5 iyun 2023-cü il tarixli sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Qədim diyarın müasir yol xəritəsi sayılan bu sənəddə iqtisadiyyatın inkişafı, o cümlədən əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönlü sənayenin, turizmin və infrasturuktur təminatının, sosial sektorun, insan kapitalının inkişafı, kənd təsərrüfatı məhsulları istehsalının və emalının, eləcə də elektrik enerjisi istehsalının artırılması, institusional inkişaf, ətraf mühitin mühafizəsinin gücləndirilməsi kimi 11 prioritet istiqamət üzrə layihələrin dəstəklənməsi nəzərdə tutulub.

## Sənaye istehsalı artıb

Ölkəmizdə həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri də sənaye məhsulları istehsalı ilə tarazlı inkişafa, o cümlədən, yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönümlü hazır məhsul istehsalına nail olmaqdan ibarətdir. Buna görə də milli iqtisadiyyatımızın hazırkı dövründə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlığı reallaşdırmaq üçün yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Regional inkişafa göstərilən bu diqqət ölkəmizin bütün bölgələrində, o cümlədən Naxçıvan Muxtar Respublikasında da sənayenin inkişafını şərtləndirir.

Bölgənin gələcək inkişafı ilə bağlı önəmli məsələlərdən biri də modern sənayeləşmənin yaradılmasıdır. Hazırda həyata keçirilən uğurlu strategiya nəticəsində yeni dövrün tələblərinə uyğun iqtisadiyyatın sənayeləşməsi getdikcə sürətlənir. Belə bir zərurət isə muxtar respublikanın malik olduğu təbii resurslar, iqtisadi potensial, dövlətin yeni yaradılan sənaye müəssisələrinə fəal dəstəyi, ixrac imkanlarının artırılması istiqamətində həyata keçirdiyi tədbirlərlə gerçəkləşir. Təsadüfi deyil ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda müəyyənləşdirilən 11 prioritet istiqamətdən biri də ixracyönlü sənayenin inkişaf etdirilməsi ilə bağlıdır.

Onu da qeyd edək ki, bu gün sənaye sektoru ölkə iqtisadiyyatında mühüm istiqamətlərdən birini təşkil edir. Təsadüfi deyil ki, milli iqtisadiyyatımızda ən yaxşı inkişaf göstəriciləri də məhz sənaye sektorunun payına düşür. Xüsusilə, ölkəmizdə mühüm prioritet kimi qəbul edilmiş qeyri-neft sektorunun inkişaf etdirilməsi milli sənayedə şaxələndirməni gerçəkləşdirir, əhali məşğulluğunda məmnunluq yaradır. Bu sahədə diqqət çəkən əsas amillərdən biri də aparılan sənayeləşmə siyasətində qabaqcıl dünya təcrübəsinə istinad olunmasıdır. Respublikamızda son illərdə yaradılan sənaye parkları şəbəkəsi də bunu bir daha təsdiq edir.

Qeyri-neft sektorunda nəzərə çarpan müsbət dinamika həm də ölkəmizdə uğurlu sənayeləşmə siyasəti sayəsində mümkün olub. Sənaye parklarının mövcud sahədəki fəaliyyəti, həmin zonalarda yeni sənaye sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, bu işə investorların geniş cəlb olunması kimi məsələlər hökumətin daim diqqət mərkəzində saxlanılıb və bu, müsbət göstəricilərlə müşahidə edilib.

Sənaye parklarının yaradılmasında əsas məqsəd innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafına, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılmasına və mövcud sahədə sahibkarlığın dəstəklənməsinə nail olmaqdır. Eyni zamanda, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması kimi məsələlər də qarşıda mühüm vəzifələr kimi durur.

Qədim diyarın inkişafında da sənayeləşmə siyasətinə mühüm önəm verilir. Başqa sözlə, bu bölgədə sənaye parklarının yaradılması və sözügedən sahəyə investisiya cəlb olunması Naxçıvanın resurslarından, həmçinin iqtisadi imkanlardan yararlanmaqla onun ölkə iqtisadiyyatına səmərəli reinteqrasiyasına əlavə stimul yaradır.

Onu da deyək ki, sənaye parkları üçün infrastruktur təminatı bir qayda olaraq dövlət vəsaiti hesabına yaradılır, həmçinin sənaye parklarının rezidentləri qeydiyyata alındığı gündən etibarən 10 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eləcə də parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən, həmçinin gömrük rüsumundan azad olunurlar. Bununla yanaşı, sənaye parklarında rezidentlərin qeydiyyatı "bir pəncərə" sistemi ilə həyata keçirilir. İş adamları da yaradılan şəraitdən faydalanaraq yeni istehsal sahələrinin yaradılmasına sərmayələr yönəldirlər. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Sənaye Parkının yaradılması haqqında 5 dekabr 2024-cü il tarixli Fərmanı da bu və digər əhəmiyyətli tərəfləri ilə seçilir.



Nəzərə alaq ki, Naxçıvan İqtisadi Zonası ölkəmizdə mühüm aqrar-sənaye bölgələrindən biridir. Muxtar respublikanın zəngin faydalı qazıntı yataqları burada bir çox sənaye müəssisələrinin fəaliyyəti üçün mühüm xammal bazasıdır. Təsadüfi deyil ki, hələ sovetlər birliyi dönəmindən muxtar diyarda şüşə qablar, redioelektronika, travertin, xalçaçılıq, alt trikotaj və bir digər sahələr üzrə böyük sənaye müəssisələri fəaliyyət göstərib. Həm aqrar, həm də sənaye istiqamətləri üzrə mövcud potensial muxtar respublikanın yerli istehsalında mühüm rol oynayıb.

Müasir dövrdə isə mövcud potensialdan səmərəli istifadə üçün bir çox rentabelli yollar var ki, onlardan biri də məhz yeni sənaye parklarının yaradılmasıdır. Bu mənada ölkə başçısının muxtar respublika ilə bağlı növbəti fərmanı təqdirolunasıdır. Digər tərəfdən nəzərə alaq ki, ölkəmizdə müasir sənaye parklarının infrastrukturu, burada sahibkarların fəaliyyəti üçün dəstəkyönümlü tədbirlərin həyata keçirilməsi kifayət qədər investisiya cəlbediciliyi yaradır ki, bu da iş adamları üçün yeni fürsətlər yaradır. Artıq fərmanda da qeyd olunduğu kimi Naxçıvan Sənaye Parkının fəaliyyətinin təşkili üçün qısa müddətdə ərazinin yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması üçün layihələndirmə işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə 2024-cü il dövlət büdcəsindən 500 min manat vəsait də ayrılıb.

Muxtar respublika ərazisində yeni sənaye parkının yaradılması üçün Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun cənubunda 310 hektar torpaq sahəsinin seçilməsi də mühüm əhəmiyyət daşıyır. Belə ki, sənaye fəaliyyəti üçün Naxçıvan şəhərindən kənarda, eyni zamanda, gediş-gəliş üçün yaxın məsafədə yerləşən ərazi, paralel olaraq Naxçıvanın Türkiyə vasitəsi ilə Qərbə, xüsusilə gələcəkdə Zəngəzur dəhlizi vasitəsi ilə müxtəlif istiqamətlərdə yük daşımalarına öz müsbət təsirini göstərəcək.

Məsələnin digər əhəmiyyətli tərəfi odur ki, Naxçıvan Sənaye Parkının yaradılması yaxın gələcəkdə muxtar respublikada əhali məşğulluğunun təmin olunmasında böyük rol oynayacaq. Gələcəkdə müxtəlif sahələr üzrə yaradılacaq sənaye rezidensiyaları burada kadr potensialının formalaşmasına təsir edəcək ki, bu da, öz növbəsində, yerli mütəxəssislərin yetişdirilməsinə töhfə verəcək. Bir sözlə, ölkə rəhbərinin bu fərmanı Naxçıvanın sosial-iqtisadi inkişafının gələcək hədəflərinə yönəlmiş növbəti addım olmaqla, regionun çiçəklənməsinə öz müsbət təsirini göstərəcək.

## Sahibkarlığa dəstək yüksəlib

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi islahatlar Naxçıvanın inkişafında yeni mərhələnin başlanmasına zəmin yaradıb. Bu baxımdan, Naxçıvanda idarəetmənin təkmilləşdirilməsi, şəffaflığın artırılması, iqtisadi resurslardan səmərəli istifadə, özəl bölmənin inkişafı kimi istiqamətlər prioritetdir. Qeyd olunan məsələlərlə bağlı dövlət qurumlarının və özəl bölmənin nümayəndələrinin birgə iştirakı ilə müzakirələrin aparılması, çətinliklərin həlli yollarının tapılması, bu istiqamətdə fəaliyyət və təşəbbüslərin dəstəklənməsi mühüm önəm daşıyır.

Ölkəmizdə, eləcə də onun ayrılmaz tarixi bir bölgəsi olan Naxçıvanda biznes və investisiya mühiti davamlı şəkildə yaxşılaşdırılır, qanunvericilik təkmilləşdirilir, dövlət-biznes dialoqu genişlənir. Sahibkarların maliyyə resurslarına daha rahat və sistemli çıxışının təmin olunması, vergi, sosial və digər güzəştlərin tətbiqi, investisiyaların stimullaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi və s. tədbirlər biznes fəaliyyətinin daha da genişlənməsinə münbit şərait yaradır. Məqsədyönlü dövlət proqramları çərçivəsində bölgələrimizin tarazlı inkişafının sürətləndirilməsi prioritetinə uyğun olaraq həyata keçirilən tədbirlər bütün regionlarımızı, o cümlədən, Naxçıvanı da əhatə edir.



Qədim diyarımızda iqtisadiyyatın dayanıqlılığı və əhalinin rifah səviyyəsininin daha da yüksəldilməsi üçün bölgənin zəngin resursları, dağ-mədən sənayesi, turizm, ticarət, nəqliyyat-logistika, habelə insan potensialından səmərəli istifadə olunması, biznesin müasir tələblərə uyğun gücləndirilməsi, ixrac potensialının artırılması və s. layihələr həyata keçirilir. Bütün bu qeyd edilənlərlə yanaşı, Zəngəzur dəhlizinin açılması Naxçıvanı mühüm nəqliyyat qovşağına çevirəcək, Azərbaycanın beynəlxalq logistika mərkəzi kimi rolunun daha da artmasını şərtləndirəcək.

Muxtar respublika iqtisadiyyatının müxtəlif sahələrində rentabelliyin artırılması, sahibkarlıq subyektlərinin fəaliyyətinin təkmilləşdirilməsi və genişləndirilməsi, ixracyönümlü və rəqabətqabiliyyətli məhsul istehsalının, nəqliyyat-tranzit imkanlarının artırılması, qonşu ölkələrlə, xüsusilə Türkiyə ilə ticarət əlaqələrinin gücləndirilməsi qarşılıqlı faydalı layihələrin reallaşdırılması, enerji mübadiləsi, gömrük-keçid prosedurlarının sadələşdirilməsi və s. məqsədlərə nail olunması baxımından islahatların həyata keçirilməsi zamanın diqtəsi kimi xüsusi diqqət çəkir.

Bölgədə son illərdə reallaşdırılan layihələr öz bəhrəsini verib: Muxtar respublikanın Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar–noyabr aylarında burada ümumi daxili məhsul (ÜDM) istehsalı 1 milyard 365 milyon manat (2023-cü ilin müvafiq dövründəki göstəricidən 1 faiz çox) olub. Hesabat dövrü ərzində əhalinin hər nəfərinə düşən ÜDM istehsalı 0,4 faiz artaraq 2 milyon 906 min manata yüksəlib.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin məlumatına görə, 2025-ci il üzrə ÜDM 1,5 milyard manat (2024-cü ilin proqnoz göstəricisi ilə müqayisədə 3,9 faiz çox) proqnozlaşdırılıb. Gələn il ÜDM-nin strukturunda bütün sahələrdə artım nəzərdə tutulub. Sənaye məhsulu üzrə 3,7 faiz, kənd təsərrüfatı məhsulu üzrə 2,5 faiz, əsas kapitala yönəldilmiş vəsaitlərin strukturunda tikinti-quraşdırma işləri üzrə 10,5 faiz artım proqnozlaşdırılıb.



## Vergi daxilolmaları çoxalıb

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda iqtisadiyyatın diversifikasiyası, kiçik və orta sahibkarlığın dəstəklənməsi, sahibkarlığın inkişafı, iş adamlarının hüquqlarının qorunması kimi mühüm hədəflər müəyyənləşdirilib. Sənəddə dövlət qurumları ilə biznes subyektləri arasında əlaqələrin gücləndirilməsində müasir texnologiyaların və rəqəmsal mühitin tətbiqinin önəmi diqqətə çatdırılıb.

İqtisadi islahatlar vergi daxilolmalarının artımına öz müsbət təsirini göstərib. Bunun nəticəsində cari ilin 11 ayında vergi daxilolmaları ilk dəfə olaraq 200 milyon manatı (müəyyənləşdirilən proqnoz məbləğindən 44,4 milyon manat və ya 28 faiz çox) ötüb. Hesabat dövründə vergi daxilolmaları 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 52,4 milyon manat və ya 34,9 faiz, 2022-ci illə müqayisədə isə 86,5 milyon manat və ya 74,4 faiz artıb. Bununla yanaşı, ötən 11 ayda məcburi dövlət sosial sığorta daxilolmaları 8,1 faiz, işsizlik sığortası fonduna daxilolmalar 11 faiz, icbari tibbi sığorta daxilolmaları isə 16,7 faiz çoxalıb. Fəal vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 37,9 faiz artaraq 21 min 374-ə çatıb. 2023-cü ilin yanvar ayı ilə müqayisədə isə aktiv vergi ödəyicilərinin sayı 68,2 faiz, qeydiyyatda olan obyektlərin sayı 20,1 faiz, ƏDV ödəyicilərinin sayı 84,2 faiz, qeydiyyatda olan "Online NKA"-ların sayı 70,4 dəfə, aktiv POS-terminalların sayı isə 4,7 dəfə çoxalıb.

Dövlət əmlakının idarə olunmasında da müsbət nəticələr əldə olunub. Yeni bağlanmış icarə müqavilələrinin sayı 44 faiz azalsa da, icarədən büdcəyə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 55,4 faiz artıb. Özəlləşdirmədən daxilolmalar 39,5 faiz artaraq 2,6 milyon manat təşkil edib, muxtar respublika büdcəsinə və xüsusi vəsait hesabına daxilolmalar isə 40 faiz artıb. Bundan başqa, hesabat dövründə 16,6 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 3 dəfə çox) güzəştli kreditin geri qaytarılması təmin olunub.

Naxçıvan Muxtar Respublikası üçün xüsusi vergi güzəştləri paketi hazırlanıb. Bu paketin qeydiyyata alınan və orada fəaliyyət göstərən sahibkarlıq subyektlərinə şamil olunacağı nəzərdə tutulub. Güzəştlər paketində subyektlərin vergi yükünün azaldılması, iri həcmli vergi güzəştlərinin verilməsi, real sektorun vergi dərəcələrinin sıfırlanması, 10 il müddətinə vergidən azad edilməsi təşəbbüsləri də yer alıb. Bütövlükdə əsas məqsəd Naxçıvan Muxtar Respublikasının mövcud və sonradan yaranacaq vergi ödəyicilərinə vergi güzəşləri verməklə onlar üçün əlverişli biznes mühitini təmin etmək olub. Bu layihənin gələn ildən qüvvəyə minəcəyi gözlənilir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin məlumatına görə, cari ilin 11 ayı ərzində adıçəkilən nazirlik tərəfindən "ASAN xidmət" vasitəsilə sahibkarlara 88 lisenziya verilib. Muxtar respublikanın müvafiq qurumlarının verdiyi 4758 icazə reyestrdə qeydiyyata alınıb və bunun nəticəsində 143,6 min manat vəsait (ötən ilin müvafiq dövrü ilə müqayisədə icazələr 14,3 dəfə, verilmiş icazələrdən daxilolmalar isə 2,3 dəfə çox) əldə edilib.

Bununla yanaşı, cari ilin 10 ayı ərzində qədim diyarda istehsal edilmiş məhsullardan Gürcüstan Respublikasına 3,2 milyon dollar, Rusiya Federasiyasına 1,2 milyon dollar, Yəmən Respublikasına 1,3 milyon dollar və digər ölkələrə 3,1 milyon dollar olmaqla, ümumilikdə, 8,8 milyon dolları dəyərində ixrac olunub. Hesabat dövründə Naxçıvanda istehsal olunmuş məhsulların ixracı üçün 335 mənşə seritfikatı (ötən ilin eyni dövrü ilə müqayisədə 24,1 faiz çox) verilib.

***Tahir AYDINOĞLU,***
***Vaqif BAYRAMOV,***
***Səbuhi HƏSƏNOV***
***XQ***

**Bakı– Naxçıvan– Bakı**

# Sosial siyasətin hədəfi yüksək rifah və vətəndaş məmnunluğudur

## *Yeni paket 3 milyon insana şamil olunacaq*



**Müasir müstəqil Azərbaycan dövlətini quraraq onu uzunmüddətli inkişaf yoluna səfərbər edən ümummilli lider Heydər Əliyev, eyni zamanda, ölkəmizin sosial inkişaf strategiyasını formalaşdırıb, müasir və dayanıqlı sosial müdafiə sisteminin qurulması üçün mühüm addımların atılmasını təmin edib.**

Ulu öndərin müdrik və uzaqgörən siyasətini yüksək səviyyədə davam etdirən, müstəqil dövlətimizi dinamik inkişaf yolunda daim irəli aparan və möhtəşəm Zəfər zirvəsinə yüksəldən Prezident İlham Əliyevin güclü sosial siyasəti, uğurlu sosial islahatlar proqramı ölkədə sosial inkişafın davamlı xarakter almasına, vətəndaş rifahının təminatı sahəsində mühüm nailiyyətlərin əldə olunmasına imkan verib.

"Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır". Ölkə Prezidentinin bu sözləri onun tapşırıqları əsasında ardıcıl olaraq həyata keçirilən, o cümlədən son illər bir-birinin ardınca reallaşdırılan, hər biri neçə-neçə vətəndaşın rifahının dəstəklənməsində önəmli rol oynayan sosial islahatlarda aydın və əməli təsdiqini tapır. Buna nümunə olaraq dövlətimizin başçısının fərman və sərəncamları əsasında 2018–2024-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketinin icra olunmasını, bu islahatlar üçün 7 milyard manat əlavə illik vəsait ayrılmasını göstərmək olar. Həmin dövrdə minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiya 2,4 dəfə, müavinət və təqaüd ödənişlərində 5 dəfə, ünvanlı yardımın orta aylıq məbləğində 2,7 dəfə, minimum əməkhaqqında 2,7 dəfə, orta aylıq əməkhaqqında 2 dəfəyədək, median əməkhaqqında 2,2 dəfə, əmək haqqı fondunda 3 dəfə, əmək müqavilələrinin sayında 609 min (48 faiz) artımın olduğunu görürük.

Prezident İlham Əliyevin imzaladığı yeni "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 23 dekabr 2024-cü il tarixli sərəncam vətəndaş rifahının təminatı məqsədilə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir. Yeni sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub.

Yeni sosial islahat paketində digər sosial ödənişlərin artırılması da yer alıb. Sərəncamla Nazirlər Kabineti gələn il sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini 3 ay müddətində ölkə Prezidentinə təqdim edəcək. Göründüyü kimi, müavinət və təqaüd ödənişlərində artım dinamikası da gələn il davam edəcək. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə aylıq tarif (vəzifə) maaşlarının minimum aylıq əməkhaqqının artırılmış yeni məbləğinə uyğunlaşdırılması təmin ediləcək. Bu da həmin sahələr (sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və s.) üzrə 19 pillədən ibarət Vahid Tarif Cədvəlinin ilk pilləsindəki maaşın 400 manata çatdırılmaqla, digər pillələr üzrə maaşlarda da buna uyğun artımların baş verməsinə imkan yaradacaq.

Bu yeni sosial paket çərçivəsində növbəti ilin əvvəlindən pensiyaların indeksləşdirilərək artırılması da nəzərə alınmaqla ümumən 3 milyon insana yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artacaq və həmin artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq.











Dövlət büdcəsində sosialyönlü xərclərin ardıcıl və ciddi artımı da sosial dövlətin mühüm cəhətlərindən biri kimi diqqəti cəlb edir. Məsələn, bu xərclər 2021-ci ildəki 10,3 milyard manatdan 2024-cü il üçün 15,5 milyard manata çatıb və 2025-ci ilin büdcə layihəsində 16,9 milyard manat nəzərdə tutulur. Beləliklə, həmin xərclərdə qısa müddətdə 6,6 milyard və ya 1,6 dəfə artım olub. Sosialyönlü xərclərin çəkisinin büdcədə 41 faiz olması sosial rifahın dövlət siyasətinin prioritet istiqaməti olduğunu bir daha göstərir. Sosial islahatların tərkib hissəsi kimi, əlilliyi olan şəxslərə yönələn sosial ödənişlərin də davamlı artımı təmin olunur. Buna nümunə olaraq əlilliyə görə sosial ödənişlərə ayrılan illik vəsaitdə 2018-ci ilə nisbətən 2,1 dəfə və ya 1,3 milyard manat artım özünü göstərib. Həmin vəsait 2018-ci ildə 1,2 milyard manat təşkil edirdisə, hazırda 2,5 milyard manata yaxındır. Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin sayı son 4 ildə 4 dəfəyə yaxın artırılaraq 34-dən 130-a çatdırılıb.

Əhalinin məşğulluğunun təminatı Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətində mühüm yer tutur. Bunun nəticəsi olaraq, ölkədə çoxsaylı yeni iş yerləri açılmaqla, aktiv məşğulluq proqramlarının əhatə dairəsi də ildən-ilə əhəmiyyətli dərəcədə genişləndirilir. Təkcə 2018–2024-cü illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 635 min vətəndaş işlə təmin edilib, 36 min şəxs peşə hazırlığına cəlb olunub. Ölkə Prezidentinin tapşırığı ilə icra olunan özünüməşğulluq proqramı mühüm sosial-iqtisadi əhəmiyyəti ilə seçilən proqram olmaqla işsiz və işaxtaran şəxslərin kiçik biznesə çıxışına dəstək verir. 2017-ci ildən icra olunan özünüməşğulluq proqramına cəlb olunanların illik sayı ötən dövrdə təqribən 15 dəfə artırılaraq 16 mini ötüb. İndiyədək 93 min şəxs özünüməşğulluq proqramına cəlb edilərək onlara verilmiş aktivlər hesabına kiçik təsərrüfatlarını yaradıblar. Gələn il bu say artıq 100 mini ötəcək.






2020-ci il sentyabrın 27-də isə Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu uğurlu hərbi əməliyyatlarla cəmi 44 gün ərzində möhtəşəm tarixi Zəfər əldə etdi. Beynəlxalq səviyyədə tanınan ərazilərimiz Ermənistanın 30 ilə yaxın davam edən işğalından azad olundu. Tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların mənzil və fərdi evlə təminatı işləri də aparılır. Ümummilli Lider Heydər Əliyevin tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanılan proqram ildən-ilə Prezident İlham Əliyevin göstərişi ilə daim genişlənir, postmüharibə dövründə isə 5 dəfə genişlənib. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 6,8 minədək, ümumən ötən dövrdə 16 minədək mənzil və fərdi ev təqdim edilib. Həmçinin, 44 günlük Vətən müharibəsindən sonra müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 567, ümumən ötən dövrdə 7,7 min avtomobil təqdim edilib.

Dövlət başçısının göstərişi ilə son illər ölkədə müasir reabilitasiya sisteminin qurulması, bu sahədə biopsixososial modelə əsaslanan xidmət spektrinin yeni istiqamətlər üzrə xeyli genişlənməsi də təmin edilib. Ümumilikdə nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya mərkəzlərində bərpa xidməti göstərilən əlilliyi olan şəxslərin illik sayı 7 dəfədən çox artıb. Təkcə bu ilin 11 ayında həmin mərkəzlərdə 113 min şəxsə xidmət göstərilib.

Aparılan uğurlu sosial islahatlar proqramının mühüm nailiyyətləri sırasında DOST Konsepsiyası xüsusi yer tutur. Prezident İlham Əliyevin Fərmanı ilə 2019-cu ildən DOST Agentliyi, Bakı şəhəri, Abşeron və Bərdə rayonlarında olmaqla 7 DOST Mərkəzi, həmçinin Zəngilanın Ağalı kəndində "Smart DOST" xidmət məntəqəsi, 2024-cü ilin iyun ayında Qarabağ Regional DOST Mərkəzinin Şuşada filialı açılıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST Konsepsiyası 15 istiqamət üzrə 160 sosial xidmətin əhaliyə vahid platformadan, "bir pəncərə"dən, şəffaf və operativ, vətəndaş məmnunluğu və rahatlığı prinsipi əsasında təqdim olunmasına imkan yaradıb. DOST konsepsiyası 60-dan çox beynəlxalq mükafat və sertifikatla təltif olunub. Onlardan 12-si "Good practice awards of Europe", yəni, "Avropa üçün yaxşı təcrübə mükafatı"dır. Ümumilikdə dövlət başçısının tapşırıqlarına uyğun olaraq son illər ölkəmizdə aparılan sosial islahatların uğurları mötəbər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymət alır. Təkcə 2024-cü ildə bu uğurlar 110-dan çox beynəlxalq mükafatla təltif edilib.

Prezident İlham Əliyevin uğurlu sosial islahatlar proqramının əsas hədəflərindən biri də dövlət sosial xidmətlərinin innovativ yanaşmalar, müasir texnologiyalar üzərində qurulması, sosial sahədə vətəndaşlar üçün şəffaf və çevik, keyfiyyətli, əlçatan, vətəndaş məmnunluğuna uyğun xidmətlər sisteminin qurulmasıdır. Bu istiqamətdə mühüm uğur olan DOST Konsepsiyasının davamı olaraq, dövlət sosial xidmətlərinin geniş miqyasda elektronlaşdırılması təmin olunub və bu gün Nazirliyin 160 xidmətindən 145-dən çoxu (90 faizdən çoxu) artıq rəqəmsal platformadan təqdim edilir. 30-dan çox e-arayış xidməti, həmçinin 2019-cu ilin əvvəlindən 50-dən çox proaktiv təyinat mexanizmləri, həmin il ölkənin sosial reyestri olan e-sosial.az portalı, 2020-ci ildə fərdi hesabların e-qaydada proaktiv şəkildə açılması xidməti, 2022-ci ildə "Əmək və Məşğulluq" altsistemi işə salınıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqər şöbəsinin verdiyi bu məlumatlara əsasən, əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı ölkədə sosial tərəqqi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasını təmin edib və bu uğurlar qarşıdakı dövrdə də davam edəcək.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Famil Mehdi – 90

# Gözəl söz ustadı, unudulmaz şəxsiyyət

**Tanınmış şair, tənqidçi, publisist, filologiya elmləri doktoru, professor Famil Mehdi ədəbi-elmi fəaliyyəti ilə daim yadda qalan şəxsiyyətlərdəndir. Şeir, məqalə və elmi əsərləri hər zaman yüksək dəyər alıb, keçmiş SSRİ və bəzi xarici ölkə xalqlarının dillərinə tərcümə edilib. Fəal pedaqoji, elmi və ictimai işlə məşğul olmuş Famil müəllim ali məktəb tələbələri üçün sanballı dərsliklərin müəllifi olub.**



"Jurnalistika məsələləri" (həmmüəllif kimi) "Alovlu publisist Səməd Vurğun", "Azərbaycan bədii publisistikasının sənətkarlıq problemləri", "Mətbuatda publisistika", "Bədii publisistika" kimi monoqrafik kitablar və dərs vəsaitləri Famil Mehdinin ustad qələminin məhsullarıdır.

Bir şair kimi isə onun "Sevəndən bəri" (1961), "Sadə sətirlər" (1963), "Mənim arzularım" (1964), "Ünvanım dəyişir" (1966), "Ömürdən səhifələr" (1970), "Qarabağ şikəstəsi" (1970), "Sadə sətirlər" (1972), "İllər və talelər" (1974) və s. kitablarını hər kəs sevə-sevə oxuyur. Bu kitablarda bir-birindən maraqlı və yadda qalan şeirləri və bərabər, "İnsan unudulmur", "Göyü çiynində saxlayan adam" poeması da diqqət çəkir. Vətən torpağına sonsuz məhəbbət, insanlara qarşı həssaslıq və qayğıkeşlik bu kitabların əsasını təşkil edir. Xalq şairi Süleyman Rüstəm yazırdı ki, Famil Mehdinin gərgin, şərəfli əməyinin nəticəsində yazılmış bu əsərlər, həqiqətən, ədəbi həyatımıza yaxşı bir nümunədir. "Famil Mehdinin əsərlərində həyatilik, canlılıq, təbiilik çox güclüdür. Cünki o gördüyü hadisələri sevərək qələmə alır. Vətənimizin işıqlı gələcəyinə, yaradıcı adamların tükənməz qüdrətinə böyük inam bəsləyir".

**Min hava çalınıb könül tarımda,**
**Dünyanın nə çoxu, nə azıyam mən.**
**Fəsillər görüşür duyğularımda,**
**Elin həm qışıyam, həm yazıyam mən.**

**Anam Qarabağın, Milin, Muğanın,**
**Siz də mənim kimi eşqilə yanın.**
**Başına döndüyüm Azərbaycanın,**
**Dəli Kürüyəm mən, Arazıyam mən.**

**Familəm, həmişə yanmaqdır peşəm,**
**Can deyən gözələ canan demişəm.**
**Bu yolda sevinc də, qəm də yemişəm.**
**Bir daha demərəm tamarzıyam mən.**

Xalq yazıçısı Mehdi Hüseyn 1961-ci ildə, hələ Famil Mehdi bir o qədər də tanınmayan zaman "Ömür təzələnir" poeması ilə əlaqədar ona belə bir məktub yazıb: "Əzizim Famil! Bir yay günündə möhtərəm aktyorumuz Ələsgər Ələkbərovla Buzovna qayaları üstündə oturub balıq tutarkən radioqəbuledicini işə saldıq. Səhnələşdirilmiş poeziya əsəri verilirdi. Elə ilk dəqiqədən diqqətimizi cəlb etdi. Görəsən kimin əsəri idi? Hərəmiz bir şairin adını çəkdik. Lakin diqqətlə qulaq asıb verilişin axırını gözləməli olduq. Axırda biləndə ki, poema görkəmli şairlərin deyil, sənin – cavan bir şairin qələmindən çıxmışdır, ikiqat sevindik. Hər ikimiz səni alqışladıq. Əzizimiz Famil! Aktyor dostum kimi mənim də hər şeydən əvvəl diqqətimi cəlb edən bu oldu ki, sən insanların sevinc və iztirablarını, daxili sarsıntılarını, həyat eşqini canlı poeziya dili ilə verə bilmisən. Sənin qəhrəmanların sevən, həyatın çətinliklərinə sinə gərən, qələbə çalmaq üçün özündə möhkəm qüvvə toplamağı bacaran real insanlardır. Bu sözlər birinci növbədə Nadirə aiddir: Müharibənin faciəsi onun timsalında ustalıqla ümumiləşdirilmişdir. Sənin təsvirində Nübar həqiqətən də səmimi və qayğıkeşdir, geniş ürəklidir. Adını bilmədiyimiz qadının – balaca Təranənin əsl anasının iztirabları təbiidir".

Böyük şairimiz Məmməd Araz da qələm dostunun yaradıcılığını yüksək dəyərləndirib: "Famil Mehdinin poetik məramında əbədi çağırışlardan biri insan taleyinə münasibət məsələsidir. İnsanın taleyi qorunmayan yerdə mənəvi azadlıqdan, əmin-amanlıqdan, ümumiyyətlə, heç bir sosial ədalətdən söz gedə bilməz. Bu mənada Famil dünyanın ürək döyüntüsünü duyan, ona cavab verən sənətkardır."

...Biz universitetin jurnalistika fakültəsinə qəbul edilən zaman qayda belə idi ki, əvvəl yaradıcılıq müsabiqəsi keçirilirdi və yalnız yazdığı inşa bəyənilən abituriyentlər imtahanlara buraxılırdı. Mənim inşam professor Famil Mehdinin müsbət rəyi ilə dəyərləndirilmişdi. Amma ilk cəhdimdə imtahanlardan lazımi qədər bal toplaya bilmədiyim üçün universitetdən sənədlərimi geri götürəndə həmin rəyi də alıb yadigar saxladım. Yazı qabiliyyətim haqqında Famil müəllimin yüksək həssaslıqla qələmə aldığı qeydlər məni daha da ürəkləndirdi və növbəti ildə uğurla imtahan verərək tələbə adını qazandım.

Elə təhsil illərində də eşidib gördüm ki, Famil müəllim tələbələrin sevimli müəllimi, dostu və sirdaşıdır. Onun 90 illiyi ilə əlaqədar məqalə yazdığımı eşidən həmin tələbələrdən biri, qələm dostum İlqar Həsənov mənə professorun qayğıkeşliyi, tələbələrə doğma münasibəti ilə bağlı bir epizod danışdı.

– Qrup yoldaşım, Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayev bizimlə eyni kursda oxuyan Lalə adlı qızı sevirdi. Lakin qızın atası tibb elmkləri doktoru, professor, anası isə məşhur ginekoloq idi. Buna görə də adi bir kəndli balası olan Alının elçilərini geri qaytarmışdılar. Əlacsız qalan Alı dərdini tələbələrin ən yaxın dostu sayılan professor Famil Mehdiyə danışdı. Bu da təsadüfi deyildi. Famil müəllimin şeirlərinin birində belə misralar vardı:

**Səslənir qəlbimdə söz incə-incə,**
**Demirəm köçəri quşdu gözəllər.**
**Siz ölçüb-biçincə, fikirləşincə**
**Bir də görərsiniz, köçdü gözəllər.**

**Elçi də getməyə hazıram bu gün,**
**Tamada olmağa yenə hazıram.**
**Məktub əvəzinə, bax, bunun üçün**
**Həmin bu şeiri də sizə yazıram.**

Famil müəllim elçiliyə gedib qızın valideynlərinin razılığını aldı. Və şeirində yazdığı kimi, onların toyunda möhtəşəm bir çıxış eləyib, qol götürüb oynadı da. Onun belə savab işləri çox olub. Təsadüfi deyil ki, Famil Mehdi yazırdı:

**Məni dostun yolunda**
**İmtahana çəkin ki,**
**Çox alışıb yanmışam,**
**Dostları bu dünyada**
**Mən özüm qazanmışam!**

Dünyaca məşhur texnika elmləri doktoru, professor Rafiq Əliyevin ölməzliyə qovuşmuş dostu, filosof şair Famil Mehdi haqqında xatirələrindən: "Onun səsi auditoriyalardan, ciddi diskussiyalar aparılan elmi-nəzəri konfranslardan, ziyalılarla, adi insanlarla, əsgərlərlə görüşlərdən, dövrün nəbzi döyünən, xalqın taleyi həll olunan tribunalardan gəlirdi. Famil müəllimin keçdiyi mənalı həyat yolu onu əsl ziyalı, poeziya və elm fədaisi, zəhmətkeş alim, yüksək siyasi və ictimai təfəkkür sahibi, səmimi insan, gözəl şəxsiyyət kimi xarakterizə edir... Famil Mehdi Qarabağ torpağını özü qalxdığı zirvəyə ucaltsa da, əsl mənada bütöv Azərbaycan şairidir. Azərbaycan onun poeziya dünyasının şah əsəridir… Famil Mehdi ilə böyük alimimiz Xudu Məmmədov arasında da sıx dostluq var idi. Tez-tez bir yerdə Qarabağa döyüş yerlərinə gedərdilər. Xocalı faciəsini eşidən kimi isə mənimlə dərhal ora yollanıb... O milyonlarla oxucularının, tələbələrinin, Qarabağsevərlərin, Azərbaycan təəssübkeşlərinin qəlbində həmişə yaşayır".

**Ləpələr sahilə can atır yaman,**
**Bəlkə də çoxları bunu duymayır.**
**Sanki qulağıma deyir astadan:**
**İnsan bu dünyada unudulmayır.**

Famil müəllimin misralarıdır. Biz sizi heç vaxt unutmayacağıq, əziz Famil müəllim! Ruhunuz şad olsun!

*Əli NƏCƏFXANLI*
*XQ*

Yeni nəşrlər

# "Qızılbaş ensiklopediyası: 1001 termin və xüsusi ad"




**AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu və Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyasının birgə təşkilatçılığı ilə Şah İsmayıl Xətainin vəfatının 500-cü ildönümünə həsr olunmuş ikicildlik "Qızılbaş ensiklopediyası: 1001 termin və xüsusi ad" kitabı təqdim olunub.**

Əvvəlcə Qızılbaşlığın Azərbaycan tarixində rolunu əks etdirən qısa sənədli filmə baxılıb, daha sonra Şah İsmayıl Xətainin süni intellekt proqramı ilə yaradılmış avatarının gələcək nəsillərə videomüraciəti nümayiş etdirilib.

Mərasimi giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan tarixinin iftixar ediləsi səhifələrinin, o cümlədən Qızılbaşlıq tarixinin araşdırılaraq geniş oxucu kütləsinə və gənc nəslə çatdırılmasının xüsusi əhəmiyyət daşıdığını qeyd edərək bu sahədə akademiya əməkdaşlarının iştirakından məmnunluğunu ifadə edib. O bildirib ki, yeni kitabda geniş coğrafiyanı əhatə edən Səfəvilər dövləti haqqında ilk dəfə bir çox tarixi faktlar ictimaiyyətə təqdim edilib. Bu ensiklopediya müstəqil Azərbaycan dövlətinin elm siyasətinin tələblərinə cavab verən qiymətli mənbədir.

ABİA idarə heyətinin sədri Elçin Əsgərov öz çıxışında 8 bölümdən və 1001 başlıqdan ibarət olan ensiklopediyada əksini tapan tarixi mənbələrlə bağlı məlumatlardan bəhs edib. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Xüsusi Tapşırıqlar üzrə səfiri Elşad İskəndərov, AMEA-nın Tarix və Etnologiya İnstitutunun direktoru, professor Kərim Şükürov, Milli Məclisin deputatı Naqif Həmzəyev, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov və AMEA-nın Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Tofiq Nəcəfli ensiklopediyanın məziyyətlərini vurğulayıb, Qızılbaşlığın dövlətçilik tariximizdə rolu haqda düşüncələrini bölüşüblər.




Sonra yeni nəşr AMEA-nın Mərkəzi Elmi Kitabxanasına hədiyyə edilib.

*XQ*

# Görkəmli professorun irsi əbədiləşdirilib




**Milli Kitabxanada "Şirməmməd Hüseynov. Biblioqrafiya" kitabının və eyniadlı elektron məlumat bazasının təqdimat mərasimi keçirilib.**



"Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından işıq üzü görən kitab görkəmli alim və pedaqoq, Cümhuriyyət və mətbuat tariximizin böyük tədqiqatçısı, professor Şirməmməd Hüseynovun anadan olmasının 100 illiyinə həsr edilib.

Təqdimat mərasimində mədəniyyət naziri Adil Kərimli, tanınmış elm və mədəniyyət xadimləri, media nümayəndələri iştirak ediblər.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov çıxışında deyib ki, Şirməmməd Hüseynov Cümhuriyyət dövrünün, Azərbaycan müstəqillik tarixinin, eləcə də mətbuat tarixinin öyrənilməsində böyük rol oynayan görkəmli şəxsiyyətlərdən biridir. O, milli məfkurəmizin böyük simaları Ü.Hacıbəyli, M.Ə.Rəsulzadə, Ə.Ağayev, Ə.Topçubaşov, Ə.Hüseynzadə, Ö.F.Nemanzadə və başqa mütəfəkkirlərin zəngin irsini, milli tərəqqi, istiqlal düşüncəsi ilə bağlı ölməz fikirlərini böyük fədakarlıqla toplayaraq abidə nəşrlər ortaya qoyub.

Milli Məclisin sədr müavini, akademik Rafael Hüseynov unudulmaz alimin həyat yolundan və yaradıcılığından ətraflı bəhs edib. O, Şirməmməd Hüseynov kimi insanların millətin sərvəti olduğunu vurğulayıb. Bildirib ki, bu biblioqrafiya kitabı Şirməmməd Hüseynovun kimliyi barədə suala cavabın ən mükəmməl nümunələrdən biridir və böyük cəfakeş alimin xatirəsini əsrlərlə yaşadacaq bir abidədir.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli yubilyarı 20 cildlik mətbuat tarixi salnaməsinin yaradıcısı, 800-dən artıq elmi və elmi-publisistik məqalənin müəllifi kimi xarakterizə edib. Mərasimdə Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev, Azərbaycan Mətbuat Şurasının sədri, Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid, BDU-nin professorları Cahangir Məmmədli, Qulu Məhərrəmli, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, professor Anar İsgəndərov, Medianın İnkişafı Agentliyinin direktor müavini Natiq Məmmədli, Milli Məclisin deputatı, Əməkdar jurnalist Vüqar Rəhimzadə və "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan çıxış edərək Şirməmməd Hüseynov haqqında xatirələrini bölüşüblər.

Tədbirin davamında Milli Kitabxanada hazırlanan "Professor Şirməmməd Hüseynov-100" adlı elektron məlumat bazasının təqdimatı olub.

Sonda Şirməmməd Hüseynovun qızı, Azərbaycan Milli Konservatoriyasının prorektoru, professor Lalə Hüseynova alimin ailəsi adından çıxış edərək tədbirin təşkilinə görə Milli Kitabxanaya, eləcə də biblioqrafiyanın hazırlanmasında əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

*XQ*



# Üç mindən çox dəmirağacı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Osakücə meşəbəyliyində ağacəkmə aksiyası keçirilib.**

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil olunan aksiyada Lənkəran şəhərinin rəhbərliyi, Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin, Regional Meşə Təsərrüfat Mərkəzinin, hüquq-mühafizə orqanlarının nümayəndələri, idarə və müəssisələrin kollektivləri, eləcə də ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Aksiyadan əvvəl şəhər icra hakimiyyətinin başçısı Taleh Qaraşov bildirib ki, aksiyanın keçirilməsində məqsəd yaşıllıqların artırılmasına, ekoloji tarazlığı təşviq etməklə ətraf mühitin qorunması və sağlamlaşdırılmasına töhfə verməkdir. Qeyd olunub ki, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, iqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün hər bir insanın rolunun əhəmiyyəti, onların enerji səmərəliliyi, su ehtiyatlarının qorunması, tullantıların azaldılması və təkrar emal kimi gündəlik fəaliyyətlərdə iştirak etməklə bağlı həssaslıq nümayiş etdirməsi olduqca vacibdir.

Yaşıllaşdırma aksiyası çərçivəsində 1 hektar ərazidə 3300 ədəd dəmirağacı tingi əkilib, onlara aqro-texniki qulluq göstərilib və suvarılması təmin edilib.

*XQ*

# "Qırxdan sonra..."

**"Nizami" Kino Mərkəzində "Qırxdan sonra…" qısametrajlı bədii filminin təqdimatı keçirildi.**

Filmin yaradıcıları ekran əsəri, onun yaranma ideyası, mövzusu haqqında məlumat verdilər. Ssenari müəllifi Saida Haqverdiyeva ekran işində cəmiyyətimizdəki qadınların, xüsusən özünü ifadəyə çalışan, yaradıcılıqla məşğul olan həmcinslərinin ümumiləşmiş obrazını yaratmağa çalışdığını dedi. Bu mövzuda daha iki film çəkəcəyini, hazırda isə ikinci ekran işi üzərində işə başladıqlarını əlavə etdi.

Sonra qısametrajlı bədii film kinosevərlərə təqdim olundu.

Tragikomik hadisələrlə zəngin ekran əsərində orta yaş dövrünü yaşayan aktyorların çətin həyatını – tamaşaçının bəlkə də görmək istəmədiyi tərəflərini görürük. Filmin əsas qəhrəmanları yaşı 40-ı keçmiş iki qadındır. Onlardan biri illər əvvəl teatrdan uzaqlaşsa da, digəri həyatı yaşamaq – yenidən səhnəyə qayıtmaq üçün mübarizə aparır. Zaman keçdikcə kinoda və teatrda ona olan tələbatın azaldığını hiss edir, lakin bunu qəbul etmək istəmir. Hər gün öz üzərində çalışır. Mübarizə əzmini itirmir. Ən əsası, nikbindir və ən çətin anında belə gülməyi, kədərini gizlətməyi bacarır. Bu filmi cəmiyyətə faydalı olmaq üçün daxili dünyasına işıq salmağı bacaran qadınların mücadiləsi kimi də qəbul etmək olar.

Ekran işinin ssenari müəllifləri Sevda Sultanova və Saida Haqverdiyeva, quruluşçu rejissoru Saida Haqverdiyeva, görüntü rejissoru Şahmar Səfəroğludur.

Filmdə rolları istedadlı aktrisalar Zümrüd Qasımova və Gülçöhrə Abdullayeva ifa edirlər.

Film "RS Production"un istehsalıdır və Mədəniyyət Nazirliyinin dəstəyi ilə nümayiş olunub.

*Fidan SALMANOVA*
*XQ*

Beynəlxalq həyat

# “Gürcü Arzusu” niyə Qərbdə bu qədər arzuolunmazdır?

## *MSK: “Parlament seçkiləri ilə bağlı iddialar əsassızdır”*

**“Hakim “Gürcü Arzusu” partiyası xarici “dostları”n əmrlərini yerinə yetirməkdən imtina edərək ölkənin sınaq poliqonuna çevirilməsinin qarşısını alıb”. Bu barədə Gürcü Arzusu – Demokratik Gürcüstan Partiyasının baş katibi, Tbilisi meri Kaxa Kaladze deyib. Onun sözlərinə görə, Ukrayna hadisələri başlayandan sonra xarici qüvvələr Gürcüstana daha çox maraq göstəriblər: “Ölkəmizə və hökumətə təzyiqlər edildi. Gürcüstandan onların maraqlarının poliqonu kimi istifadə edilməli, Rusiyaya qarşı ikinci cəbhə açılmalı idi. Bu, ölkəmizin maraqlarına, əhalinin dinc gələcəyinə təhlükə yaradırdı. Bundan imtina edildi. “Gürcü Arzusu”nun hökuməti onlar üçün qəbuledilməz oldu. Amma geri çəkilmədik. Bütün dünyaya göstərdik ki, prinsipiallıq və ölkəmizi və dövlətimizi müdafiə etməyə gələndə həmişə belə olacağıq”.**



Kaladze qeyd edib ki, Gürcüstan əhalisi ölkənin üzləşdiyi geosiyasi çağırışlarla bağlı “Gürcü Arzusu”nun prinsipial mövqeyini görüb və yüksək qiymətləndirib. Buna görə də seçicilər daha dörd il hakimiyyət cilovunu “Gürcü Arzusu”na etibar ediblər.

Onun sözlərinə görə, Gürcüstan Avropa İttifaqına daxil olmağa can atır, lakin heç kimə bu məsələdən ölkəyə qarşı şantaj vasitəsi kimi istifadə etmək hüququ vermir: “Heç kim balaca uşaqlar kimi bizdən xilas olmaq üçün Avropa İttifaqına daxil olmaq məqsədini tələyə çevirməməlidir”.

Kaladze Avropa diplomatiyasının sabiq rəhbəri Xosep Borrelin Gürcüstanda Moldova ilə müqayisədə mənzərənin “qaranlıq” olduğu barədə sözlərini xatırladıb. O vurğulayıb ki, artıq danışıqların başlandığı Moldova hələ də MDB-nin üzvü olaraq qalır."Bu, Avropa ədalətidir?”, – o deyib.

Kaladze etiraz aksiyalarına da toxunub: “Rustaveli prospektində nə görürük? Yaxşı təşkil olunmuş radikal qruplar, ekstremist təşkilatlar, qeyri-hökumət təşkilatları, xarici qüvvələr tərəfindən rəhbəri Salome Zurabişvili təyin edilmiş müxalifət partiyalar. Onlar xaricdən maliyyələşir, ölkədə əmin-amanlığı pozur, gərginlik yaradırlar”.

Qeyd edək ki, oktyabrın 26-da keçirilmiş seçkilərinin nəticələri parlamentə daxil olan hər dörd müxalifət qüvvəsi, onları dəstəkləyən QHT-lər və Gürcüstan prezidenti Salome Zurabişvili tərəfindən rədd edilib. Etirazçılar yeni parlament seçkilərinin keçirilməsini tələb edirlər. Bununla bağlı Gürcüstan Mərkəzi Seçki Komissiyasından bildirilib ki, parlament seçkiləri ilə bağlı etirazçıların iddiaları əsassızdır: “Bu cür çıxışların siyasi motivli və əsassız olduğunu bildiririk”. Mərkəzi Seçki Komissiyasının bəyanatında deyilir: “Seçkilərin saxtalaşdırıldığına dair prezidentin bəyanatları heç bir sübuta əsaslanmır və faktiki halları qəsdən siyasi məqsədlə təhrif edir. Seçki nəticələrinə əsaslı təsir göstərə biləcək hər hansı pozuntu barədə təsdiqlənmiş faktlar mövcud deyil. Lakin prezident və bəzi şəxslər seçki administrasiyasını gözdən salmağa çalışaraq ölkədəki gərginliyi daha da artırmağa cəhd göstərirlər”.

Sənəddə deyilir ki, seçkilər qanun çərçivəsində yüksək peşəkarlıqla keçirilib və bu, beynəlxalq müşahidəçilər, o cümlədən ATƏT-in hesabatlarında təsdiqlənib. Bundan əlavə, seçki prosesi ilə bağlı səsləndirilən narazılıqların araşdırılması üçün hüquq-mühafizə orqanlarına müraciət edilib, lakin indiyədək konkret sübutlar təqdim olunmayıb.

Bütün bunlara baxmayaraq, Qərb müxalifəti dəstəkləməkdə davam edir. Gürcüstan hakimiyyətini demokratiyadan geri çəkilməkdə, anti-Qərb ritorikasında ittiham edir. Bu ölkədə “Xarici agentlər haqqında” və LGBT təbliğatını qadağan edən “Ailə dəyərlərinin və yetkinlik yaşına çatmayanların müdafiəsi haqqında” qanunların qəbulundan sonra münasibətlər daha da pisləşib.

Qərb ölkələri Gürcüstan hökumətinə yardımlarının bir hissəsini dondurub və ölkənin Aİ-yə inteqrasiyasını faktiki dayandırıb. ABŞ Gürcüstanla strateji tərəfdaşlığı və “Noble Partner” təlimlərini qeyri-müəyyən müddətə təxirə salıb. Bundan əlavə, Birləşmiş Ştatlar 100-dən çox Gürcüstan vətəndaşına, o cümlədən nazirlər, deputatlar və təhlükəsizlik rəsmiləri üçün “demokratiyanı sarsıtdığına görə” viza məhdudiyyəti qoyub. Üstəlik, Daxili İşlər Nazirliyinin rəhbəri Vaxtanq Qomelaurini və Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlar Departamentinin rəis müavini Mirzə Kezevadzeni “Maqnitski siyahısı”na əlavə edilib. ABŞ onları parlament seçkiləri (26 oktyabr) fonunda “xalqa ciddi təzyiq göstərməkdə və jurnalistlərə qarşı zorakılıqda” ittiham edib.

Aİ Gürcüstana yüksək səviyyəli səfərləri və Brüsseldə Gürcüstan hakimiyyəti ilə yüksək səviyyəli görüşləri və maliyyə yardımını dayandırıb. Bundan başqa, Avropa Komissiyası diplomatik pasportlara malik Gürcüstan vətəndaşlarının Aİ-yə girişini qadağan etməyi tövsiyə edib.

Britaniya Gürcüstanla strateji “Wardrop Dialogue” proqramını dayandırmaqla müdafiə sahəsində yüksək səviyyəli danışıqlarını ləğv edib. Gürcüstan Daxili İşlər Nazirliyinin beş yüksək vəzifəli əməkdaşına qarşı sanksiya tətbiq edib.

Aİ-nin ayrı-ayrı ölkələri – Litva, Latviya və Estoniya Gürcüstan vətəndaşlarına, o cümlədən Gürcüstanın baş naziri İrakli Kobaxidzeyə qarşı sanksiyalar tətbiq edib. Onlar Gürcüstan hakimiyyətini dinc nümayişçilərə qarşı repressiya və zorakılıqda ittiham ediblər.

***P.ƏFƏNDİYEV***
***XQ***

XQ-nin poçtundan

# Kor olmuş gözə nur gətirən həkim

**İnsan üçün sağlamlıq bütün nemətlərdən və dəyərlərdən qiymətlidir. Lakin bəzən bu gerçəyi unudur, səhhətimizə biganə yanaşır, vaxtsız xəstəlik, dərd-bəla tapırıq. Bu isə çox vaxt çətin müalicə olunan xəstəliklərə gətirib çıxarır.**



Mən özüm tibb işçisiyəm. Vaxtında həkimə getməyin, düzgün diaqnozdan sonra müalicə almağın sağlamlığın bərpası üçün nə qədər önəmli olduğunu yaxşı bilirəm. İl yarım əvvəl mənim də sağlamlığımda problem yarandı. Sol gözümdə görmə qabiliyyəti qəfildən zəifləyəndə dərhal həkimə müraciət etdim. Dərdimin çarəsi üçün üz tutduğum tanınmış göz həkimləri müalicə üçün dərmanlar yazırdılar. Amma müəyyən dövrdə gözümdə görmə qabiliyyətim artsa da, təkrar zəifləmə yaranırdı.

Beləliklə, 6 ay Bakıda bir çox şəhər xəstəxanalarında, özəl tibb ocaqlarında göz həkimlərinin qəbulunda oldum, onların müalicəsini aldım. Axırda gözümdə ağırlaşma və xəstəliyin şiddətlənərək korluqla nəticələnəcəyi diaqnozunu qoyub müalicə etməkdən imtina etdilər. Çəkinmədən “bu xəstəliyin müalicəsi yoxdur” deyənlər də oldu.

Ölim hər yerdən üzüləndən sonra yaxın bir adamın məsləhəti ilə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasına gəldim. Fizioterapiya və reabilitasiya şöbəsinin müdiri Nurlana Əliyevanın yönəltməsi ilə oftalmologiya şöbəsinin müdiri Qurban İsmayılov gözümü yenidən müayinə etdi. Həkim yanlış diaqnoz qoyulduğunu və düzgün müalicə aparılmadığını bildirib, xəstəliyin səbəbini dərindən araşdırdı. O, gözümdə naməlum virus səbəbindən nazik pərdə əmələ gəldiyini və əsaslı müalicəyə başladı.

Həkimin məni təmənnasız müayinə etməsi, müalicənin yaxşı getməsi, irəliləyişin olması qəlbimdə ümid çırağı yandırırdı.

Aylar ötür. Təyin olunan zamanlarda müayinələrə gedir, dərmanlar qəbul edirdim və gözümə iynələr vurulurdu. Müalicələrin nəticəsində görmə qabiliyyətimin yaxşılaşmasını hiss etsəm də, tam sağalmağıma inanmırdım. Müalicə xeyli uzansa da, Qurban həkim səbr və diqqətlə gözümü virusdan da xilas etdi, kataraktanı da əməliyyatla aradan qaldırdı.

Məni bir ilə yaxın təmənnasız müalicə edən, hər dəfə “mən sizi sağaldacam”– deyərək təsəlli verən Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə klinikasının Oftalmologiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Qurban İsmayılova hədsiz minnətdarlığımı bildirirəm. Gözünüzün nuru azalmasın, həkim. neçə-neçə xəstə sizin şəfqətli əllərinizə, dərman kimi məlhəm olan sözlərinizə möhtacdır. Çox sayda xəstəyə nur bəxş edən, “möcüzə” yaradan oftalmoloq alimə yeni uğurlar arzulayıram.

***Xanım DADAŞOVA,***
***“Respublika Psixiatriya Xəstəxanası” publik hüquqi şəxsin böyük tibb bacısı***

# Türkiyə Suriyada sabitləşmə və bərpa prosesinə fəal dəstək göstərir

**Suriyada Bəşər Əsəd hakimiyyətinə son qoyulduqdan sonra ölkədə ictimai-siyasi vəziyyət sabitləşmək üzrədir. Artıq yeni hakimiyyət dövlət idarəçiliyi sahəsində yenidənqurma işləri aparmaqda, hökuməti formalaşdırmaqda, vacib infrastrukturu bərpa etməkdədir. Dünənki məlumata görə, rejimi devirmiş silahlı qruplaşmalarla özlərini buraxmaq və ölkənin müdafiə nazirliyinin rəhbərliyi altında birləşmək barədə razılığa gəlinib.**



Suriya Xəbər Agentliyinin (SANA) məlumatına görə, çoxsaylı silahlı qüvvələrin komandirləri Suriyanın yeni administrasiyasının lideri Əhməd əş-Şara ilə görüşüblər. Keçirilən iclasda məhz silahlı qruplarla “özünü buraxmaq və müdafiə nazirliyinin rəhbərliyi altında birləşmək” barədə razılıq əldə olunub.

Ölkədə sabitlik yaradılmasına və bərpa işlərinə qardaş Türkiyə də ciddi kömək göstərir. Bir neçə gün əvvəl Türkiyə XİN başçısı Hakan Fidan Dəməşqdə olub və ölkənin gələcəyi ilə bağlı müzakirələr aparıb. Dünən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib ki, Ankara tezliklə Hələbdə konsulluq açacaq.

Türkiyənin nəqliyyat və infrastruktur naziri Əbdülkadir Uraloğlu isə Suriyanın bərpası barədə danışıb, bu ölkənin nəqliyyat və kommunikasiya sahələrinin yenidən qurulmasında fəal iştirak edəcəklərini bildirib. Onun sözlərinə görə, Suriyanın əsaslı şəkildə yenidənqurmaya ehtiyacı var: “Hazırkı mərhələdə Suriya əhalisinin ilk növbədə nəyə ehtiyacı olduğunu aydınlaşdırırıq. Ölkə dağıdılıb və xarabalığa çevrilib. Suriyanın bərpası yalnız vahid proqram çərçivəsində mümkündür”.

Nazir artıq bu ərəb ölkəsinin hava limanlarında lazımi işlərə başlanıldığını deyib: “Suriyada 5 hava limanı var. Dəməşq və Hələb hava limanları ön plandadır və yaxın vaxtlarda qədər fəaliyyət göstərirdi. Ötən il Dəməşq hava limanı 100 minə yaxın sərnişinə xidmət göstərib. Müqayisə üçün qeyd edək ki, İstanbul Hava Limanı bu qədər sərnişini 5-6 saata daşıyır. Hələbdə bu rəqəm 50–60 mindir. Əvvəla, radar sistemi yoxdur. Cib telefonlarında nəzarət etdiyimiz hava radar sistemi proqramı var. Təsəvvür edin, onlar bu proqramdan istifadə edərək hava limanlarını idarə etməyə çalışıblar”.

Nazir Uraloğlu əlavə edib ki, bu hava limanlarında hələ də ötən əsrin 90-cı illərində istehsal olunmuş kompüterlərdən istifadə olunur: “Bu hava limanlarında rentgen aparatları və detektorlar müasir şərtlərə cavab vermir. Uçuş-enmə zolaqları ciddi şəkildə köhnəlib və bu yaxınlarda Dəməşqdən Hələbə ilk uçuş yalnız pilotların təşəbbüsü ilə həyata keçirilib. Yəni vizual müşahidə şəraitində heç bir sistem olmadan həyata keçirilib”.

O qeyd edib ki, ilk mərhələdə Suriya hava limanları və dəmir yollarının dirçəldilməsi üzərində işləyəcəklər: “Birinci mərhələdə biz Dəməşqə gedən dəmir yolunun bütövlüyünü təmin edəcəyik. 2009–2010-cu illərdə sərnişin qatarları hələ də bu marşrutla hərəkət edirdi. Amma hazırda hər şey dağıdılıb, infrastruktur və texniki elementlər oğurlanıb. Bu mənada hər şeyi sıfırdan bərpa etmək lazım gələcək”.

Nazir M4 və M5 magistrallarının Suriya üçün əhəmiyyətini vurğulayıb və əlavə edib ki, bu məsələ ilə Türkiyənin Avtomobil Yolları Baş İdarəsi məşğul olacaq. Bu istiqamətdə Milli Müdafiə Nazirliyi ilə birlikdə böyük həcmdə işlər görülüb, dağılmış körpülərin bərpasına başlanılıb.

Nazirin sözlərinə görə, Suriya rabitə baxımından Türkiyədən 20–30 il geri qalır və ölkənin bir çox bölgələrində mobil rabitə yoxdur: “Biz yerlərdə vəziyyəti ətraflı öyrənəcək, ölkənin bərpası və inkişafı üçün vahid plan hazırlayacağıq. Bu məsələdə kifayət qədər manelər var. Bu mərhələdə Suriyanın, demək olar ki, hər şeyə ehtiyacı var. Məsələn, Suriya əskinaslarının Rusiya tərəfindən çap olunduğunu bilirdinizmi? Bir sıra belə ciddi problemlər var ki, onları tez bir zamanda həll etmək lazımdır. Ölkənin köklü bərpa və modernləşməyə ehtiyacı var”.

Suriyanın Aralıq dənizində mühüm limanlara sahib olmasına baxmayaraq, bunlar tənəzzül vəziyyətindədir: “Suriya limanları demək olar ki, inkişaf etməmişdir və ciddi investisiya tələb edir. Türkiyə bu bölgədə ticarət və iqtisadi əlaqələrin artırılmasında maraqlıdır. Bu baxımdan Türkiyə ilə Suriyanın çoxlu ortaq maraqları var. Limanları canlandırmaq və ticarəti yaxşılaşdırmaq üçün əlimizdən gələni edəcəyik”.

Bütün bunlarla bərabər, Türkiyədə məskunlaşmış suriyalı qaçqınların vətənlərinə qayıdışı da sürətlənib. İndi bu insanlar Əsəd rejiminin həbsxanalarından azad olunmuş qohumlarını axtarmağa başlayıblar. Bu məqsədlə onlar Türkiyədə yerləşən Məhbuslar və İtkin Şəxslər Dərnəyindən kömək istəyiblər. Məlum olub ki, 2017-ci ildən bəri 4000-dən çox suriyalı ailə Əsəd rejimi tərəfindən saxlanılan və ya qaçırılan qohumlarını tapmağa çalışır. Dəməşq yaxınlığındakı bu bədnam həbsxana Əsəd rejimi zamanı amansız işgəncələri ilə tanınıb. Rejimin süqutundan sonra bu və digər həbsxanalarda saxlanılmış minlərlə məhbus sərbəst buraxılıb.

Türkiyənin Suriya ilə sərhədindəki Qaziantep vilayətində fəaliyyət göstərən Məhbuslar və İtkin Şəxslər Dərnəyinin əməkdaşları suriyalılara kömək etmək üçün ailələr və keçmiş məhbuslar arasında videozənglər təşkil edirlər. Təşkilatın təsisçisi Riyad Avların özü də Sednaya həbsxanasında 21 illik həbsdə olub və işgəncələrə məruz qalıb. 2017-ci ildə o, keçmiş məhbusların məlumatlarını toplayaraq məlumat bazası yaradıb.

Fatma əl-Həriri adlı qadın iki oğlu – 34 yaşlı Süheyb və 32 yaşlı Mehmet İqbalı axtarır. Hər ikisi rejim əleyhdarı olduqları üçün həbs olunublar. 58 yaşlı qadın bildirib ki, o, Suheyblə sonuncu dəfə 2012-ci ildə, həbsindən cəmi iki gün əvvəl telefonla danışıb: “Mən hələ də ümidliyəm və aidiyyatı orqanlardan tez hərəkətə keçmələrini xahiş edirəm”.

Ruveyda Rəcəb Aha on ildir ki, qardaşı Məhəmməd Həmzədən xəbər almır. Rejim əleyhinə danışan universitet tələbəsi polis tərəfindən aparılıb: “O, 2008-ci ildə həbs olundu və 2014-cü ilə qədər onunla görüşdük. Sonra əlaqəmiz kəsildi. Qardaşımı Sednaya həbsxanasında saxlayırdılar”.

O, Əsəd rejiminin süqutundan sonra xoşbəxtliyə qovuşduqlarını bildirib: “Biz canlandığımızı hiss etdik, sönmüş ümidlərimiz canlandı. Bu xəbəri eşidəndə hiss etdiyimiz xoşbəxtliyi sözlə ifadə etmək mümkün deyil”.

***Paşa ƏMİRCANOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 286 (30690) 26 dekabr 2024-cü il, cümə axşamı

İdman

## Beynəlxalq turnirdə 22 medal

**Azərbaycan üzgüçüləri Açıq Estoniya Qış çempionatında yüksək nəticələr əldə ediblər.**



Azərbaycanla yanaşı, Estoniya, Latviya, Litva, Ukrayna, Finladiyanın 35 klubundan 285 idmançının mübarizə apardığı beynəlxalq turnirdə komandamız 22 medal qazanıb. Yarışda üzgüçülərimizdən Süleyman İsmayılzadə (3 qızıl, 2 gümüş medal), Oqtay Hüseynov (2 qızıl, 2 gümüş medal), Ramil Vəlizadə (1 qızıl, 2 gümüş, 1 bürünc medal), Əbdürrəhman Rüstəmov (1 qızıl, 1 gümüş medal), Fatimə Alkərəmova (2 gümüş, 1 bürünc medal), Səid Həmidov (2 gümüş medal), Rəşad Alquliyev və Məryəm Cavadova (hər ikisi 1 gümüş) fərqləniblər. Süleyman İsmayılzadə 1500 metr məsafədə sərbəst üsulda 1-ci yeri tutmaqla yanaşı, həm də Estoniya rekordunu yeniləyib.

## Güləşçimizin Ufa uğuru

**Azərbaycan təmsilçisi Gözəl Zutova Rusiyanın Ufada keçirilən kəmər güləşi üzrə beynəlxalq turnirdə uğurla çıxış edib.**



Bu barədə Gənclər və İdman Nazirliyinin mətbuat xidməti məlumat verib. Yarışda + 76 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız gümüş medal qazanıb.

*L.QURBANOVA*
*XQ*

Hava

## Yenə də yağmursuz və dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 26-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecəyə doğru bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 4-7, gündüz 8-10° isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunu, nisbi rütubət 75-85 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi şərq rayonlarında çiskinli yağış yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-11° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 3-7° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

Təmiz dünyanın bələdçiləri

# Böyükdüzlü bağbanın "yaşıl əsər"i

**Yaşadığı kənddə hamı onu ağaclara böyük sevgisi ilə seçilən birisi kimi tanıyır. 74 yaşı var. Bu yaşınadək müxtəlif sahələrdə çalışsa da, ağac əkməyi, ona qulluq etməyi ən çox sevdiyi məşğuliyyət hesab edib, bununla nəfəs alıb.**



Həyatda çətinlikləri az olmayıb, təbiətə məhəbbəti hətta sağlamlıq imkanını da məhdudlaşdırıb – bir qolunu itirib. Ancaq ağac əkəndə sevinib, o boy atdıqca fərəhlənib, bar verdikcə arzusunun həyata keçdiyinə inanıb. Ağaclara öz övladı kimi yanaşıb, onların hər nazını çəkib, təkcə gündüzlər deyil, gecələr də onları yoluxub. Beləliklə, heç zaman əkilməyən şoranlaşmış torpaqlarda 5 hektarlıq bağ salmağa müvəffəq olub. Ən maraqlısı isə bunu öz təşəbbüsü ilə edib və inadkarlığı, zəhməti ilə yararsız, boş çöllük ərazini gülüstana çevirməyi bacarıb. Bununla da, tək əllə necə səs çıxarmağı hər kəsə sübut edib.

Hümbət Həsənov Kəngərli rayonunun Böyükdüz kəndində yaşayır. Uzun illər poçtalyon işləsə də, hər kəs onu bağban kimi tanıyır. Elə biz də bağban həmsöhbətimizlə onun əsl "iş yeri"ndə – Naxçıvan–Sədərək magistral yolunun kənarındakı bağda görüşürük. Söhbətə körpü salmaq üçün özünün həyat yolundan, bu işə necə könül verməsindən danışmağı xahiş edirik:

– Böyükdüz kəndinə 1966-cı ildə Şərur rayonunun Ərəbyengicə kəndindən köçmüşük. O zaman 16 yaşım vardı. Atamızı çox cavan ikən itirdiyimizə görə kiçik yaşlarımdan əməyə alışmışam, işləyib ailəyə kömək etmişəm. Hərbi xidmətdən qayıtdıqdan sonra kəndimizin yaxınlığında gəc istehsal edən bir sex vardı, orada işləməyə başladım. Bu sex indiki Naxçıvan–Sədərək magistralının kənarında yerləşirdi. Bu ərazilər şoranlıq olduğundan burada heç bir ağacı ərsəyə gətirmək mümkün deyildi. Ancaq mən işlədiyim sexin yaxınlığında əkdiyim bir neçə ağaca mütəmadi qulluq edərək onları böyüdə bilmişdim. Bu ağaclar mənim daim diqqətimdə idi. Günlərin bir günü işə gələndə gördüm ki, yaxınlıqda bir çoban sürünü ətrafa yayıb, qoyunlar da, eləmə tənbəllik, yeni əkdiyim tinglərin çoxunun yarpaqlarını və şivlərini qoparıb yeyiblər. Buna görə də çobanla mübahisə etdik və gözləmədiyim anda çoban qəfildən bıçaqla qoluma bir neçə zərbə endirdi. Sonra iş yoldaşlarım gəldi və köməklik edərək məni xəstəxanaya apardılar. Çoxsaylı bıçaq zərbələri qolumda böyük fəsadlar yaratmışdı. Müalicə üçün Bakıya göndərilsəm də, sonda həkimlər qolumun kəsilməsi ilə bağlı qərar verdilər. İndiki dövr olsaydı, yəqin ki, əməliyyatla sağala bilərdim və qolum da kəsilməzdi. Nə isə, bu da bir qismət imiş.

Bir müddət sonra Naxçıvana qayıtdım. Uzun müddət sağ qolumun yoxluğuna inanmasam da, sonralar reallıqla barışmalı oldum. Zamanla özümü sol əllə yemək yeməyə, yazmağa, işləməyə alışdırdım. Artıq gəc sexində işləyə bilməzdim. Beləliklə, kəndimizdəki poçt şöbəsində poçtalyon olaraq işə başladım. O zamanlar belə deyildi. Hər gün qəzetlər gəldikdən sonra onları dəstə ilə yığaraq kənddəki abunəçilərin evlərinə paylayırdım.

Beləliklə, həm kəndimizdə, həm də 1978-ci ildən sonra rayon mərkəzində 40 ilə yaxın poçtalyon işlədim. Amma bu müddətdə ağac əkməkdən, onlara qulluq etməkdən heç yorulmadım. Bu işi o qədər sevirdim ki, kəndimizin magistral yola yaxın ərazisində ağaç tingləri əkməyə başladım. Ərazinin torpağı şor olduğundan burada heç bir ağac olmurdu. Məndən əvvəl də bunu təcrübədən keçirənlər olmuşdu, ancaq heç nə əldə edə bilməmişdilər.

**– Bəlkə də, buna görədir ki, Böyükdüz camaatının çoxu mal-qara saxlamağa daha çox meyillidir, nəinki əkinçiliyə...**

– Bəli, orası elədir, amma indi dövr də dəyişib. Böyükdüzün bir çox ərazilərinə su xətləri çəkilib. Artıq bizim bir çox ərazilərimizdə müxtəlif əkinlər keçirilir, ancaq şoranlıq ərazilər də az deyil. Elə mən də ilk dəfə indiki bağın yerləşdiyi ərazidə gilənar ağacları əkəndə çox keçmədi ki, hamısı qurudu. Onlara nə qədər qulluq etsəm də, istəyim baş tutmadı. Çoxları mənə dedi ki, özünü bu işlərlə yorma, əgər buralarda ağac bitsəydi, camaat çoxdan əkmişdi. Amma həvəsdən düşmədim. Növbəti ildə burada söyüd, iydə, tut tingləri əkdim və davamlı olaraq suvardım ki, torpağın şoranlığı getsin.

Düzdür, bir neçəsi qurusa da, salamat qalanları da oldu. Bundan sonra əkdiyim ağacların sayını daha da artırdım və öyrəndim ki, bu cür ərazilərdə ən çox iydə, tut kimi ağaçlar əkmək lazımdır ki, bu ağaçlar həm susuzluğa davamlıdırlar, həm də torpaq suvarıldıqca şoranlıq da gedir. Bunu da deyim ki, yol kənarındakı bu ağacları qorumaq da çətin idi. Çünki dediyiniz kimi, Böyükdüz kəndində mal-heyvan saxlayanlar çoxdur. Bu heyvanlar örüşə gedən zaman bağın yanından keçirdi. Yeni əkilmiş tingləri həm onlardan, həm də tanımadığım, ağaclara istənilən zaman zərər verə biləcək yoldan keçənlərdən qorumalı idim.

Aradan bir neçə il keçdikdən sonra istəyimə çatdım. Ağaclar böyüdükcə, onların zərər görmək ehtimalı da azaldı. Hazırda burada böyüyən ağaclar 5 hektar ərazini əhatə edir. Torpağın şoranlığı da gedib. İndi bu yaşıllıqların içərisində meyvə ağacları da az deyil. Ərik, gilənar, alma ağaclarının gətirdiyi meyvələrdən hər il əsgərlərimizə sovqat göndəririk, yoldan keçənlər də yeyirlər.

Hümbət kişi deyir ki, onda artıq bir vərdiş yaranıb, mövsümü olsa da, olmasa da hər gün sübh tezdən bağa gəlir, ətrafı nəzərdən keçirib sonra yenidən evə geri dönür. Havalar yaxşı keçəndə hətta axşamlar da bağa baş vurur. Bir sözlə, günün istənilən vaxtı bu zəhmətkeş insanı bağda görmək mümkündür. Buradakı ağacların hamısına öz övladı kimi yanaşır, onların hər birini nəzərdən keçirir, vaxtında aqrotexniki qulluq göstərir. Sevinir ki, indi insanlar onun əkib-becərdiyi bağın meyvəsindən yeyir, yayda sərinliyində istirahət edirlər.

Həmsöhbətimiz bunu da bildirdi ki, yaşıllıqlara, təbiətə olan sevgisi illər əvvəl rayon rəhbərliyinin də diqqətini cəlb edib. Buna görə də yolun digər tərəfində salınmış yeni tut bağı da ona həvalə edilib. Təsadüfi deyil ki, dövlətimiz tərəfindən əməyi qiymətləndirilən Hümbət Həsənov bir neçə il bundan əvvəl həm də "Rəşadətli əməyə görə" medalı ilə təltif olunub. Yeri gəlmişkən, Hümbət kişi bu il bir neçə hektar ərazidə taxıl da əkib. Amma özünün də dediyi kimi, əsl sevgisi ağaclaradır. "Ömür yetsə, digər şoranlıq ərazilərdə də yaşıllıqlar salacağam", – deyir. Biz isə, öz növbəmizdə, ona "xeyirli olsun" diləklərimizi çatdırırıq.

Bəli, Hümbət Həsənovu hər kəs işgüzar, zəhmətkeş bağban kimi tanıyır. Ağac əkib-becərməyi, yaşıllıqlara qulluq etməyi özünün həyat tərzinə çevirən bu maraqlı və zəhmətkeş insan çoxlarımız üçün nümunədir. Onunla söhbətimiz uzun çəkir və bu görüş əsnasında ona bir neçə dəfə ünvanlamaq istədiyim, amma hər dəfə də ehtiyat etdiyim sualımı, nəhayət ki, dilə gətirirəm: "İndiyədək tək əllə işləmək sizə çətinlik yaratmayıb ki?" Zəhmətkeş bağban dedi: "Mən həyatda itirdiyim qoluma təəssüflənmirəm, əkib-böyütdüyüm ağacların qol-budaqları ilə nəfəs alıram".

**Səbuhi HƏSƏNOV,**
**XQ-nin Naxçıvan müxbiri**

## Məhkumlara peşə öyrədilir

**Dövlət Turizm Agentliyinin tabeliyində olan Milli Kulinariya Mərkəzi, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti və Dövlət Məşğulluq Agentliyinin birgə təşkilatçılığı ilə 2023-cü ilin avqust ayından etibarən keçirilən pilot layihə üzrə hesabat təqdim olunub.**



Hesabata əsasən, 12 avqust–19 dekabr tarixlərində 9 müxtəlif cəzaçəkmə müəssisəsində, ümumilikdə, 96 məhbusa təlim keçirilib və müvafiq sertifikatlar təqdim edilib. Layihədə Azərbaycan mətbəxinə həm nəzəri, həm də təcrübə baxımından bələd olan 5 aşpaz və texnoloq ekspert və təlimçi qismində cəlb olunub. Onlar məhkumlara aşpazlıq kursları keçib, onları yeni peşə bacarıqlarına və biliklərinə yiyələndirib, eyni zamanda, müəssisələrdə hazırlanan yeməyin keyfiyyətinin yaxşılaşdırılması və nəzarəti barədə zəruri məlumatlar veriblər.

Dövlət Turizm Agentliyinin məlumatına görə, hər bir cəzaçəkmə müəssisəsində aşpaz kimi çalışan məhkumlara kulinariya üzrə yerli mütəxəssislər tərəfindən nəzəri və praktiki dərslər təşkil edilib. Bu dərslər çərçivəsində mətbəx və anbarda tədarük prosesi, məhsulların düzgün saxlanılması, mətbəxdə işləməyin əsas prinsipləri, HACCP və İSO standartlarına uyğun sanitariya-gigiyena qaydaları, qida zəhərlənmələrinin qarşısının alınması və çarpaz çirklənmələrin idarə edilməsi öyrədilib. Eyni zamanda, menyunun düzgün seçilməsi, təqdimatı və texnoloji kartların hazırlanması mövzularına toxunulub. Milli mətbəxə aid dərslər, mətbəx mədəniyyəti, mövsümi yeməklər, sərinləşdirici içkilər və nümunələrin hazırlanma texnologiyasını əhatə edib.

Layihənin əsas məqsədi cəzaçəkmə müəssisələrində aşpaz qismində fəaliyyət göstərən məhkumların mətbəx bilikləri üzrə maarifləndirilməsi, həmçinin paralel olaraq cəzaçəkmə müəssisələrinin mətbəxinin təkmilləşdirilməsidir.

**Qəzənfər QASIMOV**
**XQ**

Sağlamlıq

## ...Qüvvət gəlsin qollarına!

**"Bədəndə güc və enerjini bərpa etmək üçün rasiona müəyyən qidaları daxil etmək lazımdır. Bu qidalara ispanaq, avokado və çia toxumları daxildir". Bu barədə rusiyalı dietoloqlar jurnalistlərə açıqlama verərkən danışıblar.**



Açıqlamada deyilir ki, ispanaq immuniteti gücləndirir və orqanizmin enerji istehsalına kömək edir. Tərkibində çoxlu dəmir və zülal var, buna görə də soyuq qış aylarından və ya hansısa xəstəlikdən sonra bədən zəifləyəndə mütəxəssislər ona xüsusi diqqət yetirməyi məsləhət görürlər.

Bundan başqa, gücü azalan insan qida rasionuna avokado daxil etməlidir. Avokado enerji və sağlamlığa kömək üçün kalium, vitaminlər, minerallar və lif ehtiva edir.

Enerji səviyyəsini artırmağın başqa bir yolu çia toxumu yeməkdir. Çia uzun müddət toxluq hissini təmin etdiyi üçün arıqlamaq istəyənlərə də ideal məhsuldur.

Mütəxəssislər, həmçinin gücü və enerjini bərpa etmək üçün səhərlər acqarına bir stəkan limonlu su içməyi və tərkibində, ən azı, 70 faiz kakao olan yüksək keyfiyyətli tünd şokolad qəbul etməyi məsləhət görürlər. Bu delikatesin tərkibində maddələr mübadiləsini canlandıran və stimullaşdıran teobromin və kofein var.

*Z.HÜSEYNLİ*
*XQ*

***✓ "Yaradıcı Ziyalılar İctimai Birliyi" qeyri-hökumət təşkilatının nizamnaməsi, reyestrdən çıxarışı və qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Hava Yolları" QSC mətbuat xidmətinin sabiq rəhbəri Məhərrəm Səfərli Aktau şəhəri yaxınlığında insan itkisi ilə nəticələnən təyyarə qəzasından kədərləndiyini bildirir, həlak olan ekipaj üzvləri və sərnişinlərin ailələrinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun kollektivi iş yoldaşları Tural Fərəməzova atası

**TURAB MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dillər Universitetinin kollektivi və Həmkarlar İttifaqı Komitəsi universitetin əməkdaşı Xuraman Qurbanovaya anası

**NOHUZƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

T E L E F O N L A R:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

Ü N V A N I M I Z:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2985
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00